Xalqın qəzeti!

# Xalq qəzeti

№ 134 (30828) 4 iyul 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## İqtisadi Əməkdaşlıq Təşkilatının nəbzi azad Qarabağda döyünür



***Prezident İlham Əliyev:*** *Bu gün Qarabağın, Şərqi Zəngəzurun dirçəldiyi, infrastruktur obyektlərinin, evlərin, ictimai binaların tikildiyi bir vaxtda, ilk növbədə, hər bir layihədə məktəb, uşaq bağçası, körpələr evi, tibb məntəqələri planlaşdırırıq. Bunlarsız normal həyat ola bilməz. Əlbəttə, bizim uğurla reallaşdırdığımız "Böyük Qayıdış" Proqramını həyata keçirməli olduğumuz bir vaxtda qardaş ölkələrin köməyi xüsusilə dəyərlidir.*

## Azərbaycanın təşəbbüskar fəallığı İƏT-ə dinamizm və uğur qazandırır

*Ölkəmizin ixrac payı 26,5 milyard dollar, idxal həcmi isə 21 milyard dollardır*



**Azərbaycan müstəqillik qazandıqdan sonra beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq respublikamızın xarici siyasətinin əsas prioritetlərindən birinə çevrilib. Bu baxımdan 1992-ci ildən İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) qoşulan ölkəmiz bu qurum çərçivəsində fəal mövqe nümayiş etdirib, iqtisadi və nəqliyyat əlaqələrinin dərinləşdirilməsində mühüm rol oynayıb. İƏT ilə münasibətlər Azərbaycanın həm regional, həm də beynəlxalq iqtisadi sistemdə tutduğu yerin möhkəmlənməsinə xidmət edib.**

*(ardı 12-ci səhifədə)*

## "Yeraltı müharibə" bitməyib, "mina savaşı" davam edir



səhifə ⇨ 9

## Parisin İrəvana silah tədarükü: Regional sabitliyə təhlükə!

**Azərbaycanın İkinci Qarabağ müharibəsində Zəfər çalaraq ərazi bütövlüyünü bərpa etməsindən, o cümlədən 2023-cü ildə birgünlük antiterror əməliyyatından sonra regionda yaranan geosiyasi reallıqlar Ermənistanın ənənəvi hərbi-siyasi müttəfiqi Rusiyadan üz döndərərək yeni müttəfiq axtarmasını zəruri edib. Bu çərçivədə Fransa ilə hərbi və hərbi-texniki sahədə əməkdaşlığın intensivləşdirilməsi İrəvanın əsas prioritetlərindən birinə çevrilib.**



Fransa prezidentinin və müdafiə nazirinin verdiyi bəyanatlar, eləcə də hərbi sahədə əməkdaşlıq üzrə imzalanmış müxtəlif sənədlər bu istiqamətdə ciddi dönüşün baş verdiyini göstərir. Ermənistan hakimiyyəti isə bu əməkdaşlığa təkcə təhlükəsizlik məsələsi kimi deyil, həm də daxili siyasi sabitliyə dəstək vasitəsi kimi baxır.

*(ardı 9-cu səhifədə)*

## Qərbi Azərbaycan irsi bu torpaqlara vurulmuş tarixi möhürdür



səhifə ⇨ 14

## Azərbaycan Rusiyanı münasibətləri sağlamlaşdırmağa çağırır




*Səmimiyyətdə dostluq da var, amma...*

**"Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri son dərəcə vacibdir". Bu fikir Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovaya məxsusdur. "Məncə, hər iki xalq üçün dostluq münasibətləri həqiqətən də son dərəcə vacibdir. Onları korlamaq istəyənlər isə nə etdikləri barədə yaxşı düşünməlidirlər", – deyən xanım Zaxarova ənənəvi brifinqində onu da bildirib ki, Moskva Bakını münasibətləri strateji müttəfiqlik səviyyəsinə qaytarmaq üçün tədbirlər görməyə çağırır.**

*(ardı 8-ci səhifədə)*

## Aktaudan Yekaterinburqa uzanan "gərginlik reysi"

*Moskva bu "əsəbi marşrut"un mümkün qədər tez qət edilməsinə çalışmalıdır*



səhifə ⇨ 8

## "Arşın mal alan"ın əbədi şöhrəti və erməni saxtakarlığı



səhifə ⇨ 15

# Prezident İlham Əliyevin Füzuli, Xankəndi və Ağdama səfəri

## Əhmədbəyli–Füzuli–Şuşa yolunun açılışı





**İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, mövcud yolun uzunluğu 101 kilometr, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldacaq. Birinci texniki dərəcəyə uyğun olan yolun ilk 48 kilometri 6, qalan 33,7 kilometri isə 4 hərəkət zolağından ibarətdir. Yolboyu 1 qovşaq, 11 körpü, 7 tunel, 6 viaduk, yeraltı keçidlər və digər zəruri infrastruktur yaradılıb. Layihə çərçivəsində inşa edilən körpülərin ümumi uzunluğu 1557 metrdir. Viadukların bəzilərinin tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. İnşaat işləri zamanı yolboyu dəmir-beton və metal sədd çəpərlər, işıqlandırma sistemi quraşdırılıb. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşanı birləşdirir.

Qeyd edək ki, bu yol dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa olunub. Layihənin icrası daxili yol şəbəkəsinin şaxələndirilməsi, bölgə ilə respublikanın digər rayonlarının nəqliyyat əlaqəsinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Bundan başqa, bu yol beynəlxalq nəqliyyat dəhlizlərinin ölkəmizdən keçən hissəsinin də tərkibinə aid olmaqla çox mühüm rol oynayır. Yeni yol, eyni zamanda, bölgədə turizmin inkişafına və iqtisadi fəallığı artırmağa da böyük töhfə verəcək.

## Xankəndidə Zəfər parkında görülən işlərlə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndidə Zəfər parkında görülən tikinti işləri ilə tanış olub.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, təməli Prezident İlham Əliyev tərəfindən bu ilin fevralında qoyulan Zəfər parkının salınması istiqamətində işlər sürətlə davam etdirilir. Sahəsi 8,3 hektar olacaq parkın ərazisində işğal dövründə tikinti normaları pozulmaqla inşa edilmiş, eləcə də istismara yararsız bir sıra tikililər sökülüb. Parkın mərkəzində Qələbəmizin rəmzi olan Zəfər Tağının tikintisi də davam edir. Onun hündürlüyü Vətən müharibəsi günlərinin sayına uyğun olaraq 44 metr olacaq. Tağın üst hissəsində ziyarətçilər üçün şəhərə baxış meydançası yaradılır. Parkın mərkəzindəki meydançadan Zəfər Tağına qədər 44 rəmzi pilləkən də nəzərdə tutulub. Bu pilləkənlərdə Vətən müharibəsinin hər günü üzrə azad olunmuş yaşayış məntəqələrinə dair məlumatlar əks etdiriləcək. Abidənin üst hissəsinə - baxış meydançasına yaşlı insanların, uşaqların və fiziki məhdudiyyətli şəxslərin rahat qalxması üçün liftlərin quraşdırılması nəzərdə tutulub. Layihəyə uyğun olaraq parkda geniş yaşıllıq zolaqlarının salınması planlaşdırılır. Parkın ərazisində mövcud olan ağaclar qorunmaqla əlavə 300-dən çox ağac və 9 mindən çox müxtəlif növ dekorativ kollar əkilib.

## Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməli qoyulub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına görüləcək işlər və "Ağdam-Xankəndi dəmir yolu" layihəsi barədə məlumat verdilər.

Bildirildi ki, Bərdə-Ağdam dəmir yolu xəttinin davamı olan Ağdam–Xankəndi dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə 34,7 kilometrdir. Ağdam–Xankəndi dəmir yolu xətti, o cümlədən 4 körpü, 5 yolötürücü, 3 piyada keçidi, 2 suötürücü boru üzrə layihələndirmə işləri tamamlanıb. Bu dəmir yolu xətti boyunca 3 stansiyanın - Əsgəran və Xocalı stansiyalarının, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin, mühəndis qurğularının, körpülərin, yolötürücülərin, avtomobil, piyada və kənd təsərrüfatı təyinatlı keçidlərin və digər zəruri infrastrukturun tikintisi nəzərdə tutulur. Layihənin icra müddəti 2025–2026-cı illəri əhatə edəcək.

Diqqətə çatdırılıb ki, artıq Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin layihələndirilməsinə başlanılıb. Kompleksin sahəsi 6,4 hektar təşkil edəcək. Beşmərtəbəli kompleksin ərazisində 2 dəmir yolu platformasının və 12 avtobus dayanacağının inşası nəzərdə tutulub. Kompleksin binası gözləmə zalı, bilet kassaları, tibb məntəqəsi, ana və uşaq otağı, mağazalar, restoranlar, inzibati və toplantı otaqları, uşaq əyləncə mərkəzi, açıq tipli terras və istirahət guşələrindən ibarət olacaq. Kompleksin dəmir yolu bölməsi gündəlik 800-1000 nəfər, avtovağzal isə 1000-1200 nəfər sərnişinə xidmət edəcək.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Ağdam–Xankəndi dəmir yolu 1979-cu ildə inşa olunub. Qarabağın inkişafına hər zaman böyük diqqət yetirən Ulu Öndər bu regiona dəmir yolu xətlərinin çəkilməsinə xüsusi əhəmiyyət verirdi. Bakı–Yevlax–Xankəndi dəmir yolunun açılması nəticəsində Qarabağın sosial-iqtisadi və mədəni inkişafı daha da sürətlənib.

## Prezident İlham Əliyev "Xankəndi" Biznes Mərkəzinin açılışında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də "Xankəndi" Mehmanxana Kompleksinə aid olan "Xankəndi" Biznes Mərkəzinin açılışında iştirak edib.**




Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, dörd mərtəbədən ibarət "Xankəndi" Biznes Mərkəzi ümumilikdə 4500 kvadratmetrdən artıq sahəni əhatə edir. Burada 24 ofis sahəsi, 6 iclas otağı mövcuddur. Bundan əlavə, Mərkəzdə 120 nəfər qonaq üçün nəzərdə tutulan "Zefir Cafe & Terrace" restoranı, həmçinin dəftərxana və mətbəə məhsullarının satışı, kimyəvi təmizləmə və camaşırxana xidmətləri fəaliyyət göstərəcək.



Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma proseslərinin bir hissəsi olan bu Mərkəz funksional idarəetmə prinsiplərinə və yüksək xidmət meyarlarına cavab verəcək. "Xankəndi" Biznes Mərkəzi rezident şirkətlər üçün müasir və rahat işgüzar mühit təklif edəcək. Müxtəlif sahibkarlıq subyektləri və korporativ strukturlar üçün nəzərdə tutulmuş bu Mərkəz, eyni zamanda, məşğulluğun artırılmasına da töhfə verəcək. İlkin mərhələdə Biznes Mərkəzində 20 nəfər işləyəcək ki, onlardan da 12-si Xankəndi, Xocalı, Şuşa və işğaldan azad olunmuş digər ərazilərin sakinləri, 1-i isə Vətən müharibəsi veteranıdır.

Qeyd edək ki, bu cür müasir Mərkəzin fəaliyyətə başlaması Azərbaycanın tarixi şəhəri olan Xankəndinin işğaldan azad edilməsindən sonra burada biznes mühitinin yaradılması, yeni iş yerlərinin açılması və ümumilikdə şəhərin inkişafında mühüm rol oynayacaq.





# Xankəndi Konqres Mərkəzinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndi Konqres Mərkəzinin açılışında iştirak edib.**

Müasir texniki avadanlıqlarla təchiz olunmuş Konqres Mərkəzi 6500 kvadratmetr sahəni əhatə edir. Burada teatral üslubda 600, ziyafət üslubunda isə 350 nəfərlik tədbir zalları, iclas, konfrans otaqları və digər müxtəlif təyinatlı otaqlar yaradılıb.

Özündə müasirliklə milli memarlıq ənənələrini birləşdirən Mərkəzin binasında müxtəlif konqreslər, konfranslar, seminarlar, işgüzar görüşlər, ölkə və beynəlxalq əhəmiyyətli digər tədbirlərin keçirilməsi üçün geniş imkanlar var. Konqres Mərkəzinin fəaliyyətinin ilkin mərhələsində 12 nəfər daimi iş yeri ilə təmin olunub. Onlardan 8-i Xankəndi, Xocalı, Kəlbəcər və işğaldan azad olunmuş digər ərazilərin sakinləridir. Yüksək funksionallığı və müasirliyi ilə diqqət çəkən Konqres Mərkəzi işğaldan azad olunmuş ərazilərimizin sosial-iqtisadi potensialının inkişafına xidmət edən mühüm layihələrdən biridir.

Bu Mərkəzin yaradılması bir daha sübut edir ki, işğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi layihələr ardıcıl və sürətlə davam edir.

# Prezident İlham Əliyev Xankəndidə Türkmənistan Nazirlər Kabineti Sədrinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.**

Rəşid Meredov Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmən xalqının Milli Liderinə, Türkmənistan Prezidentinə və qardaş türkmən xalqına çatdırmağı xahiş etdi.

Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Qarabağda aparılan bərpa və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını deyərək, bu bölgənin təbiətinin gözəlliyinə valeh olduğunu bildirdi.

Görüşdə azərbaycanlılarla türkmənlərin ortaq etnik kökləri, tarix və mədəniyyət bağlantılarına malik iki qardaş xalq olduğu bir daha vurğulandı. Ölkələrimiz arasında energetika, nəqliyyat, mədəniyyət, humanitar, elm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı. Xüsusilə Azərbaycanda Türkmənistan Mədəniyyət Günlərinin, Türkmənistanda isə Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsi qeyd olundu.

# Prezident İlham Əliyev Xankəndi–Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb.**

Dövlətimizin başçısına kanat yolunun texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, Xankəndi-Şuşa kanat yolunun uzunluğu 6 min metrə yaxın olacaq. Kanat yolunun Xankəndidə hündürlüyü 844 metr, Şuşada isə 1317 metr təşkil edəcək. Kanat yolunda hərəkətin müddəti 13 dəqiqəyədək, sürəti isə saniyədə 8 metr nəzərdə tutulur.

Qeyd edək ki, bu layihənin icrası ümumilikdə turizmin inkişafına təkan verməklə yanaşı, Xankəndidən Şuşaya və əks istiqamətə insanların rahat gediş-gəlişinin təmin olunmasında mühüm rol oynayacaq.

# Azərbaycan və Özbəkistan prezidentləri Xankəndidə “Businesstex JV” tikiş fabrikində





**İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan “Businesstex JV” tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar.**

Fabrikdə müxtəlif növ parçadan 150 çeşiddə kişi, 300 çeşiddə qadın və 150 çeşiddə uşaq geyimləri istehsal olunur. Gələcəkdə kişi köynəklərinin, xüsusi təyinatlı və hərbi geyimlərin istehsalı planlaşdırılır. Hazırda fabrikdə hər gün 2500 ədəd müxtəlif trikotaj məhsulları istehsal edilir ki, bu rəqəmin 10 minə çatdırılması nəzərdə tutulur. Məhsulların 80 faizinin müxtəlif ölkələrə ixracı həyata keçiriləcək. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim keçmiş 250 nəfər hazırda işlə təmin olunub. Ümumilikdə müəssisədə 500 iş yeri yaradılacaq. Fabrikdə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunurlar.

Müəssisədə icra olunan layihənin ilkin investisiya dəyəri 6 milyon manat təşkil edir, xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Fabrik yerli, Türkiyə, Özbəkistan və Çin xammalı əsasında fəaliyyət göstərir. Müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) tərəfindən 3.5 milyon manat güzəştli kredit ayrılıb, təqribən 640 min manat məbləğində ƏDV və gömrük rüsumlarından azadolma tətbiq edilib. Müəssisənin fəaliyyəti regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək.

Qeyd edək ki, Xankəndi tikiş fabrikinin qurulması Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkənin dövlət başçılarının tapşırıqları əsasında həyata keçirilib. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan bu tikiş fabriki ölkələrimiz arasında uğurlu əməkdaşlığın rəmzidir. Layihə ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar yaratmaqla yanaşı, Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq və iqtisadi tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edir.



# Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər



**İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər.**







Xıdırlı kəndi Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşir. 2022-ci ilin oktyabrında kəndin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur.

Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə 2951 nəfərin köçürülməsi planlaşdırılır. Birinci mərhələdə kənddə 719 fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır.

Bundan başqa, kənddə zəruri müasir sosial infrastruktur, o cümlədən inzibati və xidmət binaları tikilib. Burada çoxfunksiyalı inzibati binanın, klub-icma mərkəzinin, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir.

Prezidentlər İlham Əliyev və Sadır Japarov Xıdırlı kəndi körpələr evi-uşaq bağçasının binasında yaradılan şəraitlə tanış oldular. Kənddə məskunlaşacaq əhali üçün tələbata uyğun inşa olunan körpələr evi-uşaq bağçası 120 yerlikdir. Binada qrup otaqları, musiqi otağı, idman zalları balacaların ixtiyarına veriləcək. Burada uşaqların özlərini rahat və qayğısız hiss etmələri, onların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün zəruri şərait mövcuddur. Uşaq bağçasının ətrafında yaşıllıq zolaqları salınıb, idman və oyun meydançaları, söhbətgahlar yaradılıb. Binanın damında Günəş panelləri quraşdırılıb.

Azərbaycan və Qırğızıstan prezidentləri Xıdırlı kəndindəki klub-icma mərkəzində oldular. Dövlət başçıları burada yaradılan şəraitlə baxdılar. Binada 190 yerlik akt zalı, bufet, rəqs məşqləri, dərnək otaqları və digər inzibati otaqlar yaradılıb. Klub-icma mərkəzində Xıdırlı kəndi ilə bağlı müxtəlif sosial və mədəni tədbirlərin, habelə el şənliklərinin və digər mərasimlərin keçirilməsi üçün hərtərəfli şərait var.




Azərbaycanın və Qırğızıstanın dövlət başçıları, həmçinin Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını etdilər.

Əvvəlcə prezidentlər məktəbin həyətində quraşdırılan yurtaya baxdılar. Səyyar yaşayış yeri kimi asanlıqla qurulub-sökülən yurta köçəri həyat tərzi üçün nəzərdə tutulur. Hazırda Mərkəzi Asiyada turizm istiqaməti kimi bir çox türk xalqları yurta turizmini inkişaf etdirirlər.

Sonra dövlət başçıları məktəbdə yaradılan şəraitlə tanış oldular.

Qeyd edək ki, 528 şagird yerlik tam orta məktəbin təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulub. Məktəbin binası 5 blokdan, o cümlədən idman zalı blokundan ibarətdir. Ərazisi 2,7 hektar olan məktəb binasında 21 sinif, 2 məktəbəqədər hazırlıq, 2 informatika, 2 texnologiya, 1 hərbi hazırlıq otaqları, 3 laboratoriya, kitabxana, idman və akt zalları, yeməkxana və digər sahələr yaradılıb. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərə biliklərə yüksək səviyyədə yiyələnmək üçün hərtərəfli şərait yaradır. Məktəbin ərazisində həm şagirdlərə, həm də əhaliyə xidmət göstərəcək qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri inşa edilib.

Sonra prezidentlər İlham Əliyev və Sadır Japarov yeni mənzillərə köçən sakinlərlə görüşdülər.

**Prezident İlham Əliyev dedi:**

– Xıdırlı kəndinin əziz sakinlərini salamlamaq istəyirəm. Qarabağın bərpası və dirçəlişində göstərdiyi köməyə görə sizin adınızdan və bütün keçmiş köçkünlərin adından əziz Qardaşım, Qırğızıstan Prezidenti Sadır Nurqojoyeviç Japarova minnətdarlığımı bildirmək istəyirəm.

Sadır Nurqojoyeviçin təşəbbüsü ilə bu regionun hazırda ən böyük yaşayış məntəqəsi olan Xıdırlı kəndində gözəl məktəb tikilib. Bu gün biz ona baxış keçirdik və rəsmi şəkildə açdıq. Məktəbə Ayköl Manasın adı verilib. Bildiyiniz kimi, "Manas" qırğız xalqının dastanıdır, qırğızların ruhunu təcəssüm etdirir. Əminəm ki, bu məktəbin və bu kəndin gələcək inkişafı üzrə hər şey bizim qırğız qardaşlarımızla bağlı olacaq. Bu gün Qarabağın, Şərqi Zəngəzurun dirçəldiyi, infrastruktur obyektlərinin, evlərin, ictimai binaların tikildiyi bir vaxtda, ilk növbədə, hər bir layihədə məktəb, uşaq bağçası, körpələr evi, tibb məntəqələri planlaşdırırıq. Bunlarsız normal həyat ola bilməz. Əlbəttə, bizim uğurla reallaşdırdığımız "Böyük Qayıdış" Proqramını həyata keçirməli olduğumuz bir vaxtda qardaş ölkələrin köməyi xüsusilə dəyərlidir. Bu, qırğız xalqının qəlbindən, ürəyindən gələn köməkdir. Artıq dediyim kimi, bunun təşəbbüskarı Qırğızıstan Prezidenti olub. Bildiyiniz kimi, keçən ilin aprel ayında, - hətta məktəbin içərisində bir fotoşəkil də var, - Sadır Nurqojoyeviçlə bu məktəbin təməlini qoyduq və razılaşdıq ki, hazır olanda birlikdə gələcəyik. Belə alındı ki, Xıdırlı kəndi də hazırdır - gözəl evlər, icma mərkəzi, tibb məntəqəsi və bu cür yaraşıqlı təhsil ocağı. Bu, bir daha ölkələrimizin qardaşlığından, bizim tarixi, etnik, mədəni və mənəvi yaxınlığımızdan xəbər verir. Bu təməl üzərində bu gün biz Qırğızıstan-Azərbaycan dostluğunun möhkəm binasını tikmişik.

Mən dəfələrlə Qırğızıstanda olmuşam. Sadır Nurqojoyeviç dəfələrlə Azərbaycanda olub. Bu, onun Qarabağ bölgəsinə ikinci səfəridir. Bu gün və sabah daha çox birgə tədbirlərimiz olacaq. Bu gün məktəbin açılışını uzun illər işğal altında olan Xıdırlı sakinlərinin - kimisi yataqxanada, kimisi də uşaq bağçası binalarında yaşayan sakinlərin vətənə qayıtmalarının birinci mərhələsinə həsr etdik. Çoxları 2007-ci ilə qədər çadır şəhərciklərində yaşayırdı. Onlar torpaqlarımızın işğal altında olduğu dövrün bütün çətinliklərini yaşayıblar. Amma ruhdan düşmədilər, inanırdılar, bilirdilər ki, biz bu torpaqlara, dədə-baba torpaqlarımıza mütləq qayıdacağıq. Biz qalib kimi, bu torpaqların sahibləri kimi qayıtdıq və buna görə də burada dağıdılan hər şeyi, - nəinki Ağdam şəhərində, bütün Ağdam rayonunda bir dənə də olsun dağıdılmayan tikili qalmayıb, - bu gün yenidən həyata qaytarırıq.

Sizin hamınızı ürəkdən təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Belə qardaşlıq hədiyyəsinə görə əziz qardaşım Sadır Nurqojoyeviçə minnətdarlığımı bildirir, Qırğızıstan və Azərbaycan xalqlarına sülh, firavanlıq, inkişaf və əmin-amanlıq arzulayıram. Qırğızıstanın kiçik bir parçası artıq həmişə burada, sevimli Ağdam torpağımızda qalacaq. Təbrik edirəm sizi.

**Prezident Sadır Japarov:** Hörmətli Xıdırlı kəndinin sakinləri.

Hörmətli bacılar və qardaşlar.

Sizə Qırğızıstan xalqının səmimi salamlarını çatdırır və Azərbaycan xalqına dərin ehtiramımı bildirirəm. Biz indicə Azərbaycanın Xıdırlı kəndində Manas adına orta məktəbi açdıq. Əminəm ki, bu tarixi hadisə mənəvi əlaqələrimizi daha da möhkəmləndirəcək. Bizim ümumi dəyərlərimiz var və onları gələcək nəsillərə ötürməyə borcluyuq. Bişkekdəki Heydər Əliyev adına məktəb və Xıdırlı kəndindəki Manas adına bu məktəb xalqlarımızın dostluğunun rəmzidir. Arzu edirəm ki, bu məktəbin şagirdləri həmişə ən uğurlu və ən yaxşı olsunlar. Uğurlar.

*





Sonra mənzillərin açarlarının təqdimetmə mərasimi keçirildi.

*

**Sakin:** Cənab Prezident İlham Əliyev, bizə yaratdığınız şəraitə görə Sizə xüsusi təşəkkür edirik. Kəndimizi işğaldan azad etdiniz, burada bizim üçün evlər inşa etdirdiniz. Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, sağ olun.

**Kişi sakin:** Hörmətli Qırğız Respublikasının Prezidenti, Sizə uzun ömür arzulayıram.

**Prezident Sadır Japarov:** Mən sizi bir daha yeni evlərinizlə bağlı təbrik edirəm. Sizə xoşbəxtlik, firavanlıq və uğurlar arzulayıram. Prezidentiniz İlham Heydər oğlu Əliyevi qoruyun. O, düzgün xarici siyasət sayəsində bu torpaqları sizə qaytarıb. Bu gün artıq öz evləriniz var. Bir daha təbrik edirəm.

**Qadın sakin:** Sizi qədim Qarabağ torpağında, Xıdırlı kəndində görməkdən məmnunuq. Hörmətli cənab Prezident Sadır Japarov, bu məktəbin inşasına verdiyiniz töhfəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun. Səmimi təşəkkürümüzü və hörmətimizi qardaş qırğız xalqına çatdırmağınızı xahiş edirik.

Hörmətli cənab Prezident İlham Heydər oğlu, bu gün Sizi kəndimizdə görməkdən çox şadıq. Biz Sizi çox sevirik. Bizə həyat etdiyiniz bu evlərə görə Sizə təşəkkür edirik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Çox sağ olun.

# ECO-nun 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı “İmarət” Kompleksində Qarabağ atlarının “Zəfər” şousunu izləyiblər

**İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçiriləcək 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı “İmarət” Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının “Zəfər” şousunu izləyiblər.**

Əvvəlcə Azərbaycan Prezidenti və qonaqlar çay süfrəsi arxasında söhbət etdilər.

Sonra Qarabağ atlarının “Zəfər” şousu başladı.

Hərbi orkestrin ifasında milli musiqi nümunələrimiz, “Sərhədçi” rəqs ansamblının rəqsləri və Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində göstərdiyi igidlik və cəsarət nümunələri böyük maraqla qarşılandı. Şou müddətində süvarilərimiz yüksək peşəkarlıq nümayiş etdirdilər.

Sonra qonaqlar avtobusla Ağdam şəhərini gəzdilər.








## Azərbaycan, Özbəkistan və Qırğızıstan prezidentləri Ağdamda Şahbulaq qalasında olublar





**İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.**

Dövlət başçıları əvvəlcə xatirə şəkli çəkdirdilər.

Bildirildi ki, hazırda abidədə Azərbaycan dövləti tərəfindən bərpa işlərinə başlanılıb.

*AZƏRTAC*

## Belarus Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Lukaşenkoya

**Hörmətli Aleksandr Qriqoryeviç!**

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün dost Belarus xalqını dövlət bayramı – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan ilə Belarusu ənənəvi sıx dostluq və qarşılıqlı dəstək əlaqələri birləşdirir. Ölkələrimiz arasında ildən-ilə yeni məzmunla zənginləşən əməkdaşlığın yüksək dinamikasını məmnunluqla qeyd etmək istərdim. Sevindirici haldır ki, biz dövlətlərarası dialoqun inkişafında, iqtisadi-ticari əməkdaşlığın möhkəmlənməsində və mədəni-humanitar əlaqələrin intensivləşdirilməsində yaxşı səviyyəyə çatmışıq.

İnanıram ki, Azərbaycan ilə Belarus arasında bütün istiqamətlər üzrə ikitərəfli əlaqələr və qarşılıqlı faydalı əməkdaşlıq birgə səylərlə dost ölkələrimizin və xalqlarımızın maraqları naminə strateji tərəfdaşlıq ruhunda bundan sonra da dinamik şəkildə genişlənəcək və dərinləşəcək.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, Belarus Respublikasına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 30 iyun 2025-ci il**

## AMEA Bölməsinin yarımillik uğurları

**AMEA Naxçıvan Bölməsinin 2025-ci ilin birinci yarısındakı elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabat iclası olub. Toplantıdan öncə bölmə əməkdaşlarının yarımil ərzində nəşr olunan əsərlərindən ibarət sərgiyə baxış keçirilib.**

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bölmədə tətbiq olunan yeniliklərdən, qazanılan nəticələrdən, kadr hazırlığı və kadr potensialından, beynəlxalq səviyyəli jurnallarla edilən əməkdaşlıqdan söz açıb. Akademik qeyd edib ki, bölmədə elmi-tədqiqat işləri 3 istiqamətdə 17 iş üzrə 36 mərhələdə tədqiqatlar davam etdirilir.



Bölmə aparatı elm və təhsil şöbəsinin müdiri, dosent Orxan Bağırovqeyd edib ki, ilin birinci yarısında bölmə əməkdaşlarının 5 monoqrafiyası, 12 kitabı, 94 elmi məqaləsi, 59 konfrans materialı, 2 tezisi olmaqla, 172 elmi əsəri çap olunub. 1 monoqrafiya, 16 məqalə, 15 konfrans materialı və 1 tezis xaricdə nəşr edilib. Elmi məqalələrin 14-ü xaricdə olmaqla, 45-i beynəlxalq kodlu elmi jurnallarda çapdan çıxıb.

AMEA-nın müxbir üzvləri, professor Əbülfəz Quliyev və professor Vəli Baxşəliyev, filologiya elmləri doktoru Fərman Xəlilov hesabatla bağlı çıxışlar edib, bölmənin ilin birinci yarısında fəaliyyətini yüksək qiymətləndiriblər.

***Səbuhi HƏSƏNOV***
***XQ***

## Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri başlayıb



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Azərbaycana səfərə gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.

## Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycanda



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Azərbaycana səfərə gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğızıstan Prezidenti Sadır Japarovu Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.

## Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Azərbaycanda



**Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında qonağı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qarşılayıb.

## Əfqanıstanın Baş nazirinin müavini ECO-nun 17-ci Zirvə görüşündə iştirak edəcək

**Əfqanıstanın Baş nazirinin müavini Əbdül Qəni Baradar İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Füzuli rayonuna gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında qonağı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qarşılayıb.



## Nigeriyalı nazir ECO-nun Xankəndi Zirvə görüşündə iştirak edəcək



**Nigeriya Federativ Respublikasının büdcə və iqtisadi planlama naziri Abubakar Atiku Baqudu İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Füzuli rayonuna səfərə gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında qonağı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Eldar Seyidov qarşılayıb.

## Özbəkistan Prezidenti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsini anıb



**Ölkəmizdə dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyulun 3-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

**Həmin gün Özbəkistan Prezidenti Bakıda Zəfər parkını da ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri yad edilib, məzarları üstünə gül dəstələri qoyulub.

*

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi.

## Özbəkistan Prezidenti Füzuli rayonuna səfərə gəlib



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Füzuli rayonuna gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi mədəniyyət naziri Adil Kərimli, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və digər rəsmi şəxslər qarşıladılar.

## Şimali Kipr Türk Respublikasının Prezidenti Füzuli rayonuna gəlib



**Ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Füzuli rayonuna gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağı elm və təhsil naziri Emin Əmrullayev və Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qarşılayıblar.

# Azərbaycan – Özbəkistan: Strateji ortaqlığın beynəlxalq manifesti

**2025-ci il iyulun 2-də Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana rəsmi səfəri Azərbaycan–Özbəkistan münasibətlərinin yeni geosiyasi məzmuna keçidinin təsdiqi idi. Ş.Mirziyoyevin bu səfəri iki ölkə arasında mövcud olan dostluq və tərəfdaşlıq münasibətlərinin qlobal səviyyəli siyasi konfiqurasiyaya inteqrasiya etdiyini göstərdi. Səfər həm də dövlətlərarası münasibətlərin ideoloji sinxronluq, strateji uzlaşma və beynəlxalq proseslərdə vahid mövqe kimi dərinləşən komponentlərlə möhkəmləndiyinin göstəricisi idi.**



Post-sovet məkanında formalaşan çoxqütblü nizamda türk dövlətləri arasında əlaqələrin güclənməsi uzun müddət yalnız mədəni və tarixi təməllər üzərində qurulurdu. Lakin son illər baş verən proseslər, xüsusilə Azərbaycan–Özbəkistan münasibətlərinin sürətlə strateji müstəviyə keçməsi bu yanaşmanı dəyişib. Artıq məsələ təkcə tarixi ortaq köklərdən və etnik-mədəni yaxınlıqdan ibarət deyil; ortada geosiyasi sinerji, beynəlxalq platformalarda birgə koordinasiya və diplomatik-hüquqi baxımdan qarşılıqlı öhdəliklər var. Bu mənada Ş.Mirziyoyevin səfəri Türk Dövlətləri Təşkilatının gələcək siyasi strukturunda Azərbaycanın və Özbəkistanın nə qədər mühüm rol oynadığını ortaya qoydu. Səfər çərçivəsində keçirilən görüşlər və imzalanan sənədlər bir daha təsdiqlədi ki, iki dövlət regional təşəbbüslərlə kifayətlənmək niyyətində deyil. Əksinə, onlar beynəlxalq sistemdə ortaq geosiyasi mövqelər formalaşdırmağa və Türk dünyasının qlobal səsini koordinasiyalı şəkildə artırmağa çalışırlar.

Azərbaycan və Özbəkistan arasındakı strateji müttəfiqliyin möhkəmlənməsində Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasında yaranmış şəxsi münasibətlər mühüm amil kimi çıxış edir. Prezident Mirziyoyev tərəfindən Füzuli rayonunda inşa etdirilən və 2023-cü il avqustun 23-də istifadəyə verilən Mirzə Uluqbəy adına 960 şagird yerlik orta məktəb bunun bariz nümunəsidir. Şəxsi münasibətlərin strateji əməkdaşlığın dərinləşməsində həlledici rol oynaması 2022-ci ilin önəmli hadisələrində də özünü göstərdi. Həmin il Prezident İlham Əliyevin Özbəkistana üç dəfə rəsmi səfər etməsi ölkələrimiz arasında qarşılıqlı siyasi və diplomatik əlaqələrin yüksək səviyyədə olduğunu nümayiş etdirdi.

2024-cü ilin avqustunda Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri bu dostluq və müttəfiqlik münasibətlərinə yeni nəfəs verdi. Özbəkistan Prezidentinin erməni işğalından azad olunmuş Füzuli və Şuşa rayonlarına səfəri, Qarabağda bərpa-quruculuq işlərinə verdiyi dəstək liderlər arasında formalaşmış şəxsi və siyasi əlaqələrin nəticəsidir. Beləliklə, İlham Əliyev və Şavkat Mirziyoyev arasındakı səmimi şəxsi münasibətlər dövlətlərarası əlaqələrin ən yüksək səviyyədə və davamlı olmasının əsas zəminini yaradıb.

Azərbaycan–Özbəkistan münasibətlərinin bugünkü səviyyəyə çatması uzunmüddətli strateji baxışın nəticəsidir. Münasibətlərin dərinləşməsində liderlərin qarşılıqlı siyasi iradəsi ilə yanaşı, ortaq tarix, mədəni yaddaş və çağdaş dünyada eyni geosiyasi risklərə və imkanlara malik olmaları əsas rol oynayır.

Müttəfiqlik münasibətlərinin hüquqi bazası bir il öncə Daşkənddə imzalanan "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" ilə qoyuldu. Sənəd iki ölkə arasında əlaqələrin "rəsmi müttəfiqlik" statusu əsasında qurulmasını rəsmiləşdirdi. Prezident İlham Əliyevin həmin müqaviləni "istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəd" adlandırması bu aktın nə qədər fundamental siyasi və diplomatik çəkisi olduğunu ortaya qoyur. Prezidentin bu yanaşması onu göstərir ki, Azərbaycan bu münasibətləri regional sabitliyə və beynəlxalq siyasətə təsir edən strateji koordinasiya platforması kimi dəyərləndirir.

2025-ci ilin iyul səfəri isə bu hüquqi çərçivənin real siyasi məzmunla dolduğunu təsdiqlədi. Səfər zamanı keçirilən yüksək səviyyəli görüşlərdə Şavkat Mirziyoyevin səsləndirdiyi fikirlər və verilən mesajlar ikitərəfli münasibətlərin vahid siyasi iradəyə və ortaq strateji vizyona əsaslandığını nümayiş etdirdi: "Bu gün biz danışıqlarda bütün məsələləri – beynəlxalq, regional, ikitərəfli, həssas məsələləri müzakirə etdik. Ciddi məsələlər üzrə fikirlərimiz üst-üstə düşür. Bu fikirləri bütün platformalarda irəli aparacağıq...".

Burada beynəlxalq platformalarda vahid çıxış, maraq və dəyərlərin koordinasiyası, geosiyasi harmoniya kimi elementlər öz əksini tapır. Mirziyoyevin vurğuladığı "bütün məsələlər" və "bütün platformalar" ifadələri münasibətlərin artıq qlobal siyasi sistem daxilində sinxron fəaliyyət modelinə çevrildiyini göstərir.

Azərbaycan və Özbəkistan arasındakı strateji müttəfiqlik təkcə son illərin hadisələri ilə məhdudlaşmır. Bu münasibətlər uzunmüddətli və mərhələli şəkildə formalaşıb. Hər iki dövlətin yerləşdiyi unikal geosiyasi mövqe – Mərkəzi və Cənubi Asiya, Qafqaz və Yaxın Şərq qovşağı – onların regional və qlobal proseslərdə açar aktorlar kimi çıxış etməsinə imkan yaradır. Belə bir strateji mövqedə yerləşmə, həmçinin onların qarşılıqlı maraqlarının tamamilə uyğunlaşmasına və bir-birini tamamlayan geosiyasi resurslara malik olmasına zəmin hazırlayıb.

2004-cü ildə imzalanan "Strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Bəyannamə" əməkdaşlığın konseptual əsaslarını müəyyən etdi. Həmin dövrdə dünya siyasi sistemində çoxqütblülüyün hələ tam strukturlaşmadığı bir mərhələdə bu sənəd iki ölkənin gələcəkdə qarşılıqlı etimad və əməkdaşlıq üzərində strateji ittifaq qurmaq niyyətlərinin erkən ifadəsi oldu. Sonrakı illər bu münasibətlərin beynəlxalq hüquq və siyasətdə öz əksini tapması ilə xarakterizə olundu. 2008-ci ildə Özbəkistanın Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı BMT Baş Assambleyasının qətnaməsini dəstəkləməsi iki dövlət arasındakı siyasi həmrəyliyin qəti siyasi mövqe kimi təzahürü idi. Özbəkistanın bu addımı beynəlxalq ictimaiyyətin önündə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün müdafiəsində mühüm addım kimi qiymətləndirildi.

2021-ci ildə Prezident Şavkat Mirziyoyevin Azərbaycanın Vətən müharibəsində qazandığı qələbəni "tarixi ədalətin bərpası" kimi qiymətləndirməsi isə münasibətlərin həm də dərin mənəvi və ideoloji təməllərə söykəndiyini nümayiş etdirdi. Belə açıq dəstək dövlətlərarası münasibətlərin xaricində, xalqlar arasında ortaq dəyərlərin və milli kimliyin qarşılıqlı anlaşmasına da işarədir.

Nəhayət, 2022-ci ildə qəbul edilmiş "Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə" Azərbaycan–Özbəkistan münasibətlərinin çoxşaxəli və institusional xarakterini möhkəmləndirdi. Təxminən 40 istiqaməti əhatə edən bu sənəd iki ölkənin qlobal səviyyədə koordinasiyalı fəaliyyət göstərmək niyyətini ortaya qoydu.

Bununla yanaşı, bu ittifaq təkcə dövlətlərarası səviyyədə möhkəmlənmir, o, həm də xalqlar arasında münasibətlərin dərinləşməsi ilə müşayiət olunur. Müasir beynəlxalq münasibətlərdə yalnız dövlət başçılarının anlaşması və protokol səviyyəsindəki sənədlərlə dayanıqlı ittifaqlar qurmaq mümkün deyil. Münasibətlərin sabitliyi və gələcək davamlılığı üçün xalqlar arasında sosial-mədəni inteqrasiya, ortaq dəyərlərin paylaşılması və ictimai rəyin müsbət olması vacib şərtdir. Məhz bu səbəbdən Azərbaycan–Özbəkistan müttəfiqliyi tarixi köklərə, mədəni bağlılığa və ortaq sivilizasiya yaddaşına söykənir.

İyul səfəri çərçivəsində Bakıda Özbəkistan səfirliyinin yeni binasının açılması, "Özbəkistan" parkının təməlinin qoyulması və iki ölkə arasında mədəni-humanitar layihələrin təşviqi bu münasibətlərin simvolik və ictimai aspektini gücləndirir. Diplomatiyada simvollar bəzən sənədlərdən daha çox mesaj verir. Yeni səfirlik binası dövlətlərin qarşılıqlı hörmətinin və diplomatik təmsilçiliyin rəmzidirsə, "Özbəkistan" parkı bu hörmətin ictimai-mədəni yaddaşda yerləşdirilməsinin təzahürüdür. Deməli, müttəfiqliyin siyasi mahiyyəti mədəni simvolizm vasitəsilə ictimai əsaslandırmaya çevrilir.

Atılan addımlar xalqlar arasında qarşılıqlı hörmətin, ortaq mədəni yaddaşın və tarixi yaxınlığın davamlı şəkildə dirçəldilməsinə xidmət edir. Azərbaycan və Özbəkistan xalqları əsrlər boyu vahid sivilizasiya kontekstində formalaşıblar. Bu sivilizasiya türk-islam kimliyi, ortaq dil qohumluğu və Şərq dünyagörüşü ilə səciyyələnir. Mədəniyyət, musiqi, ədəbiyyat və dini baxışlar baxımından iki xalq arasında dəyərlər eyni sivil əsasdan qidalanır və bütün bunlar müasir dövrdə siyasi yaxınlıq üçün ideoloji zəmin rolunu oynayır.

Bu gün isə bu ortaq kimlik geosiyasi dəyərə çevrilib. Ortaq kimlik sayəsində Azərbaycan və Özbəkistan qlobal siyasətdə sinxron şəkildə hərəkət edə bilən aktorlara çevriliblər.

Müasir dünyada informasiya müharibələri, siyasi basqılar və regional ziddiyyətlər kontekstində təkbaşına diplomatik dayanıqlıq çətinləşir. Bu baxımdan, Azərbaycan–Özbəkistan müttəfiqliyi həm də diplomatik təhlükəsizlik mexanizmi rolunu oynayır. Ortaya çıxan istənilən regional və ya qlobal risk fonunda bu iki ölkənin koordinasiyalı mövqeyi onların beynəlxalq hüquqda və siyasi nizamda daha etibarlı aktor kimi tanınmasına şərait yaradır.



Azərbaycan və Özbəkistanın biri Qafqazda, digəri Orta Asiyada yerləşməklə fərqli coğrafi mövqelərə malik olsalar da, onların maraqları, narahatlıqları və prioritetləri üst-üstə düşür. Hər iki ölkə üçün suverenliyin möhkəmləndirilməsi, regional sabitliyin təmin edilməsi, multilateral diplomatiyanın gücləndirilməsi və milli maraqların beynəlxalq hüquq çərçivəsində qorunması əsas prioritetlərdəndir.

Son olaraq qeyd edə bilərik ki, birgə diplomatik davranış, qarşılıqlı siyasi müdafiə, beynəlxalq təmsilçilikdə ahəng və ümumi geosiyasi baxış Azərbaycan və Özbəkistanı XXI əsrin siyasi xəritəsində vahid siyasi davranış modelinə sahib iki müttəfiq dövlət kimi təqdim edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Dostluğun ilkin təməli elm və mədəniyyətdir

## *Bu sahə Azərbaycan–Özbəkistan qardaşlığının istinad nöqtəsinə çevrilib*

**Bu, danılmaz həqiqətdir ki, hər hansı geostrateji müttəfiqlik və ya əməkdaşlıq əlaqələri möhkəm mədəni və humanitar təməl olmadan inkişaf edə bilməz. Elm və təhsil bütün dövrlərdə və cəmiyyətlərdə tərəqqinin bayraqdarı olub. Azərbaycan özünün milli dövlət quruculuğu strategiyasında bu sahəyə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşır. Türk Dövlətləri Təşkilatının üzvü olan dövlətlərin yeni texnologiya dövrünə məhz savadlı və intellektli kadrların hazırlanması prizmasından baxmaları təsqdüfi sayılmamalıdır.**



Yeri gəlmişkən, mayın 28–29-da Əndican şəhərində keçirilən "Azərbaycan–Özbəkistan: ali təhsildə əməkdaşlığın inkişafında prioritet istiqamətlər" mövzusunda Birinci Rektorlar Forumu məhz bu missiyaya xidmət edirdi. Nəticədə iki ölkənin universitetləri arasında əməkdaşlığa dair 60-dan çox müqavilə imzalanıb. Ümumiyyətlə, Azərbaycan–Özbəkistan ikitərəfli münasibətlərin perspektivi özünün miqyası və dərinliyi ilə diqqəti cəlb edir.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin yeni məzmun qazandığının təsdiqi kimi qiymətləndirilə bilər. Bu xüsusda "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" ilə ikitərəfli münasibətlərin daha geniş miqyas aldığı şəksizdir. Amma Azərbaycanla Özbəkistan arasında münasibətlərin elə bir treki var ki, onu ayrıca qeyd etmək lazımdır. Bu, elm və təhsil mübadiləsi ilə bağlı birgə layihələrdir. Bunun bariz nümunəsi işğaldan azad edilmiş Qarabağda yaradılıb.

Qarabağın bərpasına göstərdiyi köməyə görə Şavkat Mirziyoyevə xüsusi minnətdarlığını bildirən Prezident İlham Əiyev Özbəkistanın bu sahədə ilkə imza atdığını xüsusi olaraq vurğuladı: "Öz təşəbbüsü ilə Qarabağ bölgəsinin bərpasına dərhal yardım edən Özbəkistan Prezidenti dünyada ilk lider olub. Sosial təhsil infrastrukturunun ilk obyekti məhz Özbəkistanın tikdirdiyi məktəbdir və mən Şavkat Miromonoviç ilə onun açılışını etmişik. O, özbək xalqının böyük oğlu Mirzə Uluqbəyin adını daşıyır və burada öz əcdadlarının torpağına qayıdan uşaqlar təhsil alırlar".

*

Bəli, Qarabağ əcdadlarımızın əzəli yurd yeri olmaqla yanaşı, bu gün həm də Türk dünyasının qürur məskəninə, döyünən qəlbinə çevrilib. İndi Türk Dövlətləri Təkilatının üzvü olan qardaş ölkələr məhz Qarabağda milli rəmzləri olacaq bir elm, təhsil ocağı inşa etməyi özlərinə şərəf bilirlər.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Bakı səfərinin yekunlarına dair mətbuata bəyanatında bununla bağlı dedikləri çox önəmli idi: "İndicə Qarabağ haqqında söhbət açıldı. Füzulidə məktəb tikməyə başlayanda Azərbaycan layihələrinə layiq olmalı idik. Biz istəyirdik ki, bu, uşaqlar üçün ən gözəl yer olsun. Fikrimcə, buna nail olduq, çünki açılış zamanı uşaqların gözlərindəki sevinci gördüm və bu, bizim birlikdə nail olduğumuz ən böyük işdir".

Bu gün məktəbin açılışına sevinən həmin azyaşlıların arasından Türk dünyasının birliyinə və tərəqqisinə xidmət edəcək alimlərin, siyasətçilərin, sərkərdələrin yetişəcəyinə heç kəs şübhə etməsin. Məhz onlar böyük Turanın yoluna işıq salacaq mili aydınlarımızın sırasında yer alacaqlar.

Bakıda qardaş özbək xalqının zəngin tarixini, memarlığını və mədəniyyətini özündə əks etdirən unikal məkan yaradılır. Lyihəsi Özbəkistanın xəritəsi şəklində hazırlanmış "Özbəkistan" parkı Azərbaycan paytaxtının türk qardaşlığının möhtəşəm mədəniyyət mərkəzinə çevriləcəyi gün uzaqda deyil.

Görünən odur ki, Azərbaycan və Özbəkistan arasında bütün sahələri əhatə edən strateji və çoxşaxəli əməkdaşlıq getdikcə dərinləşməkdədir. Monolitliyi ilə seçilən ikitərəfli münasibətlərin gələcək inkişafının möhkəm təməli, ilk növbədə, elm və mədəniyyətdir. Tam əminliklə deyə bilərik ki, eyni soy-kökə və qədim tarixə söykənən Azərbaycan–Özbəkistan dostluq əlaqələri çağdaş dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bugünədək imzalanmış 170-dən çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə əməkdaşlıq üçün möhkəm hüquqi baza rolunu oynayır. Azərbaycanın Özbəkistan, eləcə də Mərkəzi Asiyanın digər ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütövlükdə Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

### Ekspert rəyi

**Tofiq ABBASOV,**
**siyasi icmalçı**



– Dünyada baş verən dərin prosesləri köhnə nizamın təsirini itirməsi, yeni düzənin formalaşması ilə bağlayanlar var. Əslində, bunların hamısı, haradasa, gəlişi gözəl ibarələrdir. Sözün həqiqi mənasında, dünyada ən böyük dəyişikliklər həmişə böyük müharibələrdən sonra baş verir. Amma burada daim diqqəti çəkən bir məsələ var. Az danışıb, daha çox iş görmək istəyənlər əsasən "yumşaq güc"ün təsirini genişləndirir, gücləndirir və ona istinad edirlər.

Qarabağ 30 ilə yaxın əsirlikdə qalmış bir torpağımız idi. Vaxtilə bütün dünyaya car çəkdik ki, işğalçı ölkəni qınasınlar, ərazimizi tərk etsinlər. Eşitmədilər, olmadı. Məqamı gəldi və öz gücümüzlə yadellilərin murdar ayaqlarını Qarabağdan yığışdırdıq. İndi Qarabağımız özünün yeni intibah dövrünü yaşayır. Əlbəttə ki, burada Türk birliyinin, Türk Dövlətləri Təkilatının böyük iştirakı və payı var. Sual oluna bilər ki, onlar Qarabağda niyə təhsil və elmə, intellektual inkişafa yönəlik mədəni layihələrə üstünlük verirlər? Çünki gələcək insan kapitalının uğurla reallaşması ilə birbaşa bağlıdır. Hamımız görürük ki, intellekt məhsulları, texnoloji yeniliklər baxımından Avropa, Yaponiya, Cənubi Koreya, Sinqapur ön sıralarda yer alırlar. Maraqlıdır ki, məhz texnoloji mübadilə məsələsində heç bir ölkə tələskənliyə yol vermir. Əgər hansısa ölkə özünün "Nou-hau"sunu kiməsə həvalə edirsə, yaxud bölüşürsə, bu o deməkdir ki, onların ya buna böyük ehtiyacı var, ya da aralarından elə bir strateji tərəfdaşlıq mövcuddur ki, yox deyə bilmirlər.

Bu gün Azərbaycan üçün ən vacib məsələ texnoloji suvereniteti qazanmaqdır. Həm milli, həm ümumtürk, həm də İslam dümyası səviyyəsində. Qarabağda türk məktəblərinin, insan potensialının reallaşmasına yönəlik layihələr böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşdə Qarabağda məktəb inşa etmələrini böyük qənimət sayması təsadüfi deyil. Türk-İslam elminin öncüllərindən biri – Mirzə Uluqbəyin adını daşıyan o məktəb bir rəmzə çevrilib. Dahi Teymurun nəvəsi olan mütəfəkkir ilk dəfə planetlərin təqvimini çap elətdirib. Bəli, hər şeyin önündə elm və təhsil gəlir. Türk dövlətləri bir-birinə söykənərək yeni uğurlara imza atacaq, öz dəst-xəttimizi dünya çapında təsdiqləyəcəyik.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı etimada söykənən, əsrlərdir davam edən dostluq və qardaşlıq əlaqələri bundan sonra yalnız yüksələn xətlə inkişaf edəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan Rusiyanı münasibətləri sağlamlaşdırmağa çağırır




(əvvəli 1-ci səhifədə)

### Rusiyaya dəyərimiz

Əvvəlcə, bunu bildirək: Həm Rusiya XİN-in sözçüsünə, həm də ölkənin digər rəsmilərinə yaxşı məlumdur ki, Azərbaycan dövləti və xalqı hər bir ölkə ilə dostluq münasibətlərinə həmişə sadiq qalıb və bu gün də sadiqliyini davam etdirir. Eləcə də Rusiya ilə. Dövlətimiz və xalqımız Rusiyanı, həmçinin, yaxın qonşu, çoxsaylı azərbaycanlının yaşadığı və özünə vətən bildiyi ölkə kimi yüksək qiymətləndirib.

Bundan başqa, Azərbaycan Rusiyanın Cənubi Qafqaza bağlı maraqlarına hər zaman təbii yanaşıb və hesab edib ki, Moskvanın regiona tarixi bağlılığı nəzərə alınmalıdır. Təsadüfi deyil ki, 44 günlük müharibə də məhz Rusiyanın vasitəçilik təminatı ilə dayandı. Yəni, ölkəmiz Kremlin təşəbbüsünə hörmətlə yanaşdı.

Azərbaycan Rusiyanın rus dilinə və ölkə xaricində yaşayan rusların durumuna həssas yanaşdığını dərk edir. Ölkəmizdə yaşayan ruslar tamhüquqlu vətəndaşlarımızdır. Ümumən, Azərbaycanda bütün digər xalqların nümayəndələri kimi, ruslara münasibətdə də tolerant yanaşma var və bu, tarixi ənənəyə əsaslanır. Digər tərəfdən, Azərbaycanda rus məktəbləri, mədəniyyət ocaqları həmişə, özü də fasiləsiz fəaliyyət göstərib.

Əlqərəz, sadaladıqlarımızın sırasını genişləndirmək mümkündür. Amma hesab edirik ki, mövcud istiqamətdəki təfsilata ehtiyac yoxdur. Eyni zamanda, onu demək olmaz ki, Rusiyanın Azərbaycana münasibətində müsbət məqamlar olmayıb. Amma neqativ cəhətlərin pozitivləri üstələdiyini görürük. Bütün mənfi halların hamısını yada salmaq niyyətindən də uzağıq. Yalnız son Yekaterinburq olayı xüsusunda yaşananlardan söz açmaqla kifayətlənəcəyik.

### Rusiya Ermənistanla bacarmırsa...

Sual verək: Rusiyada kimsə iki rusun Azərbaycan polisi tərəfindən qətlə yetirilməsini təsəvvürə gətirə bilərmi? Fikrimizcə, Bakı-Moskva münasibətləri ilə bağlı ən pessimist şəxsin də bunu düşünməsi mümkünsüzdür. Rusiya rəsmiləri, hakimiyyətə bağlı ayrı-ayrı şəxslər isə Yekaterinburqda Səfərov qardaşlarının qətli ilə bağlı məsələni kriminal kimi təqdim etdilər. Hələ elə fon yaratdılar ki, guya, ölkəmiz hüquq-mühafizə orqanlarının işini dövlətlərarası münasibətlər kontekstinə qaldırmaqla, yumşaq desək, düz etmir. Bakının, guya, siyasi kurs dəyişdirdiyini sərsəmləyənlər də tapılır.

Azərbaycan Rusiyaya qarşı heç bir oyun qaydalarını pozmayıb və pozmur. Amma biz "günah keçisi" ola bilmərik. Məsələn, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda göstərilirdi ki, Naxçıvana gedən yolda Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhədçiləri keşik çəkəcək. Yəni, ölkə tarixi ənənəsinə uyğun olaraq strateji marşrutun Cənubi Qafqaz hissəsində jandarm funksiyasına can atmışdı. Deyək ki, öz mənfəətini bunda görmüşdü. Belə bir baxış səhvdi, ya düzdü, ondan danışmırıq. İndi üçtərəfli bəyanatı yada salan yoxdursa, günahkar Azərbaycandırmı? Qarabağdakı rus sülhməramlılarının bölgədəki erməni separatçılarına silah-sursat daşımaq üçün patronajlığı, onların sıravi ermənilərə şirin davranmaları, az qala, uşaq bezi paylamaları rəsmi İrəvan tərəfindən qiymətləndirilmədisə, təqsirkar ölkəmizdir? Hazırda Ermənistanda rus hərbi mövcudiyyətinin özü şübhə altındadırsa, məsələyə Bakının aidiyyatı ola bilərmi? Əsla yox! Azərbaycan üçün məqsəd Naxçıvana yoldur və dövlətimiz yolun hansı prinsiplərlə açılmalı olduğunu bəyan edib. Bəlkə Ermənistanda Robert Koçaryan və ya Serj Sarkisyan kimi Rusiyaya bağlı cəlladların hakimiyyətə yiyələnmələri üçün nə isə edək ki, Moskvada bizə dost desinlər? Həmin cəlladlar da sonradan "Artsax" deyib sərsəmləsinlər. Eləmi?

Nəhayət, Ermənistan uğursuzluğu fonunda Kremlin Cənubi Qafqaz ssenarisinin iflas perspektivi gözləməsinin cəzasını Rusiya azərbaycanlılarımı çəkməlidir? Bəlkə onlar bazarları, piştaxtaları ermənilərə təhfil versinlər ki, Ermənistandakı haylar rus sevgisindən vəcdə gəlib baş nazir Nikol Paşinyan iqtidarını devirməyə qalxsınlar? Rusiya Ermənistanla bacarmırsa, buna ölkəmiz nə etməlidir? Söhbət heç bacarıb-bacarmamaqdan da getmir, bunu bir kənara qoyaq. Prinsipial yanaşsaq, Moskva öz üzərinə düşəni özü etməlidir. Bir daha deyək ki, oyun qaydalarını pozan ölkəmiz deyil. Niyə kimlərinsə başına Rusiyadakı azərbaycanlıların daşı düşməlidir?

### Solovyovun "üfunəti"

Yeri gəlmişkən, "Artsax" sərsəmləməsinin üzərində dayanaq. Rusiyada son zamanlar hardan peydahlandığı məlum olmayan "Artsax" sözünü özünün murdar ağzına alan Vladimir Solovyov adlı jurnalist libası geyinmiş "üfunət kisəsi"-dir. Özü də bu məxluq üfunətini ölkənin dövlət televiziyası vasitəsi ilə buraxır. Durumu necə başa düşək? Düşünək ki, Rusiyada Solovyovla heç kəs bacarmır? Axı aydındır ki, onun cəfəngiyyatları, hədə-qorxuları söz, sərbəst düşüncə azadlığının sərhədlərini aşmaqdır. Bu zəncantrop hər dəfə efirə çıxanda nəinki şanlı ənənələrə malik Rusiya jurnalistikasına, ümumən ölkənin ictimai fikrinə tüpürür. Çoxmu çətindir vəziyyəti görmək? Çoxmu çətindir belə bir yaramazın "Artsax" deyib Ermənistandakı revanşist və şovinistləri hərəkətə gətirmək üçün çağırış etdiyini anlamaq? Hələ onun son olaylara münasibəti də var. Elə danışır ki, sanki Azərbaycan Rusiya ilə müharibə etmək niyyətindədir və buna görə öz aləmində ölkəmizə faciələr, fəlakətlər ssenarisi cızır. Adam xəstədir...

Bəli, Rusiyanın müxtəlif vasitələrlə Ermənistana təsir imkanları əldə etmək istəyini anlayırıq. Kremlin ölkədə çevriliş planlarına dair söz-söhbətlər də bitmir. Düşünmək olar ki, Solovyov erməni şovinizmini məhz bu məqsədlə qıcıqlandırır. Ancaq onun dilindən tarixi, əbədi və əzəli Azərbaycan torpağı olan Qarabağın adının "Artsax" kimi səslənməsi yolverilməzdir.

Yaxşı, tutalım, Solovyov xəstədir, Rusiya rəhbərliyində tarixi bilənmi yoxdur? Necə olur ki, Ermənistana minnət qoymaq vaxtı gələndə hayların Cənubi Qafqaza ruslar tərəfindən köçürüldüyü önə çəkilir, ancaq bəlli məqsədlərə hesablanmış "erməni sevdası"nı işə salmaq məqamı yetişəndə "Artsax" deyilir? Bu, hansı məntiqdir, hansı düşüncədir? Axı dostluğa sadiqlik belə olmur? Biz Rusiyanı böyük dövlət bilirik. Axı bu sayaq yaramazlıqlar böyükləri kiçildir? Kim inanar ki, Solovyovun mövqeyi dövlətin yanaşmasından qaynaqlanmır? Azərbaycan dövləti də, xalqı da sadəlövh deyil. Küləyin hardan əsdiyini gözəl bilirik. Digər yandan, nəzərə alaq ki, Rusiyanın istər ictimai mühitində, istərsə də mediasında yalakan solovyovların sayı kifayət qədər çoxdur...

Bir neçə gün əvvəl AZAL-a məxsus təyyarənin Rusiya Müdafiə Nazirliyinin əmri ilə vurulduğuna dair məlumat, habelə səs yazısı ortaya çıxdı. Rusiyanın baş hərbi idarəsinin, faktiki olaraq, ağır cinayətdə ittiham olunduğu məsələ xüsusunda rəsmi Moskva susur. Xeyr, məlumatdan xəbərsiz deyillər, hər şeyi çox gözəl bilirlər. Xeyr, bu məqamda "mənasız şeyə münasibət bildirilmir" kimi klişelər keçərsizdir. Rusiya sübutlu şəkildə bildirməlidir ki, iddia həqiqəti əks etdirmir.

Əlbəttə, biz də deyə bilmərik, sözügedən məlumat və səs yazısı nə dərəcədə doğru, yaxud yalandır. Amma mövzunun Azərbaycan üçün həssaslığı var. Olmazmı ki, Rusiya həmin həssaslığa adekvat davransın? Aylardır ki, bunu görmürük. Rəsmi Moskvanın təyyarə olayına nə hüquqi qiyməti var, nə də müvafiq təzminatı. Mövcud şəraitdə məlum səs yazısı növbəti suallar doğurur. Məsələn, nəyə görə sərnişin təyyarəsinə atəş açılmışdı? Doğrudanmı, hədəf məhz həmin təyyarə idi? Bəlkə kimsə, nəyisə səhv salıb? Bakı-Moskva münasibətlərində soyuqluq yaratmış hadisəyə tam aydınlıq gəlməli, məchul məqamlar qalmamalıdır. Necə deyərlər, örtülü bazar, dostluğu pozar.

### Səmimiyyət gözləntimiz

Sonda bir daha deyək ki, Azərbaycan Rusiya ilə dostluğa hər zaman sadiq qalıb, ciddi önəm verib. Eyni zamanda, qarşı tərəfdən də eyni sadiqliyi gözləyib və gözləyir. Ölkənin XİN sözçüsü M. Zaxarovanın dili ilə desək, Moskvanın Bakını münasibətləri strateji müttəfiqlik səviyyəsinə qaytarmaq üçün tədbirlər görmək çağırışına gəlincə, onu deyək ki, hazırda buna can atmalı tərəf məhz Rusiyadır. Çünki münasibətləri qəliz məcraya yönəldən biz olmadıq. Ümumən, Rusiya ölkəmizə münasibətdə səmimi davranmalıdır. İstər siyasət olsun, istərsə də başqa sahələrdə.

M.Zaxarovanın kənar qüvvələrin Azərbaycanla Rusiyanın münasibətlərini pozmaq istəməsi məntiqinə gəlincə, hesab edirik ki, bu, xeyli dərəcədə mətləbdən yayınmaq cəhdidir. Bəlkə, Yekaterinburqda iki azərbaycanlını qətlə yetirən də Rusiya "OMON"u yox, hansısa xarici qüvvələr idi? Görəsən, cinayət cəzasızmı qalacaq? Yoxsa hazırda ölkənin müxtəlif bölgələrində həyata keçirilən "miqrant ovu" çərçivəsində azərbaycanlılara qarşı total kampaniya başladan da xarici qüvvələrdir? Suallar ritorikdir.

Digər tərəfdən, bir münasibət ki, kənar qüvvələrin təsiri ilə pozulur, deməli, sağlam deyilmiş. Azərbaycan Rusiyanı məhz sağlam münasibətlərə, daha doğrusu, münasibətləri sağlamlaşdırmağa çağırır. Sağlam münasibətlərin parametrləri isə məlumdur və bu barədə söz açdıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Bakı ilə Moskva arasında münasibətlərin soyuması fonunda hələ də müxtəlif suallara cavab axtarışları davam edir. Bu zaman hər iki tərəfin diqqəti təkcə dövlətlərarası dialoq müstəvisinə deyil, eyni zamanda gündəlik həyat səviyyəsində yarana biləcək mümkün fəsadlara yönəlməkdədir. Aydın məsələdir ki, cavab axtarışları prosesində Rusiyadakı çoxsaylı Azərbaycan diasporasının – həm Azərbaycan vətəndaşlarının, həm də Rusiya Federasiyasının vətəndaşı olan soydaşlarımızın vəziyyəti, təbii olaraq, ön plana çəkilir.**

Baş verənlərin sosial-iqtisadi, eləcə də hüquqi müstəvidə hansı dəyişikliklərə səbəb olacağı ehtimalı da cavabı axtarılan sualların sırasındadır. Amma əsas sual bundan ibarətdir: tərəflər gərginliyi azaltmağın yollarını tapa biləcəkmi?

Fikirləşdik ki, iki ölkə arasındakı mövcud duruma və bu vəziyyətdən çıxış

# Aktaudan Yekaterinburqa uzanan "gərginlik reysi"

## *Moskva bu "əsəbi marşrut"un mümkün qədər tez qət edilməsinə çalışmalıdır*





yollarına **"XQ"nin daimi eksperti, Milli Məclisinin deputatı, politoloq Rasim Musabəyovun** yanaşması oxucularımız üçün maraqlı olar.

Politoloq R.Musabəyov hesab edir ki, Azərbaycan və Rusiya arasında münasibətlərin pisləşməsi təşəbbüsü Bakıdan gəlməyib: "Yeddi ay bundan əvvəl məhz Rusiya ərazisində Azərbaycanın mülki təyyarəsi vuruldu. Amma rəsmi Bakı hələ də Moskvadan nəinki beynəlxalq hüquq normalarına, hətta ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinə uyğun gələn heç bir cavab almayıb və ya hərəkətin şahidi olmayıb. Yekaterinburqda Rusiya polisinin, OMON-un azərbaycanlılara qarşı törətdikləri zoraklıq aksiyasına gəlincə, bu, həqiqətən də geniş rezonans doğuran hadisədir. Əvvəla, təsəvvürə gətirmək çətindir ki, bu cür hərəkətlər Rusiyada ən yüksək səviyyədəkilərin xəbəri olmadan həyata keçirilib. Baş vermiş olaydan sonra biz Rusiya təhlükəsizlik qüvvələrinin azərbaycanlıların ölümü ilə nəticələnən zorakı davranışı ilə bağlı bir izahat, açıq reaksiya gözləyirdik. Bu, olmadı. Axı Azərbaycan belə susqunluq və etinasızlıqla barışa bilməz. Məhz buna görə də zəruri bildiyi formada, situasiyaya adekvat cavab verir. Obyektivlik naminə onu da deyim ki, bu cavab kifayət qədər təmkinli və korrektdir".

Deputatın sözlərinə görə, Rusiya ali rəhbərliyinin – Kremlin baş verən insidentlərə reaksiyası gələcək ikitərəfli münasibətlərin vektorunu müəyyən etməyə qadirdir: "Belə hadisələr zamanı onlara vaxtında və lazımi reaksiyanın olmaması tərəflər arasında yalnız inamsızlığı artırır. Yəni, münasibətlərdə yaranan soyuqluğun dərin uçuruma çevrilməsi riski var. Açığını deyim ki, mən tərəfdaşlığın əsas elementləri hesab edilən bir sıra nailiyyətlərin tədricən geri alınacağını istisna etmirəm. Rusiyaya qonşu olan Baltikyanı respublikalar münasibətlərini, faktiki olaraq, sıfıra endiriblər. Eləcə də Gürcüstan da Rusiya ilə qarşılıqlı əlaqəni xeyli azaldıb. Əgər tezliklə vəziyyət dəyişməsə, Azərbaycan da eyni yolla getməyə məcbur ola bilər. Amma biz Rusiyanı düşmənə çevirməyə çalışmırıq. Amma indiki vəziyyətdə onu dost adlandırmaq da son dərəcə çətindir".

R.Musabəyov iki ölkə arasında yaşanan diplomatik gərginliyə baxmayaraq, Moskvanın hələ də hər şeyi düzəltmək imkanına malik olduğunu bildirdi: "Rusiyanın ali rəhbərliyi həm ikitərəfli münasibətlərin səviyyəsinə, həm də beynəlxalq hüququn elementar normalarına uyğun gələn rasional mövqe tutaraq, iradə nümayiş etdirməyə qadirdir. Demək istəyirəm ki, burada təkəbbür yersizdir. Belə davam edərsə, Azərbaycan nəyisə tələb etməkdən əl çəkəcək, bu dövlətlə münasibətləri yalnız müşahidə olunan real tendensiyalar əsasında qurmağa məcbur olacaq".

*

"Avropadakı bəzi qüvvələr Moskva ilə Bakı arasında münasibətləri korlamağa çalışırlar". **Bunu "Lenta.ru"-ya Rusiya Federasiya Şurasının Beynəlxalq əlaqələr komitəsinin sədri Qriqori Karasin deyib.**



Bu, Rusiya hakimiyyətinin məlum hadisələr baş verəndən sonra məqbul və pozitiv sayıla biləcək ilk rəsmi reaksiyasıdır. Rusiya qanunverici orqanının komitə sədrinin açlqlamasında insidentlərin səbəbkarını kənarda axtarma cəhdləri müəyyən suallar doğursa da, hər halda düşünməyə vadar edir: "Avropada, o cümlədən Qafqazda bəzi qüvvələr son illər Rusiya ilə Azərbaycan arasında münasibətlərdə əldə edilən bütün uğurları sıradan çıxarmağa çalışırlar. Yeri gəlmişkən, Ermənistanla da eyni şey baş verir". Ermənistanı da eyni tərəziyə qoyan senatorun sözlərinə görə, bu məsələ ilə bağlı təzyiqlər mütəşəkkildir və geniş cəbhədə aparılır: "Biz sağlam yanaşmalara və bütün bu vəziyyəti konstruktiv şəkildə həll etmək üçün hər cür imkana malik olduğumuza arxalanmalıyıq. Nifrəti qamçılamağa ehtiyac yoxdur. Çünki məhz bu, Qərbdə və Qafqazda keçmiş Sovet İttifaqı xalqlarını ziddiyyətə salmaq istəyən qüvvələrin vəzifəsidir. Biz buna imkan verməməliyik".

Cənab Q.Karasinin müstəqilliklərini əldə etmiş xalqlar ifadəsi yerinə "keçmiş Sovet İttifaqı xalqları" sözünü işlətməsi, baş verən təxribatlarda Qərbin, hətta Qafqazdakı bəzi qüvvələrin əlinin olması versiyası müəyyən suallara yol açır. Ortaya atılan bu tezisin altında nəyin gizləndiyi tezliklə məlum olacaq. Beləliklə, hansı prizmadan, yaxud bucaq altında baxılmasından asılı olmayaraq, indiki vəziyyətdə ötən ilin dekabrında Aktaudan başlayan "gərginlik reysi"nin son dayanacağının Yekaterinburq olmasında Bakıdan daha çox Moskva maraqlıdır. Bunu reallıqla yanaşı, həm də oyunun qaydaları diktə edir...

***İ.HƏSƏNQALA***
***XQ***

# “Yeraltı müharibə” bitməyib, “mina savaşı” davam edir

## *Torpağımızı bu ölüm tələsindən xilas etmək üçün 30 il vaxt, 25 milyard dollar vəsait tələb olunur*

**İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi ölkə qarşısında duran ən ciddi problemlərdən biridir. Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyinin (ANAMA) məlumatına əsasən, 2020-ci ilin noyabrından 2025-ci il iyunun 1-dək azad olunmuş ərazilərdə 38 minə yaxın piyada, 22 minə yaxın tank əleyhinə mina, eləcə də 139 minə yaxın partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.**

Lakin hələ çox işlər görülməlidir. Minalar hər gün insan həyatını təhlükəyə atır. Bir neçə gün öncə, iyunun 30-da Ağdamda baş verən növbəti mina partlayışı bir daha bu təhlükənin davamlı olduğunu xatırlatdı. Hadisə zamanı Ağdam Rayon Polis Şöbəsinin əməkdaşı xidmət vaxtı rayonun işğaldan azad edilmiş Papravənd kəndi ərazisində piyada əleyhinə minaya düşüb. Polis işçisinin sağ ayağı topuqdan amputasiya edilib. Bu artıq 2020-ci il Vətən müharibəsindən sonra baş verən 399-cu mina hadisəsidir və bütün bunlar sülh şəraitində, ərazimizdə müharibənin bitdiyi dövrdə baş verir.

Bəla həm də burasındadır ki, yalnız hərbi qulluqçular, polislər deyil, peşə borclarını yerinə yetirmək üçün işğaldan azad edilmiş bölgələrə ezam olunmuş insanlar, o cümlədən media nümayəndələri də onun qurbanı olublar.

Yada salaq ki, Ermənistanın təqdim etdiyi mina xəritələrinin cəmi 25 faizi real vəziyyəti əks etdirir. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin açıqlamasında bildirilir: “Beynəlxalq təzyiqdən sonra Ermənistan bəzi xəritələri təqdim etsə də, onlar minalanmış ərazilərin yalnız kiçik bir hissəsini əhatə edirdi və yalnız 25 faiz dəqiq idi. Son mina partlayışı hadisələrinin 55 faizindən çoxu bu xəritələrlə əhatə olunmayan ərazilərdə baş verib”.

Ümumiyyətlə, işğaldan azad edilmiş 1 milyon 166 min 702 hektar ərazidə minaların olduğu bildirilir. Bunun da 211 min 800 hektarı yüksək və 954 min 902 hektarı orta və aşağı çirklənmə səviyyəsindədir. Basdırılan minaların 75 faizinin dəqiq yerinin məlum olmaması isə ciddi təhlükədən xəbər verir. Onların yeri məlum olmadığı üçün böyük həvəslə, böyük ruhla torpaqlarına geri dönən insanlar mina qurbanına çevrilir, ölür və ya əlil olurlar. Bununla da, mina terroru həm fiziki təhlükə yaradır, psixoloji gərginliyə səbəb olur, həm də insanların gündəlik yaşamına neqativ təsir göstərir. İşğaldan azad edilmiş ərazilərin bərpasına və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışına problemlər yaradır.

Ən acınacaqlısı isə budur ki, bütün bunlar XXI əsrdə, müasir dövrün gözü qarşısında baş verib. Özlərini sivil və demokratik adlandıran dövlətlərin isə hələ də Ermənistanı “superdemokratik ölkə” kimi təqdim etməsi isə açıq ikili standart nümunəsidir.

Ayxan Hacızadənin sözlərinə görə, Ermənistanın xəritələri Azərbaycan ərazilərində təxminən 400 min minanın yerləşdirildiyini göstərsə də, faktiki rəqəm 1,5 milyona yaxındır. Bunun nəticəsində Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələrindən birinə çevrilib: “Ermənistanın mina təhlükəsinə münasibətdə bu cür davranışı regionda münaqişədən sonrakı dövrdə sülh və etimadın möhkəmləndirilməsi istiqamətində atılan tədbirlərə daha bir geri addımdır.

Bu baxımdan, beynəlxalq ictimaiyyətin Ermənistandan gələn mina təhlükəsini pisləmək üçün ardıcıl tədbirlər görməsini son dərəcə vacib hesab edirik və Ermənistanın hələ də Azərbaycana tam təqdim edilməmiş bütün minalanmış ərazilərin dəqiq xəritələrini təqdim etməsini gözləyirik. Məcburi köçkünlərin təhlükəsiz qayıdışını və zərər çəkmiş regionların bərpasını təmin etmək üçün Ermənistanın bütün minalanmış ərazilərin dəqiq xəritələrini təqdim etməsi son dərəcə vacibdir”.

*

Bütün bu faktlar açıq şəkildə sübut edir ki, Ermənistan minaladığı ərazilərin dəqiq xəritələrini verməkdən imtina etməklə Azərbaycanın minatəmizləmə prosesini süni şəkildə çətinləşdirməyi, bunun üçün ölkəmizin əlavə enerji, zaman və maliyyə resursları sərf etməsinə nail olmağı qarşısına məqsəd qoyub. Ərazilərimizdə 2021-ci il istehsalı olan minaların aşkarlanması isə Ermənistanın təxribatçı fəaliyyətinin 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatdan sonra da davam etdiyini təsdiqləyir. Mütəxəssislərin ehtimallarına əsasən, həmin tarixdən sonra Azərbaycanın azad olunmuş ərazilərində və onların perimetrləri boyunca yarım milyondan çox Ermənistan istehsalı olan mina basdırılıb. Bu isə mina problemini daha da dərinləşdirir, ərazilərin bərpası və təhlükəsizliyinin təmin edilməsini əngəlləyir, minatəmizləmə işlərini xeyli uzadır.

Faktiki olaraq, Ermənistan mina problemini Azərbaycana qarşı siyasi təzyiq və şantaj alətinə çevirib. Rəsmi İrəvan dəqiq mina xəritələrini təqdim etməməklə bu məsələni sülh danışıqlarında əlavə güzəştlər qazanmaq üçün manipulyasiya vasitəsi kimi istifadə edir. Təəssüf doğuran məqam odur ki, Ermənistanın bu addımları nəticəsində mülki əhalinin həyatı və təhlükəsizliyi ciddi risk altına düşür, regionda uzunmüddətli sabitliyin bərqərar olunması ləngiyir. Amma bütün bunların insani və humanitar aspektləri rəsmi İrəvan üçün prioritet deyil.

Bu kontekstdə beynəlxalq ictimaiyyətin və nüfuzlu beynəlxalq təşkilatların Qarabağdakı mina böhranına münasibətdə nümayiş etdirdiyi laqeydlik və ikili standartlar narahatlıq doğurur. Ermənistanın mina xəritələrini tam və şəffaf şəkildə Azərbaycana təqdim etməsi üçün hələ də ciddi və effektiv təsir mexanizmləri işə salınmayıb. Halbuki digər dövlətin ərazisində qəsdən humanitar böhran yaratdığı üçün Ermənistan beynəlxalq hüquq və prinsiplər çərçivəsində məsuliyyət daşımalıdır. Beynəlxalq təşkilatların bu məsələni görməzlikdən gəlməsi isə regionda təhlükəsizliyin, bərpa və reinteqrasiya proseslərinin ləngiməsinə bilavasitə zəmin yaradır.

Bu isə açıq şəkildə beynəlxalq humanitar hüququn, xüsusilə də Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır. Belə olan halda sual yaranır: beynəlxalq təşkilatlar Ermənistanın məsuliyyətsiz davranışına qarşı təsir mexanizmlərini tətbiq etmək, bu ölkəyə hüquqi və siyasi təzyiqlər göstərmək barədə çağırışlara niyə səssiz qalır? Ermənistan bundan nəticə çıxarıbmı? Mina sahələrinin tam və dəqiq xəritəsini təqdim etməyə qərar veribmi? Cavab bəllidir– xeyr. Əksinə, Avropa İttifaqı Ermənistanı maliyyələşdirməyə davam edir, özü də “Sülh Fondu” adı altında.





Bəs belə olan halda həmin yardımlar Ermənistan üçün əslində nəyə xidmət edir?

Bir daha yada salaq ki, ərazilərimizin minalar və digər partlamamış hərbi sursatlarla çirklənmə miqyası böyükdür. Bu səbəbdən ərazinin tamamilə təmizlənməsi illər çəkəcək və əgər minalanmış ərazilərin xəritələrinə çıxış olmasa, minatəmizləmə fəaliyyətləri çox çətinləşəcək. Azərbaycan isə bu təhlükəni aradan qaldırmaq üçün bütün resurslarını səfərbər edib və etməkdə davam edir.

Bu barədə Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu XQ-yə bidirdi ki, Azərbaycan bu gün minalarla çirklənmiş ərazilərdə təkcə torpağını deyil, həm də insan həyatını, sağlam və təhlükəsiz gələcəyi və regionun sabitliyini xilas etməyə çalışır: “ANAMA-nın son məlumatlarından aydın olur ki, on minlərlə hərbi sursat zərərsizləşdirilib. Ancaq bu statistikadan daha acı bir reallıq var: 2020-ci ilin noyabr ayından indiyədək 399 mina hadisəsi qeydə alınıb. Bu, günümüzün davam edən insanlıq faciəsidir.

Biz dəfələrlə qeyd etmişik ki, Ermənistan tərəfindən təqdim olunan və reallığı əks etdirməyən saxta mina xəritələri də birbaşa olaraq beynəlxalq humanitar hüququn, xüsusilə də Cenevrə konvensiyalarının pozulmasıdır. Azərbaycan bu gün 1,5 milyondan çox mina olması təxmini ilə dünyada minalarla ən çox çirklənmiş ilk 5 ölkə sırasındadır. Bu acı reallıqdır. Ərazilərimizin hər qarışı demək olar ki, minalanıb. Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, beynəlxalq ekspertlərin hesablamalarına görə, bu ərazilərin tam təmizlənməsi üçün təqribən 30 il və 25 milyard dollar tələb olunur.

Biz, Beynəlxalq Avrasiya Mətbuat Fondu olaraq bu problemin təkcə texniki deyil, həm də qlobal ədalət, təhlükəsizlik və inkişaf məsələsi olduğunu daim vurğulamışıq. Ona görə də son illər mina probleminin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində ayrıca bir 18-ci məqsəd kimi qəbul olunması istiqamətində səylər göstəriririk. Biz bu təşəbbüsü 2022-ci ildən etibarən müxtəlif beynəlxalq platformalarda gündəmə gətirir və məsələ ilə bağlı başda ANAMA və ABŞ-ın “Sülhün Kökləri” təşkilatı olmaqla əksər tərəfdaşlarımızla birlikdə çağırışlar edirik.

Bəli, bu gün Azərbaycan təkbaşına bu çətinliklə mübarizə aparmaq əzmindədir. Amma bu mübarizə həm də bütün bəşəriyyətin sınağıdır. Bu cür gedişatla insan həyatını, beynəlxalq hüququ və ədaləti hansı dərəcədə qoruyacağıq? Bütün bunlara baxmayaraq, beynəlxalq təşkilatların və dövlətlərin susqunluğu davam edir. Ermənistan bu əməllərindən hər hansı nəticə çıxarıbmı? Xeyr. Əksinə, o, yenə də “sülh” pərdəsi arxasında maliyyələşdirilir. Belə bir şəraitdə verilən maliyyə isə nə sülhə xidmət edir, nə də hüquqa – çox təəssüf ki, bu, birbaşa olaraq siyasi maraqların təzahürüdür”.

Bütün bu faktlar göstərir ki, minalar təkcə təhlükəsizlik deyil, həm də sosial-iqtisadi, humanitar və siyasi məsələdir. Ona görə də beynəlxalq ictimaiyyət problemin miqyasını və Ermənistanın məsuliyyətini görməzlikdən gəlməməli, konkret addımlar atmalıdır. Azərbaycanın ərazi bütövlüyü və insan təhlükəsizliyi bu gün təkcə ölkəmizin deyil, bütövlükdə regionun sabitliyi üçün açar rolunu oynayır. Həm də davamlı inkişaf və bölgənin dirçəlişi üçün çox vacibdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Parisin İrəvana silah tədarükü: Regional sabitliyə təhlükə!

**(əvvəli 1-ci səhifədə)**

Bununla bağlı tərəflər arasında keçirilən görüşlər, qarşılıqlı səfərlər diqqətdən yayınmır. Belə görüşlərdən biri iyulun 2-də baş tutub. Həmin gün Ermənistanın müdafiə naziri Suren Papikyan Fransanın İrəvandakı fövqəladə və səlahiyyətli səfiri Olivye Dekotinini qəbul edib. Ermənistan müdafiə nazirliyinin yaydığı məlumata görə, görüş zamanı Ermənistanla Fransa arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər əməkdaşlıq çərçivəsində əldə olunan uğurları yüksək qiymətləndirib və gələcək qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini müəyyən ediblər. Görüş zamanı regional və beynəlxalq hadisələr də müzakirə edilib.

Qeyd etmək lazımdır ki, rəsmi Paris son illər Cənubi Qafqazda təsir imkanlarını Ermənistanda möhkəmlənməklə genişləndirməyə çalışır. Lakin Fransanın bölgəmizdəki ambisiyaları təkcə Ermənistanla məhdudlaşmır. Bununla bağlı narahatlıq doğuran məqamlar da az deyil. Bütün bu proseslər isə həm regionda formalaşmış qüvvələr balansına, həm də beynəlxalq oyunçuların maraqlarına birbaşa təsir edir.

Fransa səfiri və Ermənistan müdafiə naziri arasındakı sonuncu görüş isə İrəvan–Paris hərbi əməkdaşlığının davamlı xarakter aldığını göstərir. Rəsmi məlumatlarda tərəflərin müdafiə sahəsində “uğurlu əməkdaşlıq”dan məmnun olduqları bildirilsə də, bu əməkdaşlığın real miqyası və region üçün doğurduğu nəticələr açıq qalıb. Fransa Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda balansı pozmaq təhlükəsi yaradır və bu, regional sabitliyə ciddi təhdiddir. Parisin bu istiqamətdəki fəallığı həm də Azərbaycanın suverenliyinə qarşı dolayı təzyiq mexanizmi kimi qiymətləndirilir. Papikyan–Dekotini görüşündə beynəlxalq məsələlərin də müzakirəsi göstərir ki, Fransa Ermənistanı təkcə hərbi yox, siyasi cəbhədə də öz orbitinə çəkməyə çalışır. Ermənistan isə bu əlaqələri, necə deyərlər, geosiyasi təklənmədən xilas olmaq üçün fürsət kimi görür. Lakin bu cür asılılıqlar İrəvanın real müstəqilliyini sual altına alır. Üstəlik, Fransanın bu siyasəti Avropa İttifaqının Cənubi Qafqazda neytral mövqeyinə zidd nümunə kimi də dəyərləndirilə bilər.

*

Ümumiyyətlə, Fransa hər zaman ermənipərəst siyasət yürüdüb. Sadəcə, keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən biri olduğu üçün üzdə özünü bitərəf vasitəçi kimi göstərməyə çalışırdı. Müharibə başlayan kimi Paris Emmanuel Makronun timsalında, necə deyərlər, maskasını cırıb atdı. Elə müharibənin



ilk günlərindən etibarən Fransa mediası Yelisey sarayından gələn göstərişlərə uyğun olaraq Azərbaycanın Suriyadan, guya, muzdlu döyüşçülər gətirməsinə dair yalan və böhtan dolu məlumatlar tirajlamağa başladı. Amma məlum olduğu kimi, bütün bunların heç bir faydası olmadı və Azərbaycan Ordusu başladığı işi axıra çatdırdı.

2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 19-dək Fransanın Azərbaycana bədxahlıq etmək üçün hansı oyunlardan çıxdığı da yaddaşlardan silinməyib. Silinməsi mümkün də deyil. Həmin dövrdə Paris siyasi-diplomatik iş aparmaq və ideoloji təxribat törətmək sahəsində bütün gücünü işə salaraq Azərbaycanı qaralama cəhd edirdi. Fransa Azərbaycan ərazisində separatçı xunta rejiminin qalması, “boz zona”nın mövcudluğu üçün əlindən gələni etdi. Lakin bu da uğursuz olandan sonra Beşinci Respublika Ermənistanı silahlandırmaq prosesinə girişdi. Məhz Parisdən gələn təlimatlar əsasında Ermənistan öz təhlükəsizlik doktrinasını əsaslı şəkildə dəyişməyə başladı. Bu dəyişikliklərin ən diqqətçəkəni isə Fransa ilə hərbi sahədə sürətlə dərinləşən əməkdaşlıqdır. Rəsmi Paris 2023–2024-cü illərdə Ermənistana “Mistral” hava hücumundan müdafiə sistemləri verib. Bu sistemlər qısamənzilli, infraqırmızı idarəetməli zenit raket kompleksidir. Kompleks helikopterlərə, pilotsuz uçuş aparatlarına və aşağı hündürlükdə uçan təyyarələrə qarşı effektivdir. Məlumata görə, Ermənistana “Mistral” kompleksinin, ən azı, 3 batareyası təhvil verilib.

“Thales” şirkəti tərəfindən istehsal olunan GM200 radarları (Ground Master 200) hava hücumundan müdafiə sistemlərinin əsas komponentlərindəndir. Bu sistemlər Ermənistan ordusuna hava müşahidəsi və idarəetməni gücləndirmək məqsədi daşıyır. Fransa Ermənistanın xüsusi təyinatlı qüvvələrini müasir snayper tüfəngləri və piyada silahları ilə də təchiz edib. Bunlar arasında 12,7 millimetr kalibrli “PGM Hecate II” ağır snayper tüfənglərinin olduğu güman edilir. Həmçinin İrəvana zirehli texnika və rabitə sistemləri də ötürülür. Söhbət əsasən “Bastion” zirehli texnikasından gedir. Fransa tərəfindən Ermənistana sərhəd müdafiəsi və mobil rabitə məqsədilə xüsusi texnika və texnoloji dəstək də təqdim olunub.

İkitərəfli hərbi əməkdaşlığın bir istiqamətini də təlim və texniki dəstək təşkil edir. Ermənistan ordusunun Fransa hərbi təlim proqramlarında iştirakı genişlənib. Fransız hərbi təlimatçıları erməni hərbçilərinə silahların idarə olunması və istifadəsi üzrə təlimlər keçir.

Onu da bildirək ki, bu silah-sursat tədarükü iki ölkə arasında 2023-cü ilin oktyabrında imzalanmış hərbi-texniki əməkdaşlıq sazişinə əsasən həyata keçirilir. Fransa bu addımları “müdafiə məqsədli və sabitliyə yönəlmiş əməkdaşlıq” kimi təqdim etsə də, əslində, bu proses Azərbaycan və region üçün ciddi risklər yaradır. Beləliklə, Paris təkcə İrəvanı silahlandırmır, həm də regionda balansı pozan oyunçuya çevrilir. Fransa hökumətinin bu istiqamətdə davranışları onun Cənubi Qafqazda Rusiyanın zəifləməsindən sonra yaranan boşluqları doldurmaq cəhdidir. Ermənistan isə bu əməkdaşlığı təkcə hərbi deyil, həm də siyasi dəstək vasitəsi kimi qiymətləndirir və Fransa ilə yaxınlığı daxili legitimliyini qorumağa yönəldir. Bir neçə gün öncə E. Makronun N.Paşinyanla telefon danışığını “Mən Ermənistan demokratiyasını pozmaq cəhdlərinə qarşı mübarizədə Fransanın həmrəyliyini ifadə etdim” kimi şərhi bunun göstəricisi sayıla bilər. Ancaq bu proses nə NATO, nə də Aİ tərəfindən tam dəstəklənir. Bu isə Fransanın birtərəfli avantürası təsiri bağışlayır. Azərbaycan tərəfi haqlı olaraq bu cür silahlandırma proseslərini regionda yeni təxribatlara zəmin yaratmaq kimi görür və bu məsələdə beynəlxalq ictimaiyyəti ikili standartlara son qoymağa çağırır. Ümumilikdə, Fransa–Ermənistan hərbi yaxınlaşması bölgədə sülh gündəmini deyil, qarşıdurma ehtimalını artıran təhlükəli tendensiyadır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

– Ermənistan müdafiə naziri Suren Papikyanın Fransa səfiri ilə görüşü iki ölkə arasında hərbi əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Rəsmi açıqlamalarda tərəflər arasında müdafiə sahəsində əldə olunan irəliləyişlərə böyük önəm verildiyi bildirilir. Görüş zamanı təkcə ikitərəfli əməkdaşlığın deyil, həm də regional və beynəlxalq təhlükəsizlik məsələlərinin əhatəli şəkildə müzakirə olunması Fransa–Ermənistan münasibətlərinin strateji məzmun kəsb etdiyini göstərir. Eyni zamanda, bu məqam Paris–İrəvan münasibətlərinin sırf ikitərəfli çərçivədən çıxaraq, daha geniş geosiyasi hədəflərə yönəldiyini göstərir. Bu dinamika Cənubi Qafqazda dəyişən güc balansı fonunda xüsusi əhəmiyyət daşıyır.

Son bir il ərzində Fransa tərəfindən Ermənistana silah-sursat tədarük edilməsi, həmçinin, Fransa hərbi ekspertlərinin Ermənistana ezam olunması, yerli hərbçilərə təlim keçməsi bu əməkdaşlığın yalnız texniki deyil, strukturlaşdırılmış hərbi inteqrasiya yönümlü olduğunu sübut edir. Fransa bu yolla regionda Rusiyanın zəifləyən təsirini kompensasiya etmək, Ermənistan üzərindən öz mövqeyini gücləndirmək istəyir. Ermənistan bu əməkdaşlığı təhlükəsizlik zəmanəti kimi təqdim etsə də, əslində, proses İrəvanı daha böyük siyasi və hərbi asılılığa sürükləyir.

Fransa–Ermənistan hərbi yaxınlaşması regionda yeni riskləri də gündəmə gətirir. Bu cür silahlandırma təşəbbüsləri Cənubi Qafqazda mövcud olan kövrək sabitliyi poza, qarşılıqlı etimadı daha da zəiflədə bilər. Üstəlik, Fransa tərəfindən həyata keçirilən birtərəfli dəstək Aİ-nin Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı balanslı mövqeyinə də ziddir.

# Cinayət törədənlər daha çox yerlilərdir

*Rusiyada miqrantların incidilməsi, təhqir olunması adi hal alıb*

**Son zamanlar Rusiyada miqrantlara qarşı təzyiqlərin artması ilə bağlı xəbərlər çoxalıb. Xüsusilə Mərkəzi Asiyadan, Cənubi Qafqazdan və digər qonşu ölkələrdən gələn miqrantlar müxtəlif formalarda diskriminasiya və zorakılığa məruz qalırlar. Miqrantlar küçələrdə, metro stansiyalarında, ticarət mərkəzlərində, hətta iş yerlərində tez-tez polis tərəfindən saxlanılır, sənədləri yoxlanılır. Bu yoxlamalar sistematik xarakter daşıyır.**

Miqrantların əksəriyyəti öz hüquqlarını bilmir və ya hüquqi dəstək almaqda çətinlik çəkirlər. Bu isə onların daha asan hədəfə çevrilməsinə səbəb olur. Bu cür davranışlar miqrantlar arasında qorxu mühiti yaradır, onların cəmiyyətə inteqrasiyasını çətinləşdirir.

O da məlumdur ki, polis əməkdaşları bəzi hallarda kiçik prosedur pozuntularını əsas gətirərək sərt inzibati tədbirlər görür ki, bu da deportasiya ilə nəticələnir. Məsələn, Sankt–Peterburq şəhərində iki azərbaycanlı ailəsinin deportasiyası barədə qərar verilib. Bildirilib ki, polis Nevski rayonunda yeniyetmələr arasında baş vermiş münaqişənin daha bir iştirakçısını – 15 yaşlı Azərbaycan vətəndaşını Rusiyadan deportasiya edəcək.

Bundan əvvəl münaqişənin digər iştirakçısı olan 13 yaşlı azərbaycanlıya qarşı da miqrasiya tədbirləri görülüb. Onu valideynləri, qardaşı və bacısı ilə birlikdə Rusiyadan deportasiya etmək qərarına gəliblər. Bu cür tədbirlər ictimai təhlükəsizliyi təmin etməkdən daha çox siyasi və ictimai xarakter daşıyır. Yəni, miqrantlara qarşı sərt münasibət nümayiş etdirilərək, daxili auditoriyaya "nəzarət var" görüntüsü verilir.

Eyni zamanda, bəzi informasiya vasitələrində miqrantlara qarşı nifrət ritorikası artıb, onlar "təhlükə mənbəyi" olaraq göstərilir, Rusiya cəmiyyətinə uyğunlaşa bilməyən "cinayətkar qruplar" kimi təqdim edilir. Sosial şəbəkələrdə yayılan təxribatçı, dəqiqləşdirilməmiş məlumatlar, xüsusən miqrantların, guya, cinayətkarlıq mühiti, ictimai narahatlıq yaratdığına dair xəbərlər cəmiyyətin geniş kütləsində onlara qarşı mənfi münasibət yaradır.

Bəs doğrudanmı miqrantlar Rusiyada törədilən çinayətlərin əsas səbəbkarlarıdır? Əslində, miqrantlar yerli əhali ilə müqayisədə daha az cinayət törədirlər. Bunu statistik məlumatlar da göstərir. Rusiya Daxili İşlər Nazirliyinin 2013–2023-cü illərin statistikasına görə, yüz cinayətdən ikisini əcnəbilər törədib. RBC saytının araşdırmaları da miqrantların yerlilərə nisbətən az cinayət törətdiklərini ortaya qoyub. Həmin dövrdə məhkum edilmiş Rusiya vətəndaşlarının orta sayı hər 100 min nəfərə 424 nəfər, məhkum olunmuş əcnəbilərin sayı isə 282 nəfər olub. Araşdırma müəllifləri qeyd edirlər ki, Rusiyada əcnəbilərin əsas hissəsini əmək qabiliyyətli yaşda olan kişilər təşkil edir (əmək miqrantları hesabına). Bu baxımdan, onların fikrincə, cinayət nisbətini bütün əhali üçün deyil, yalnız 14–49 yaşlı kişilər üçün hesablamaq ədalətlidir. Bu halda məlum olur ki, məhkum edilmiş rusların sayı hər 100 min nəfərə 1,3 min, əcnəbilərin sayı isə 507 nəfərdir.



Tədqiqatda qeyd olunub ki, ruslar və əcnəbilər tərəfindən törədilən cinayətlər arasında əsaslı fərq yoxdur: hər ikisinə görə cəzaların əhəmiyyətli hissəsi oğurluq, narkotik maddələrin alveri və yol hərəkəti qaydalarını pozma ilə bağlıdır. Əcnəbilər arasında zorakılıq, ağır bədən xəsarəti 13-cü yerdədir (15-ci maddə).

Yalnız saxta sənədlərin hazırlanması və istifadəsi (Cinayət Məcəlləsinin 327-ci maddəsi) və sərhədi qanunsuz keçməyə (CM-nin 322-ci maddəsi) görə miqrantlar Rusiya vətəndaşlarından daha çox mühakimə olunurlar.

Miqrantlar tərəfindən törədilən cinayət əməllərinin sayında 2024-cü ildə azalma tendensiyası olub – 0,9 faiz. Mütləq rəqəmlərlə, bu, 2023-cü ildə 38,9 min, 2024-cü ildə 38,6 min cinayət deməkdir. Bəs bu il nə baş verir? 2025-ci ilin birinci rübünün yekunlarına görə, xarici ölkə vətəndaşları tərəfindən törədilən cinayətlərin sayında artım müşahidə olunub – 10,8 mindən 12,4 minə. Amma bu rəqəmlər Rusiya vətəndaşlarının törətdiyi cinayətlərlə müqayisədə çox azdır.

Bütün bunlara baxmayaraq, mətbuatda ən çox miqrantlarla bağlı cinayət xəbərlərinə yer verilir. Belə fon yaratmağa çalşılır ki, ölkədə cinayətlərin əksəriyyəti miqrantlar tərəfindən törədilir. Bu da, öz növbəsində, miqrantların həyatını çətinləşdirir. Onlar artıq yalnız hüquqi təzyiqlərə deyil, həm də sosial təzyiqlərə və ayrı-seçkiliyə məruz qalırlar. Xüsusilə, gündəlik həyatlarında, iş yerlərində və ictimai məkanlarda daha çox nifrət və təhqirə rast gəlirlər. Miqrantlar, həmçinin "xarici" və "bura aid olmayan" kateqoriya kimi görülür və bu, onların cəmiyyətə inteqrasiyasını çətinləşdirir. Ən qorxulusu isə ksenofobiyanın yaşlı nəslin arasında artmasıdır. Bu gün ruslar 1941-1945-ci illər müharibəsində qazax və özbək ailələrinin müharibənin qurbanı olmuş minlərlə uşağa, o cümlədən rus uşaqlarına sığınacaq verdiyini və böyütdüyünü unudublar. Xatırladaq ki, Özbəkistan bütövlükdə təxliyə edilmiş bir milyon nəfər çox, o cümlədən 250 minə yaxın uşaq qəbul edib.

Beləliklə, nifrət, ayrı-seçkilik çox vaxt dövlətin hərəkətsizliyi və müvafiq tədbirlər görməməsi ilə daha da güclənir. Həmçinin bu vəziyyət hüquq-mühafizə orqanlarının və siyasətçilərin miqrantlara qarşı sərt mövqe tutmalarına rəvac verir. Ən pisi isə miqrantların özünüifadə və mədəni fərqliliklərini qorumaq istəyi cəmiyyətdə tənqid olunur. Bəzi qruplar onları "təhlükəli" və "yabancı" olaraq görür, bununla da miqrantların cəmiyyətdə özlərini rahat hissetmə şansları azalır.

Mövcud vəziyyət Rusiyada yaşayan miqrantların sosial, hüquqi və mədəni inteqrasiyasını çətinləşdirir. Cəmiyyətin müəyyən hissəsndə yayılmış bu stereotiplər və qorxu, dövlətin miqrantlarla bağlı siyasətini daha sərt və daha qapanmış hala gətirir. Miqrantlar iş yerlərində istismara məruz qalır, çox vaxt qeyri-rəsmi və hüquqları qorunmayan şəraitdə çalışır, əmək haqları vaxtında ödənilmir və ya az ödənilir, hüquqlarını tələb etdikdə hədələnir, işdən qovulurlar.

Bəli, bu gün Rusiyada miqrantlar, xüsusən qeyri-rəsmi sektorun işçiləri əmək hüquqları və təhlükəsizlik məsələləri baxımından çox ciddi təzyiqlərə məruz qalırlar. Əgər miqrantlara qarşı mənfi davranışların qarşısı vaxtında alınmasa, ciddi fəsadlara səbəb olacaq.

Elə iş yerləri var ki, ruslar orada işləmək istəmirlər. Təkcə tikintidə 1,5 milyona yaxın işçi qüvvəsi çatışmazlığı var. Ümumilikdə, rəsmi məlumatlara görə, hazırda 2,4 milyon iş yeri boşdur. Reallıqda bu rəqəmin 5 milyondan çox olduğu bildirilir. İstənilən halda Rusiyanın miqrantlara daha çox ehtiyacı var. Onu da qeyd edək ki, son vaxtlar Rusiyadakı miqrantlar Avropaya üz tutmağa başlayıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Xuntaçıların məhkəməsi**

# Azərbaycanlı əsir və girovlara verilən işgəncələr sübuta yetirilir



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma kimi çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 3-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər. Məhkəmə prosesində Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində əsir və girov götürülmüş, habelə Ermənistan hərbçilərinin açdıqları atəş nəticəsində yaralanmış və digər zərərlər görmüş şəxslər ifadə veriblər.



Məhkəmə dindirməsində zərərçəkmiş şəxslər – Mobil Əhmədzadə, Fəzail Əsədov, Eldar Abdullayev, Elnur Mehdiyev, İntiqam Məmmədov, Şahruz Əliyev, Xudayət Tağıyev, Aydın Əhmədov, Nizami İsmayılov, Hidayət Əsgərov, Aqil Quliyev,-Tahir Cəfərov, Fikrət Aslanov, Tacir İsmayılov, Anar Məmmədov Birinci qarabağ müharibəsi zamanı əsir götürüldüklərini, aylarla erməni hərbçilərinin vəhşiliklərinə, çoxsaylı ingəncələrinə məruz qaldıqlarını, ağır bədən xəsarətləri aldıqlarını və ihələ də ötüb keçməyən psixoloji sarsıntılar keçirdiklərini bildiriblər.

Zərərçəkənlər hakimlərin, təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin də suallarını dəlil-sübutlarla cavablandırıblar.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Xatırladaq ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər – Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

Məhkəmə prosesi iyulun 4-də davam etdiriləcək.

***XQ***

# ATƏT PA beynəlxalq ictimaiyyəti Azərbaycana yardım etməyə çağırıb




**Milli Məclisin deputatı Qaya Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının iyunun 28-dən iyulun 3-dək Portuqaliyanın Porto şəhərində keçirilmiş illik sessiyasında iştirak edib.**



Nümayəndə heyətinə Milli Məclisin deputatları Azay Quliyev, Sevinc Fətəliyeva və Tural Gəncəliyev daxil olublar. Azərbaycan Respublikasının ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli və Portuqaliyadakı fövqəladə və səlahiyyətli səfir İlqar Muxtarov nümayəndə heyətini müşayiət edib. Sessiyada Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb, ATƏT PA prezidenti, vitse-prezidenti və digər vəzifələrə seçkilər keçirilib.

Nümayəndə heyətinin üzvləri Assambleyanın plenar iclasında və komitələrin iclaslarındakı müzakirələrdə fəal iştirak edib, çıxışlarında ölkəmizin regionda sülh və əməkdaşlığın bərqərar olması səyləri, ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlıq, o cümlədən COP29-da Azərbaycan rəhbərliyinin səyləri sayəsində razılaşdırılmış tarixi qərarlar və hazırda COP29-un sədri kimi Azərbaycan tərəfinin həyata keçirdiyi səylər barədə ətraflı məlumat verib, ümumavropa təhlükəsizliyi məsələləri ətrafında fikirlərini bölüşüblər. Milli Məclisin deputatları münaqişənin Azərbaycana vurduğu ziyan və mina problemi haqqında Assambleyanı məlumatlandırıb, Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdış hüququnun təmin edilməsinin zəruriliyini vurğulayıblar. Nümayəndə heyətinin rəhbəri Qaya Məmmədovun təklifi ilə Parlament Assambleyası beynəlxalq ictimaiyyəti Azərbaycana işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə, yenidənqurma və bərpa məsələlərində yardım göstərməyə çağıran qərar qəbul edib. Nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Azay Quliyev yenidən ATƏT PA İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit komitəsinin sədri seçilib.

Sessiyada Ermənistan nümayəndə heyəti Assambleyanın yekun sənədinin layihəsinə Azərbaycan əleyhinə düzəlişlər (hazırda məhkəmələri gedən erməniəsilli şəxslərin qeyd-şərtsiz azadlığa buraxılması, Azərbaycanda erməni irsinin guya dağıdılması və s.) vermişdi. Lakin Azərbaycan nümayəndə heyətinin apardığı iş nəticəsində bu düzəlişlər Assambleya tərəfindən keçirilən səsvermədə rədd edilib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri və üzvləri ATƏT PA-nın yeni seçilmiş prezidenti Pere Joan Pons, vitse-prezidentləri və digər ölkələrin nümayəndə heyətləri ilə çoxsaylı görüşlər keçiriblər.

Avropa təhlükəsizliyi sahəsində ən mühüm beynəlxalq dialoq platformalarından olan ATƏT PA-nın Porto sessiyasında aparılmış müzakirələr Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil, qətiyyətli və prinsipial siyasətinin, bunun sayəsində regionda yaranmış davamlı sülh və inkişaf perspektivlərinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul və təqdir edildiyini bir daha göstərib.

***XQ***

# Birləşmiş Ərəb Əmirliklərinin naziri Azərbaycanda səfərdədir



**Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, COP28-in Prezidenti Sultan Əhməd Əl-Cabir İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün iyulun 3-də Azərbaycana səfərə gəlib.**

Füzuli Beynəlxalq Hava Limanında qonağı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Eldar Seyidov qarşılayıb.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 189** **Bakı şəhəri, 30 iyun 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 31 yanvar tarixli 29 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu, işçilərinin say həddi və əməkhaqqı fondu"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 31 yanvar tarixli 29 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 173 (Cild I); 2024, № 4, maddə 441) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu, işçilərinin say həddi və əməkhaqqı fondu" yeni redaksiyada verilsin (əlavə olunur).

2. Bu Qərarın 1-ci hissəsi ilə edilmiş dəyişikliklə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

3. Bu Qərar 2025-ci il aprelin 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 191** **Bakı şəhəri, 2 iyul 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Torpaqların texniki uçotunun aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 88-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373 (Cild I); 2024, № 2, maddə 208, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Torpaqların texniki uçotunun aparılması Qaydaları"nın 4-cü hissəsinin "a" bəndinin yeddinci – onuncu abzasları müvafiq olaraq səkkizinci – on birinci abzaslar hesab edilsin və həmin bəndə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 192** **Bakı şəhəri, 2 iyul 2025-ci il**

***"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların***

sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 256 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 256 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719 (Cild I); 2024, № 1, maddə 123, № 4, maddə 479) 2-ci hissəsinin dördüncü abzasında "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış vəsait hesabına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli qərarında nəzərdə tutulmuş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla və ya öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə, habelə respublika üzrə orta aylıq əmək haqqının beş mislindən az olmayan miqdarda" sözləri "ayrılmış vəsait hesabına Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 6000 (altı min) manat məbləğində" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431; 2025, № 3, maddə 304) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 5.24.3-cü yarımbəndindən "və kompensasiyalar" və "və paltar, ayaqqabı, yumşaq ləvazimat və avadanlıq əvəzinə verilən pul kompensasiyası" sözləri çıxarılsın

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 193** **Bakı şəhəri, 3 iyul 2025-ci il**

***"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 137 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsi üzrə:

1.1. "Ağdam rayonu" hissəsinə aşağıdakı məzmunda 203-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 203-1. | Məscid | 1879-cu il | Abdal kəndi |

1.2. "Kəlbəcər rayonu" hissəsinə aşağıdakı məzmunda 267-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 267-1. | Monastır | IX-XIV əsrlər | Qanlıkənd kəndi |

1.3. "Laçın rayonu" hissəsinə aşağıdakı məzmunda 312-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 312-1. | Məbəd | IX-XI əsrlər | Bozlu kəndi |

2. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı" üzrə:

2.1. "Memarlıq abidələri" bölməsinin "Ağdam rayonu" hissəsinə aşağıdakı məzmunda 4030-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4030-1. | Hamam | XIX əsrin sonu - XX əsrin əvvəlləri | Ağdam şəhəri |

2.2. "Memarlıq abidələri" bölməsinin "Ağdam rayonu" hissəsinin 4053-cü bəndində "Kənkərli" sözü "Kəngərli" sözü ilə əvəz edilsin;

2.3. "Memarlıq abidələri" bölməsinin "Ağdam rayonu" hissəsinə aşağıdakı məzmunda 4055-1–4055-9-cu bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4055-1. | Türbə | 1989-cu il | Əlimədətli kəndi |
| 4055-2. | Türbə | XIX əsr | Boyəhmədli kəndi |
| 4055-3. | Türbə | XIX əsr | Qızıl Kəngərli kəndi |
| 4055-4. | Türbə | XIV-XV əsrlər | Qızıl Kəngərli kəndi |
| 4055-5. | Körpü | XVIII-XIX əsrlər | Kəngərli kəndindən şimal-qərbdə |
| 4055-6. | Türbə | XVIII-XIX əsrlər | Eyvazxanbəyli kəndi |
| 4055-7. | Hamam | 1900-1901-ci illər | Gülablı kəndi |
| 4055-8. | Məscid | 1899-cu il | Gülablı kəndi |
| 4055-9. | Məscid | 1896-cı il | Novruzlu kəndi |

2.4. "Memarlıq abidələri" bölməsinin "Füzuli rayonu" hissəsinə aşağıdakı məzmunda 4240-1–4240-4-cü bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4240-1. | Hamam | XVII-XVIII əsrlər | Qarğabazar kəndi |
| 4240-2. | Əhməd Sultan türbəsi | 1794-1795-ci illər | Yuxarı Seyidəhmədli kəndi |
| 4240-3. | Türbə | 1852-1853-cü illər | Yuxarı Seyidəhmədli kəndi |
| 4240-4. | Məbəd və monastır qalıqları | Erkən orta əsrlər | Zərgər kəndi, Füzuli şəhərinin yaxınlığında |

2.5. "Memarlıq abidələri" bölməsinin "Xocavənd rayonu" hissəsinə aşağıdakı məzmunda 4353-1–4353-7-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4353-1. | 1 nömrəli körpü | XIX əsr | Böyük Tağlar kəndi |
| 4353-2. | 2 nömrəli körpü | XV-XVI əsrlər | Böyük Tağlar kəndi |
| 4353-3. | 1 nömrəli körpü | XX əsrin əvvəlləri | Tağaser kəndi |
| 4353-4. | 2 nömrəli körpü | 1939-cu il | Tağaser kəndi |
| 4353-5. | 3 nömrəli körpü | 1763-cü il | Tağaser kəndi |
| 4353-6. | Körpü | XVIII əsr | Hadrut qəsəbəsi |
| 4353-7. | Məbəd | XVII əsr | Edişə kəndi |

2.6. "Memarlıq abidələri" bölməsinin "Kəlbəcər rayonu" hissəsinə aşağıdakı məzmunda 4497-1–4497-9-cu bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4497-1. | Bulaq | XVII əsr | Daşbulaq kəndi |
| 4497-2. | Məbəd qalıqları | XII-XIII əsrlər | Daşbulaq kəndi |
| 4497-3. | Məbəd | XVII əsr | Çaykənd kəndi |
| 4497-4. | Məbəd qalıqları | XVII əsr | Günəşli kəndi |
| 4497-5. | Məbəd (sövmə) | XIII-XIV əsrlər | Qamışlı kəndi |
| 4497-6. | Qırmızı məbəd | XII-XIII əsrlər | Fətallar kəndi |
| 4497-7. | Monastır | XII-XIII əsrlər | Çəpli kəndi |
| 4497-8. | Məbəd | XIII əsr | Zar kəndi |
| 4497-9. | Məbəd | XIII əsr | Zar kəndi |

2.7. "Memarlıq abidələri" bölməsinin "Laçın rayonu" hissəsinə aşağıdakı məzmunda 4764-1–4764-7-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4764-1. | Məbəd | IX-X əsrlər | Sadınlar kəndi |
| 4764-2. | Məbəd | XIII-XVII əsrlər | Qarasaqqal kəndi |
| 4764-3. | Qaraçanlı qalası | Orta əsrlər | Qaraçanlı kəndi |
| 4764-4. | Monastır qalıqları | IX-XI əsrlər | Katos kəndi |
| 4764-5. | Məbəd (sövmə) | XII-XIII əsrlər | Ərikli kəndi |
| 4764-6. | Məscid | XIX-XX əsrlər | Cicimli kəndi |
| 4764-7. | Qala | | Mirik kəndi |

2.8. "Memarlıq abidələri" bölməsinin "Zəngilan rayonu" hissəsinə aşağıdakı məzmunda 5292-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 5292-1. | Məbəd | XVII əsr | Şatarız kəndi |

2.9. "Arxeoloji abidələr" bölməsinin "Cəlilabad rayonu" hissəsindən sonra aşağıdakı məzmunda "Füzuli rayonu" hissəsi əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Füzuli rayonu | | | |
| 5803-1. | Kəhriz | 1912-1917-ci illər | Xatınbulaq kəndi |
| 5803-2. | Kəhriz | XIX əsr | Sərdarlı kəndi |

2.10. "Arxeoloji abidələr" bölməsinin "Laçın rayonu" hissəsinə aşağıdakı məzmunda 5925-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 5925-1. | Mağara (Ağzıbir kahası) | | Qarıqışlaq kəndi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın təşəbbüskar fəallığı İƏT-ə dinamizm və uğur qazandırır



**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, İƏT 1985-ci ildə İran, Pakistan və Türkiyə tərəfindən yaradılıb və sonradan Mərkəzi Asiya, Qafqaz və digər region ölkələrinin qoşulması ilə genişlənib. Hazırda təşkilata üzv ölkələr, təxminən, 500 milyonluq əhalini və zəngin təbii ehtiyatlara malik bir coğrafiyanı əhatə edir. Bu baxımdan İƏT böyük iqtisadi potensiala malik bir əməkdaşlıq platformasıdır.

Azərbaycan bu təşkilatda fəal iştirak etməklə regional iqtisadi inteqrasiyanı sürətləndirir, ticarət, nəqliyyat, enerji və digər sahələrdə üzv ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq imkanlarını genişləndirir. Eyni zamanda, respublikamız İƏT-in əsas fəaliyyət istiqamətlərinin – iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, kənd təsərrüfatı, ekologiya və turizm sahələrinin inkişafını diqqətdə saxlayır, sadalanan sahələrdə bir sıra təşəbbüslərlə çıxış edərək təşkilatın fəaliyyətində səmərəliyin artırılmasına mühüm töhfə verir.

Azərbaycanın İƏT-ə üzv dövlətlərlə xarici ticarət dövriyyəsi davamlı şəkildə artır, qarşılıqlı investisiya imkanları genişlənir. Təşkilat çərçivəsində azad ticarət zonasının yaradılması, gömrük prosedurlarının sadələşdirilməsi və ticarət maneələrinin azaldılması kimi təşəbbüslər respublikamızın daim maraq dairəsindədir. Enerji sahəsində isə ölkəmiz regionun əsas ixracatçılarından biri kimi İƏT-in enerji təhlükəsizliyi gündəliyinə mühüm töhfələr verir. Azərbaycan qazının Türkiyə və Avropa bazarlarına nəqli respublikamızın enerji tranzit imkanlarının genişləndirilməsinə xidmət edir və təşkilatın enerji əməkdaşlığını gücləndirir.

**İƏT-in əsas prioritetlərindən biri üzv ölkələr arasında nəqliyyat bağlantılarının inkişafıdır.** Bu kontekstdə Azərbaycan Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) üzərində yerləşməklə mühüm tranzit ölkəyə çevrilib. Bakı–Tbilisi–Qars dəmir yolu və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə respublikamızın üzv dövlətlər arasında ticarət dövriyyəsinin genişlənməsində rolu durmadan artır. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Zəngəzur dəhlizi layihəsinin isə perspektivdə İƏT məkanında yeni iqtisadi əlaqələrə yol açacağı, Naxçıvanın birbaşa quru bağlantısının bərpası ilə regionun nəqliyyat xəritəsini dəyişəcəyi gözlənilir.

**Kənd təsərrüfatı sahəsində** İƏT ölkələri arasında təcrübə mübadiləsi, texnologiyaların tətbiqi və ərzaq təhlükəsizliyi sahəsində birgə proqramların həyata keçirilməsi ölkəmiz üçün də strateji əhəmiyyət daşıyır. Azərbaycanın aqroparkların yaradılması ilə bağlı modeli və kənd təsərrüfatı məhsullarının ixracı sahəsində qazandığı təcrübə digər üzv ölkələrlə bölüşülür və bu istiqamətdə yüksək göstəricilər əldə olunur.

**Ekoloji problemlərin həlli və iqlim dəyişikliyi ilə mübarizəyə də** İƏT xüsusi diqqət yetirir. Azərbaycanın "yaşıl" enerji keçidi, "yaşıl zona" elan edilən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr bu sahədə nümunəvi təşəbbüslər sayılır. Bu baxımdan, Azərbaycanın "yaşıl enerji mərkəzi" kimi təşəbbüsləri digər üzv dövlətlər üçün də model ola bilər.

**Turizm sahəsində** İƏT ölkələri zəngin tarixi və mədəni irsə malikdir. Azərbaycan bu sahədə təşəbbüslərlə çıxış edərək üzv dövlətlər arasında birgə turizm marşrutlarının yaradılması, viza prosedurlarının sadələşdirilməsi və turizm sərgilərinin təşkili istiqamətində səy göstərir. Bakı və Şəki şəhərlərinin UNESCO irs siyahısında olması və ölkədə beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycanın turizm potensialının artmasına xidmət edir.

Azərbaycan təşkilat daxilində yalnız iştirakçı deyil, həm də təşəbbüskar ölkə kimi fəaliyyət göstərir. Dövlətimizin başçısı İlham Əliyev dəfələrlə İƏT-in gücləndirilməsinin vacibliyini qeyd edib və respublikamızın bu platformada daha sıx əməkdaşlıqda maraqlı olduğunu bəyan edib. 2012-ci ildə İƏT-in Bakı Sammiti, eləcə də təşkilat çərçivəsində keçirilən nazirlər səviyyəsində görüşlər Azərbaycanın bu istiqamətdə səylərinin göstəricisidir.

Beləliklə, Azərbaycanın İƏT çərçivəsində qurduğu münasibətlər regional əməkdaşlıq modelinin uğur nümunəsinə çevrilib. İqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə ardıcıl və konstruktiv fəaliyyət göstərən Azərbaycan bu platformada əlaqələrin dərinləşməsi ilə həm regionun, həm də ölkənin inkişafına mühüm töhfələr verir. Bu əməkdaşlıq formatı isə respublikamızın beynəlxalq iqtisadi sistemdə daha da möhkəmlənməsini və Azərbaycanın çoxşaxəli diplomatik uğurlarını şərtləndirir.

## Ekspert rəyi



**Lətif ZEYNALLI**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin aparıcı məsləhətçisi**

İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan da daxil olmaqla bir sıra Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin qoşulduğu regional iqtisadi inteqrasiya platformasıdır. Təşkilatın başlıca məqsədi üzv ölkələr arasında iqtisadi, ticarət, nəqliyyat və enerji sahələrində qarşılıqlı əməkdaşlığın təşviq olunması və dərinləşdirilməsidir. Azərbaycan Respublikası 1992-ci ildən etibarən İƏT-in tamhüquqlu üzvü kimi bu təşəbbüslərdə fəal iştirak edir.

Azərbaycanın geostrateji mövqeyinin Cənubi Qafqaz regionunda yerləşməsi və Şərq – Qərb, eləcə də Şimal – Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində qərarlaşması ölkənin İƏT çərçivəsində nəqliyyat və logistika əməkdaşlığı üçün mühüm potensialını formalaşdırır. Bu xüsusda Bakı –Tbilisi – Qars dəmir yolu və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı kimi iri infrastruktur layihələri Azərbaycanın regional tranzit mərkəzi statusunu möhkəmləndirərək təşkilat daxilində yüklərin daşınması və ticarət əlaqələrinin sadələşdirilməsinə şərait yaradır. Təşkilata 10 ölkə – Azərbaycan, Əfqanıstan, İran İslam Respublikası, Özbəkistan, Pakistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə və Türkmənistan üzvdür.

2024-cü il üzrə Azərbaycanın xarici ticarət dövriyyəsinə nəzər yetirildikdə, ixracın həcminin 26,5 milyard ABŞ dolları, idxalın isə 21 milyard ABŞ dolları təşkil etdiyi müşahidə olunur. 2024-cü il üzrə Azərbaycanın İƏT-ə üzv ölkələrlə xarici ticarət əlaqələrinin statistik təhlili göstərir ki, bu ölkələrlə aparılan ixrac və idxal əməliyyatlarının həcmi və strukturu əhəmiyyətli dərəcədə fərqlənir.

Fikrimin təsdiqi olaraq diqqəti konkret göstəricilərə yönəltmək istərdim. Belə ki, İran İslam Respublikasının Azərbaycanın ümumi ixracında payı 0,05 faiz, ümumi idxalında isə 3,01 faiz təşkil edib. Özbəkistanla ticarət əməliyyatları çərçivəsində ixracın ümumi ixracdakı payı 0,15 faiz, idxalın payı isə 1,01 faiz olub. Pakistanla aparılan ticarət əməliyyatları isə son dərəcə məhdud xarakter daşıyır – ölkənin ümumi ixracında payı 0,00 faiz, idxalında isə 0,1 faiz təşkil edib. Qazaxıstanla xarici ticarət dövriyyəsində ixrac 0,5 faiz, idxal isə 1,6 faiz səviyyəsində qeydə alınıb. Qırğızıstan üzrə bu göstəricilər müvafiq olaraq 0,11 faiz və 0,05 faiz, Tacikistan üzrə isə 0,02 faiz və 0,01 faiz təşkil edib. Ən yüksək ticarət dövriyyəsi Türkiyə Respublikası ilə qeydə alınıb. Belə ki, 2024-cü ildə Azərbaycanın ümumi ixracının 14,38 faizi, idxalının isə 10,97 faizi məhz Türkiyənin payına düşüb.Türkmənistanla ticarət əlaqələrində ixrac 0,3 faiz, idxal isə 1,44 faiz səviyyəsində olub. Əfqanıstanla isə 2024-cü il ərzində heç bir ticarət əməliyyatı həyata keçirilməyib. Ümumilikdə, Azərbaycanın xarici ticarət dövriyyəsində İƏT-ə üzv ölkələr arasında Türkiyə Respublikası ikinci mövqedə qərarlaşır. Bu göstərici iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin iqtisadi sahədə də intensiv şəkildə inkişaf etdiyini təsdiqləyir.

Prezident İlham Əliyevin "İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanunu imzalaması Azərbaycanın regional və beynəlxalq təşkilatlarla strateji əməkdaşlığa verdiyi əhəmiyyətin bariz nümunəsidir. Bu addım Azərbaycan ilə İƏT arasında mövcud əməkdaşlığın hüquqi – institusional çərçivəsinin daha da möhkəmləndirilməsinə xidmət edir. Sənəd çərçivəsində nəzərdə tutulan birgə layihələr və təşəbbüslər elmi – tədqiqat və iqtisadi inkişaf sahələrində qarşılıqlı fəaliyyətin keyfiyyətini artırmağa imkan verəcək.

# Transxəzər enerji dəhlizi "yaşıl" rəqabəti gücləndirəcək



**"Astana" Beynəlxalq Maliyyə Mərkəzi ilə ADA Universitetinin nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun hazırladığı analitik hesabatda Qazaxıstan və Özbəkistanı Azərbaycanla birləşdirəcək "yaşıl enerji kabeli"nin İpək Yolu regionunun enerji arxitekturasının dayanıqlığını və rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıracağı bildirilib.**

Xatırladaq ki, bu sualtı yüksək gərginlikli kabel Qazaxıstan və Azərbaycanın enerji sistemlərini birləşdirmək üçün nəzərdə tutulub və daha geniş təşəbbüsün – Cənubi Qafqazı Avropa ilə əlaqələndirən Qara dəniz üzərindən "yaşıl enerji sualtı kabel" layihəsinin bir hissəsi olacağı planlaşdırılıb. Sənədə əsasən, sözügedən infrastrukturun istismara verilməsi Mərkəzi Asiyada istehsal olunan təmiz elektrik enerjisinin (ilk növbədə, günəş və külək) Avropa İttifaqına (Aİ) ixracına şərait yaradacaq, regionda enerji mənbələrinin şaxələndirilməsinə və Aİ-nin dekarbonizasiya hədəflərini gerçəkləşməsinə töhfə verəcək. Hesabatda, eyni zamanda, qeyd edilir ki, Transxəzər enerji kabelinin çəkilməsi sabit xarici satış kanalını reallaşdıracaq və bərpa olunan enerji mənbələri sahəsində irimiqyaslı layihələrin investisiya cəlbediciliyini artıracaq.

Müəlliflərin fikrincə, layihənin Aİ-nin enerji təhlükəsizliyi və iqlim gündəliyi sahəsindəki məqsədlərinə uyğunluğu nəzərə alınaraq, "Global Gateway" təşəbbüsü mühüm strateji maliyyələşdirmə mexanizmi ola bilər.

Sənəddə qeyd olunur ki, makroiqtisadi kontekstdə layihə Qazaxıstan və Azərbaycan arasında əməkdaşlıqda karbohidrogenlərdən elektrik enerjisinə keçidi reallaşdırır ki, bu da hər iki ölkənin aşağı karbonlu enerji ixracatçıları mövqeyindən çıxış etməsinə imkan verir, eyni zamanda, regional elektrik şəbəkələrinin modernləşdirilməsini, eləcə də iqtisadi şaxələndirməni stimullaşdırır. Bu enerji dəhlizi reallaşdırılacağı təqdirdə İpək Yolu regionunun enerji arxitekturasının dayanıqlığı və rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artacağı da proqnozlaşdırılır.

Hesabat müəlliflərinin fikrincə, Transxəzər və Qara dəniz "yaşıl enerji dəhlizləri"nin yaradılması üçün güzəştli maliyyələşdirmə, dövlət zəmanətləri və qarışıq maliyyələşdirmə strukturlarının kombinasiyası zəruridir. Avropa İnvestisiya Bankı, Avrasiya Yenidənqurma və İnkişaf Bankı, habelə ixtisaslaşmış iqlim fondları maliyyələşdirmənin reallaşmasında mühüm rol oynaya, dövlət – özəl sektor tərəfdaşlıqları, eləcə də dövlət enerji şirkətləri tərəfindən "yaşıl istiqrazlar"ın buraxılması isə əlavə kapital səfərbər etməyə imkan verə bilər.

# Çin şirkətlərinin təmiz enerji layihələri

**Energetika naziri Pərviz Şahbazov Çinin Ninqbo şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) energetika nazirlərinin iclasının açılış mərasimində və "Sənaye innovasiyası dayanıqlı enerji inkişafının hərəkətverici qüvvəsidir" adlı forumda çıxışı zamanı bildirib ki, Azərbaycan Çinlə texnologiya transferindən birgə layihələrə, elmi-tədqiqat əməkdaşlığından insan kapitalının inkişafına qədər əlaqələri genişləndirməkdə maraqlıdır.**



P.Şahbazov dialoq tərəfdaşı olan Azərbaycanın ŞƏT-lə əməkdaşlığın dərinləşdirilməsinə xüsusi önəm verdiyini vurğulayaraq bildirilib ki, Prezident İlham Əliyevin son illərdə təşkilatın Zirvə toplantılarında fəal iştirakı, habelə bu platforma çərçivəsində Çinlə strateji tərəfdaşlıq Bəyannaməsinin imzalanması tərəflər arasında əməkdaşlığın əhəmiyyətini nümayiş etdirir. Bu ilin aprelində Pekində imzalanan hərtərəfli strateji tərəfdaşlığın qurulmasına dair Bəyanat isə Azərbaycan – Çin münasibətlərində yeni mərhələ olmaqla yanaşı, təşkilatla da əməkdaşlığın güclənməsinə təkan verir.

Bu platformada ölkələrin fosil ehtiyatları, bərpa olunan enerji potensialı, infrastruktur və texnoloji imkanlar kimi müxtəlif üstünlüklərinin bir-birini tamamlayaraq çoxtərəfli enerji əməkdaşlığı, eləcə də ədalətli enerji keçidi üçün əlverişli zəmin yaratdığı, xüsusilə Çinin qabaqcıl texnologiya, habelə innovasiyaların tətbiqi ilə bu prosesə mühüm töhfə verdiyi vurğulanıb.

Azərbaycanın ŞƏT ölkələri ilə enerji tərəfdaşlığında Çin, Qazaxıstan və Özbəkistanla birgə həyata keçirilən "yaşıl" enerji layihələrindən bəhs edilib. Bildirilib ki, Azərbaycan Çinlə texnologiya transferindən birgə layihələrə, elmi-tədqiqat əməkdaşlığından insan kapitalının inkişafına qədər əməkdaşlığı genişləndirməkdə maraqlıdır.

Vurğulanıb ki, Prezident İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasındakı səmimi dostluq münasibətləri və Azərbaycan – Çin əlaqələrinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, "yaşıl" enerji gündəliyinin sürətli inkişafına güclü impuls verir. Çin şirkətlərinin hazırda Azərbaycanın "yaşıl" enerji strategiyasının reallaşdırılmasında həm podratçı, həm də investor qismində mühüm rol oynadıqları, bu şirkətlərlə mərhələli şəkildə, təxminən, 2,3 QVt gücündə külək – günəş elektrik stansiyalarının inşası, həmçinin Xəzər dənizində, təxminən, 2 QVt gücündə külək enerjisi layihələrinin inkişafının planlaşdırıldığı qeyd olunub.

# "Xocavənd" tankeri də Xəzərə qayıtdı




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin "Xocavənd" tankeri əsaslı təmir işlərindən sonra yenidən istismara verilib.**

Təmir çərçivəsində tankerin sualtı və suüstü hissələri, göyərtələri təmizlənərək rənglənib. Sükan-pər qurğusu, baş və köməkçi mühərriklər, nasoslar, qazanlar tam şəkildə baxışdan keçirilib və lazımi hissələr təmir olunub. Bununla yanaşı, tanker üzrə gövdə-qaynaq, boruquraşdırma, elektrikquraşdırma avtomatika və izolyasiya işləri yerinə yetirilib, yükqaldırıcı qurğular, eləcə də xilasedici və yanğınsöndürmə avadanlıqları sazlanıb.

"Xocavənd" gəmisinin rabitə və elektroradionaviqasiya sistemləri də təmir edilib, nasaz vəziyyətdə olan ehtiyat hissələr yenisi ilə əvəzlənib. Gəmidə müasir "NAVTEX" avadanlığı, elektron xəritə, radiolokasiya stansiyası, maqnit kompas, girokompas və sürət ölçən Laq avadanlığı quraşdırılıb, heyətin yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxana yenilənib. Təmirdən sonra dəniz sınağından uğurla keçən tankerin ilk səfəri Türkmənistanın "Türkmənbaşı" limanına olub.

Xatırladaq ki, uzunluğu 141,9, eni isə 16,84 metr olan "Xocavənd" gəmisinin yükgötürmə qabiliyyəti 8 min tondur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan–Özbəkistan: Strateji müttəfiqlik zirvəsindən görünən üfüqlər

## İlin əvvəlindən qardaş ölkə ilə ticarətin həcmi 3 dəfə artıb

**Azərbaycan və özbək xalqları arasında dostluq və qardaşlıq münasibətləri çoxəsrlik tarixə malikdir. Keçmiş sovet dövlətinin tərkibində müttəfiq respublikalar olan Azərbaycan və Özbəkistan tarixi müstəqilliklərinə qovuşduqdan sonra ikitərəfli əlaqələr dostluq, qardaşlıq və strateji müttəfiqlik müstəvisində inkişaf etməyə başlayıb. Xatırladaq ki, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında diplomatik münasibətlərin əsası 30 il əvvəl qoyulub.**



Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycan Prezidenti Heydər Əliyev və Özbəkistan lideri İslam Kərimovun qarşılıqlı səfərləri münasibətlərin inkişafına xüsusi təkan verib. Hazırda Azərbaycan keçmiş sovet müttəfiqi və indiki strateji tərəfdaşı olan dost və qardaş Özbəkistanla qarşılıqlı fəaliyyətdə, eləcə də bir sıra beynəlxalq platformalarda uğurla əməkdaşlıq edir. Məhz bunun nəticəsidir ki, son illər ölkələrimiz arasında münasibətlər özünün ən yüksək inkişaf səviyyəsinə gəlib çatıb.

Son illər isə Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qarşılıqlı səfərləri ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə yeni bir dinamizm gətirib. Həmin səfərlər çərçivəsində dövlət başçılarının dostluq və qarşılıqlı etimad şəraitində keçən görüşləri ölkələrimiz arasında ikitərəfli əlaqələrin, o cümlədən iqtisadi münasibətlərin inkişafı, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat və energetika sahələrində əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanlar yaradıb.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ikitərəfli əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın fəaliyyəti ölkələrimiz arasında ticari-iqtisadi əməkdaşlığın inkişafına böyük töhfə verir. Yeri gəlmişkən, cari ilin yanvar – may aylarında Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin həcmi 214,8 milyon ABŞ dolları olub. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2 ölkə arasındakı ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 145,8 milyon dollar və ya 3,1 dəfə yüksəlib. Belə ki, 2024-cü ilin ilk 5 ayında Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin həcmi 69 milyon dollar olub.

Bəhs olunan dövrdə Azərbaycandan bu ölkəyə 19,7 milyon dollar dəyərində ixrac, 195,1 milyon dollar dəyərində idxal əməliyyatları həyata keçirilib. Özbəkistana ixrac illik müqayisədə 9 milyon dollar və ya 84,1faiz, bu ölkədən idxal isə 136,8 milyon dollar, yaxud da 3,3 dəfə çoxalıb.

2024-cü ilin yanvar – may ayları ərzində Azərbaycandan Özbəkistana 10,7 milyon dollar dəyərində məhsul ixrac edilib, 58,3 milyon dollar dəyərində isə idxal olunub. Həmçinin cari ilin ilk 5 ayında Özbəkistan Azərbaycanın qeyri – neft məhsullarının ixraca yönləndirildiyi əsas ölkələri siyahısına daxil olub. Yəni bu ölkəyə 5 ayda 19,3 milyon dollar dəyərində qeyri – neft məhsulları ixrac edilib.

Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyən Özbəkistan dəfələrlə beynəlxalq təşkilatlar, ikitərəfli və çoxtərəfli görüşlər çərçivəsində dövlətimizin ərazi bütövlüyü ilə bağlı mövqeyini qətiyyətlə müdafiə edib. Sevindirici haldır ki, bu gün qardaş Özbəkistan işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən quruculuq işlərində fəal iştirak edir. Bu baxımdan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin bilavasitə təşəbbüsü ilə Füzuli rayonunda bu ölkənin vəsaiti hesabına inşa olunan məktəb qardaş özbək xalqının hədiyyəsi kimi dəyərləndirilə bilər.

Son vaxtlar Azərbaycanla Özbəkistan arasında dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını vurğulayan Prezident İlham Əliyev ötən müddətdə bir çox istiqamətlər üzrə ikitərəfli əməkdaşlıq üçün ciddi baza yaradıldığını bildirib. Dövlətimizin başçısı hökumətlərarası komissiyanın iclasının, xüsusən də iki ölkə rəhbəri arasında təmasların, Azərbaycanda, Özbəkistanda və digər yerlərdə keçirilən mütəmadi görüşlərin, həmçinin dövlət strukturları nümayəndələrinin sıx qarşılıqlı fəaliyyətinin əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Prezident İlham Əliyev beynəlxalq platformalarda, eləcə də energetika, nəqliyyat sahələri üzrə və bütövlükdə iqtisadi qarşılıqlı fəaliyyətdə indiyədək görülmüş işləri yüksək dəyərləndirib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə son illər ərzində Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə ölkələrimiz arasında münasibətlərin həm qarşılıqlı fəaliyyətdə, həm də beynəlxalq müstəvidə yüksək səviyyəyə çatdırıldığını bildirib. Özbəkistanın dövlət başçısı Azərbaycanla strateji tərəfdaşlığın dərinləşdirilmiş vektorunun öz real bəhrələrini verdiyini vurğulayaraq bunun xalqlarımız tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan və Özbəkistan siyasi, iqtisadi, ticarət, sənaye, avtomobil istehsalı, metallurgiya, əczaçılıq, daşımalar və digər sahələrdə uğurla əməkdaşlıq edirlər.

### Ekspert rəyi

**Vüsalə CƏFƏROVA**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmalar Mərkəzinin rəhbəri**



– Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin diplomatik münasibətlərin 30-cu ildönümündə Azərbaycana səfəri iki ölkə arasında strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Bu səfər təkcə siyasi və diplomatik əhəmiyyət daşımır, eyni zamanda, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və institusional çərçivədə möhkəmləndirilməsi baxımından ciddi irəliləyişlərə zəmin yaradır.

Azərbaycan və Özbəkistan arasında uzunmüddətli Azad Ticarət Sazişi və MDB çərçivəsində çoxtərəfli azad ticarət rejimindəki fəal iştirak bu iki ölkənin güclü və ardıcıl artan iqtisadi münasibətlərinin əsasını təşkil edir. 2024-cü ildə Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 252 milyon ABŞ dollarını ötərək əvvəlki illə müqayisədə 41 faiz artıb. Azərbaycan Özbəkistana 211,7 milyon dollar dəyərində məhsul ixrac edib (60,8 faiz artım), Özbəkistandan isə 40,3 milyon dollar dəyərində idxal həyata keçirib.

Son 5 ildə Özbəkistanın Azərbaycana ixracı əhəmiyyətli dərəcədə artaraq 2018-ci ildəki 32 milyon dollardan 2023-cü ildə 147 milyon dollara çatıb ki, bu da illik orta hesabla 35,6 faiz artım deməkdir. Eyni dövrdə Azərbaycanın Özbəkistana ixracı 9,7 milyon dollardan 100 milyon dollara yüksələrək illik orta hesabla 59,5 faiz artım nümayiş etdirib.

İqtisadi əməkdaşlığın dərinləşməsi təkcə ticarət artımı ilə məhdudlaşmır – bu prosesə Azərbaycan – Özbəkistan İnvestisiya Fondu kimi birgə investisiya mexanizmləri, avtomobil istehsalı, enerji və aqrosənaye klasterləri üzrə birgə layihələr də əlavə olunur. Bu istiqamətlər üzrə inkişaf iki ölkə arasında çoxşaxəli iqtisadi inteqrasiyanın möhkəmləndiyini göstərir.

2024-cü ildə 13 min 965 nəfər Azərbaycan vətəndaşı Özbəkistanda olub, 46 min 391 nəfər Özbəkistan vətəndaşı isə Azərbaycana gəlib ki, bu da xalqlararası əlaqələrin və ikitərəfli münasibətlərin güclənməsini əks etdirir. 2025-ci ilin birinci rübündə 3 min 95 azərbaycanlı Özbəkistana, 9 min 222 özbək isə Azərbaycana səfər edib. Bu göstəricilər qarşılıqlı mobilliyin və humanitar əlaqələrin müsbət trayektoriyasının qorunduğunu bildirir.

Ticarət dövriyyəsi ilə bağlı qarşıya qoyulan 1 milyard dollarlıq hədəf əlaqələrin davamlı inkişaf etdiyini göstərir. Bu məqsədlə imzalanan 2024 – 2025-ci illəri əhatə edən Praktiki Fəaliyyət Planı qarşılıqlı iqtisadi fəaliyyətin konkret sahələr üzrə genişləndirilməsinə yönəlib. Eyni zamanda, Ali Dövlətlərarası Şuranın təsisi və strateji tərəfdaşlıq üzrə yol xəritələri münasibətlərin siyasi-hüquqi çərçivəsini gücləndirərək onları davamlı və proqnozlaşdırılan edir.

Özbəkistanın Füzuli rayonunda məktəb tikintisinə verdiyi dəstək bu əməkdaşlığın yalnız iqtisadi deyil, həm də humanitar və simvolik məzmun daşıdığını göstərir, Qarabağın yenidən qurulmasında regional həmrəyliyi əks etdirir. Azərbaycan və Özbəkistanın TDT, MDB və BRICS+ kimi platformalarda artan koordinasiyası isə onların regional və qlobal miqyasda ortaq iqtisadi və siyasi gündəm formalaşdırmaq niyyətini təsdiqləyir.

Özbəkistan iqtisadiyyatı 2024-cü ildə güclü və çoxşaxəli artım tempini qoruyaraq ÜDM həcmini 115 milyard dollara çatdırıb və bu, əvvəlki illə müqayisədə 6,8 faiz artım deməkdir. Sərmayə fəaliyyətində də nəzərəçarpan canlanma müşahidə olunub: əsas kapitala yönələn investisiyalar 27,6 faiz artaraq 39 milyard dollara çatıb ki, bu da ölkədə infrastruktur və sənaye sahələrində güclü inkişaf impulsunun davam etdiyini göstərir.

# 5 ayda qeyri-neft ixracı – 1,4 milyard dollar




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın iyun sayına əsasən, 2025-ci ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,6 faiz artaraq 1,4 milyard ABŞ dollarına yüksəlib. Bu dövrdə yeyinti məhsullarının ixracı 14,4 faiz çoxalaraq 417,7 milyon ABŞ dollarına bərabər olub.**

2025-ci ilin yanvar-may aylarında ixrac olunan kimya sənayesi məhsulları ötən ilin müvafiq dövrünə nəzərən 46,8 milyon dollar və ya 45,9 faiz, şəkər 3 milyon dollar və ya 30,1 faiz, pambıq iplik 1,3 milyon dollar və ya 14,5 faiz, meyvə-tərəvəz 48 milyon dolları və ya 19,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 3,8 milyon dollar və ya 11,3 faiz artıb.

Hesabat dövründə aqrar məhsullar üzrə ixrac 17,2 faiz artaraq 331,2 milyon dollara, aqrar-sənaye məhsulları üzrə ixrac isə 5,9 faiz artaraq 115,6 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar – sənaye məhsullarının birgə ixracı 14 faiz artaraq 446,7 milyon dollar təşkil edib. Qeyd olunan dövrdə ixrac edilən qeyri – neft sektoruna aid malların siyahısında qızıl (121,3 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (113,8 milyon dollar) ikinci, pambıq (88,8 milyon dollar) üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin may ayında isə ixrac edilən qeyri – neft sektoruna aid malların siyahısında pomidor (tomat) (39,1 milyon dollar) birinci olub. Bu siyahıda pambıq (27,2 milyon dollar) ikinci, qızıl (25,9 milyon dollar) üçüncü yerdə qərarlaşıb. Cari ilin ilk beş ayında Rusiya Federasiyasına 442,3 milyon dollar, Türkiyəyə 251,4 milyon dollar, İsveçrəyə 127,9 milyon dollar, Gürcüstana 125,5 milyon dollar, Ukraynaya isə 76,5 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Bu ilin may ayında Rusiya Federasiyasına 121,5 milyon dollar, Türkiyəyə 63,7 milyon dollar, İsveçrəyə 27,4 milyon dollar, Gürcüstana 19,7 milyon dollar, Ukraynaya 13,5 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

5 ay üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti,"P-AQRO" MMC, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Khan-El" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Sahdag SY" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Green Tech" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "İstisu" mineral su zavodu MMC, "Azəripək".

2025-ci ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 40 ölkəsinə 7 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65 faizini təşkil edib. 2025-ci ilin may ayında isə "Azərkosmos" dünyanın 33 ölkəsinə 1,4 milyon dollar dəyərində xidmət ixrac edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,9 milyon dollar ilə Birləşmiş Krallıq, 1,5 milyon dolları ilə Lüksemburq, 345,6 min dollar ilə Nigeriya, 300,6 min dollar ilə Türkiyə, 298,2 min dollar ilə Misir qərarlaşıb.

# Yunanıstanda Azərbaycanın "yaşıl" enerji təqdimatı



**Yunanıstanın Afina şəhərində "The Economist Impact" platforması tərəfindən 29-cu illik hökumət dəyirmi masası keçirilib. Toplantıda ölkəmizi energetika nazirinin müavini Orxan Zeynalov təmsil edib.**

Energetika Nazirliyinin məlumatına görə, nazir müavini "Enerji sahəsində regional və regionlararası əməkdaşlıq, enerji təhlükəsizliyi və yaşıl keçid üçün çağırışlar" mövzusunda təşkil olunan panel sessiyada çıxışı zamanı Cənub Qaz Dəhlizinin əhəmiyyətindən, Avropanın, eləcə də Yunanıstanın enerji təhlükəsizliyindəki mühüm rolundan bəhs edib, bu dəhliz vasitəsilə gələcəkdə Avropaya qaz təchizatının artırılması imkanlarından danışıb.

Azərbaycanda enerji sahəsində, xüsusilə enerji keçidi, bərpa olunan enerji üzrə həyata keçirilən layihələr, "yaşıl" enerji dəhlizləri təşəbbüsləri barədə məlumat verən O.Zeynalov "Xəzər – Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi"nin əhəmiyyətini qeyd edərək bu kimi dəhlizlərin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyini diqqətə çatdırıb. Regional enerji əlaqələrinin gücləndirilməsi, "yaşıl" enerji nəqli marşrutlarının şaxələndirilməsi istiqamətində çoxtərəfli əməkdaşlıq imkanlarının əhəmiyyətindən bəhs edən nazir müavini enerji böhranının qarşısının alınması və enerji təhlükəsizliyinin təmin edilməsi üçün dövlət və özəl sektor əməkdaşlığının vacibliyini vurğulayıb.

Səfər çərçivəsində nazir müavini Yunanıstanın energetika nazirinin müavini Nikos Tsafos, Yunanıstanın xarici işlər nazirinin müavini Harry Theoharis və Moldovanın energetika naziri Dorin Junghietu ilə görüşüb. Görüşlərdə enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

# Yarım ilin büdcə gəlirləri 20 milyard manata çatıb

**2025-ci ilin yanvar-iyun ayları üzrə dövlət büdcəsinin gəlirləri 19 milyard 803,9 milyon manat təşkil edib ki, bu da 6 aylıq proqnozu 704,8 milyon manat və ya 3,7 faiz üstələyib. Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, cari ilin birinci yarısı üzrə dövlət büdcəsinin xərcləri 17 milyard 275,9 milyon manat proqnoza qarşı 17 milyard 95,6 milyon manat və ya 99 faiz səviyyəsində yerinə yetirilib. Beləliklə, 6 ayda büdcədə 2 milyard 708,3 milyon manat profisit yaranıb. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz azdır.



Məlumata görə, gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 8 milyard 703,7 milyon manat təşkil edərək proqnozdan 466,4 milyon manat və ya 5,7 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 3 milyard 91,1 milyon manat təşkil edərək proqnozdan 4,1 milyon manat və ya 0,1 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 21,9 milyon manat təşkil edərək proqnozdan 5,1 milyon manat və ya 30,3 faiz, Dövlət Neft Fondundan transfert isə 7 milyard 240,5 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz və sair daxilolmalar 434,6 milyon manat təşkil edərək proqnozdan 314,1 milyon manat və ya 3,6 dəfə çox icra edilib.

Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 312,1 milyon manat təşkil edərək proqnozdan 84,9 milyon manat və ya 21,4 faiz az icra olunub.

Xatırladaq ki, 2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407,6 milyon manat proqnozlaşdırılır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Qərbi Azərbaycan

# Qərbi Azərbaycan irsi bu torpaqlara vurulmuş tarixi möhürdür

*“Qərbi Azərbaycan irsi” kitabının I cildinin işıq üzü görməsi önəmli ideyasına, hazırlanmasına və nəşrinə görə dünya miqyaslı bir uğurdur. Fundamental nəşr sayılan belə bir mənbənin ərsəyə gətirilməsi Azərbaycanda bu yöndə atılmış ilk addım kimi elmi-mədəni hadisə sayılır. Bütün bunlar barədə bir neçə aspektdə qeydlərimizi “Xalq qəzeti”nin oxucuları ilə bölüşürük.*



*Kərim ŞÜKÜROV,*
*AMEA Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor*

**Qərbi azərbaycanlıların Vətən hüququna qəsd. İmperialist** dairələrin himayəsi ilə gerçəkləşdirilmiş bu cinayət tarixi-etnik Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və azərbaycanlıların kütləvi soyqırımı və deportasiyası aksiyaları ilə müşayiət olunmuşdur. Qərbi Azərbaycan, bütövlükdə, Azərbaycan dövlətlərinin tərkibində uzun və zəngin tarixi inkişaf yolu keçmişdir.

İrəvan bölgəsinin siyasi və iqtisadi cəhətdən ən mühüm göstəricilərindən biri xanlıqlar zamanı burada müstəqil İrəvan xanlığının yaranması olmuşdur. Rusiya imperiyasının işğalı ilə vəziyyət dəyişmiş, Qərbi azərbaycanlıların Vətən hüququnun pozulmasının əsası qoyulmuşdur. 1828-ci il Türkmənçay müqaviləsindən sonra, ermənilərin kütləvi şəkildə İrəvan xanlığı ərazisinə köçürülməsinə başlanmış, Naxçıvan xanlığı da daxil olmaqla Azərbaycan torpaqları əsasında “Erməni vilayəti” yaradılmışdır.

Digər şərtlər ilə birlikdə, məhz azərbaycanlıların güclü müqaviməti nəticəsində çar hökuməti “Erməni vilayəti”ni 1840-cı ildə ləğv etməyə məcbur olmuş, Ümumqafqaz inzibati-ərazi bölgüsü tətbiq edilmişdir. 1849-cu ildə Qərbi Azərbaycan torpaqlarının əsas hissəsini təşkil edən İrəvan quberniyası yaradıldıqdan sonra da yerli azərbaycanlı əhalinin sıxışdırılması siyasəti davam etdirilmişdir. Araz çayının sağ sahili boyunca Azərbaycan torpaqlarında, xüsusilə İrəvan quberniyasında azərbaycanlıların mövqeyini sarsıtmaq məqsədilə təşkil edilən 1905–1906-cı illər “erməni-müsəlman davası” dövründə xalqımıza qarşı qətliam törədilmiş, onların doğma torpaqlarından qovulması başlanmışdır.

1918-ci ildə Qərbi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradıldıqda Osmanlı dövləti ilə bu qurum arasında iyun ayının 4-də imzalanmış Batum müqaviləsi ilə daşnak hökuməti azərbaycanlıların hüquqları və maddi-mədəni irsinin qorunması barədə üzərinə vəzifə götürməsinə baxmayaraq, ona əməl etməmişdir. Nəticədə, azərbaycanlılar soyqırımına məruz qalmış və onların deportasiyası davam etdirilmişdir. Sovet dövründə də davam etdirilən bu siyasət 1990-cı illərin əvvəllərində azərbaycanlıların tErmənistandan son nəfərinədək deportasiya edilməsi ilə başa çatmışdır.

Bununla, Ermənistan monoetnik dövlətə çevrilmişdir. Qərbi Azərbaycanın bütün torpaqları və onun üzərində xalqımıza məxsus qədim və zəngin maddi-mədəni irs tamamilə ermənilərin əlinə keçmişdir.

**Qərbi Azərbaycan irsində qəbiristanlıqların yeri.** Qərbi Azərbaycan, onun maddi-mədəni irsi vahid, Böyük Azərbaycanın və onun maddi-mədəni xəzinəsinin tərkib hissəsidir. Azərbaycan xalqı və bu torpaqların və burada yaranan irsin varisidir. Bununla birgə, bütün tarixi inkişaf boyunca, o cümlədən Qərbi Azərbaycan torpaqlarının 1918-ci ilin mayında Ermənistana verilməsindən sonra burada formalaşan maddi-mədəni irsin özünəməxsus xüsusiyyətləri də vardır. Bu da Qərbi Azərbaycanın maddi-mədəni irsini təbii-tarixi və əvəzolunmaz edir.

Hər bir ölkənin və onun xalqının maddi-mədəni irsinin ən önəmli və ən həssas hissəsini burada tarix boyu yaranan qəbiristanlıqlar təşkil edir. Qərbi Azərbaycanda qəbiristanlıqların onun əhalisinin həyat və ölüm haqqında baxışlarının formalaşmasında, yeni nəsillərin öz əcdadlarına hörmət hissinin təcəssüm edilməsində böyük əhəmiyyəti olmuşdur.

**Kitabın məqsəd və vəzifələri.** “Qərbi Azərbaycan irsi” nəşrinin özəlliyi ondadır ki, qəbirstanlıqlara tamamilə yeni baxış ortaya qoyur. Ermənistanın öz tarixi-etnik torpaqlarında yaşayan azərbaycanlıların izini silmək üçün məhz qəbiristanlıqların məqsədyönlü şəkildə seçdiyi əsaslandırılır.



Ermənistan elə hesab edirdi ki, maddi-mədəni irsin tarixi abidələr, şəhərlər və kəndlər kimi yaşayış məskənləri və s. fərqli olaraq, qəbirstanlıqlara qarşı vandalizm siyasəti üzə çıxmayacaq. Bu kitab ilk dəfə ən müasir nəzəri-metodoloji yanaşma tətbiq edərək, qəbiristanlıqlara qarşı həyata keçirilən kütləvi dağıntıların miqyasını ortaya çıxara bildi.




**Nəzəri-metodoloji məsələlər və mənbə bazası.** Kitabda təqdim olunan metodlardan biri məsafədən zondlama adlanır. Qeyd edilən metodu tətbiq etmək üçün mövcud peyk təsvirlərinin arxivləri əldə edilmiş, landşaftda baş vermiş istər təbii, istərsə də antropogen dəyişiklər müəyyən olunmuşdur.

Eyni zamanda, Normallaşdırılmış Fərqli Bitki Örtüyü İndeksi tətbiq edilmişdir. Bu indeks nəticəsində qəbiristanlıqların yerləşdiyi ərazilərdə bitki örtüyünün sağlamlığı və inkişafı qiymətləndirilmişdir. Ən mühüm nailiyyətlərdən biri də Rusiya imperiyası və sovet dövrünə aid nadir topoqrafik nəşrlərin tədqiqata cəlb edilməsi olmuşdur.

**Kitabın janrı.** Bu nəşrin monoqrafiya kimi deyil, hesabat və materiallar kimi tərtib edilməsi də onun orijinal xüsusiyyətlərindən biridir. Tam şəkildə bu belə adlanır: “Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair. Hesabat və materiallar”. Bunun nəticəsidir ki, kitabda əldə edilən nəticələr azərbaycanlıların Ermənistandakı qəbiristanlıqlarına yönəlmiş vandalizm siyasətinə qarşı real vəziyyəti müəyyən etməklə, təkzibedilməz hökm kimi çıxış edir.

**Kitabın strukturu.** Böyük formatına və iri həcminə, 900 səhifəyədək olmasına baxmayaraq, kitabın strukturu çox sadə və anlaşılıqlıdır. Bu da ondan istifadəni, təqdim edilən materialın mənimsənilməsini və yadda saxlanılmasını asanlaşdırır. Kitabda təqdim edilən materialların emosional təsiri də çox güclüdür.

“Ön söz”də Qərbi Azərbaycan irsinin tarixi əhəmiyyəti, bu irsdə qəbiristanlıqların rolu, Ermənistan tərəfindən azərbaycanlıların tarixi-etnik torpaqlarındakı qəbiristanlıqların dağıdılmasının beynəlxalq hüquq baxımından yaratdığı məsuliyyət kimi mühüm məsələlərdən bəhs edilir. “Qərbi Azərbaycan irsi” layihəsinin perspektivi üzərində dayanılır.

Birinci hissə Ermənistanda azərbaycanlılara aid qəbiristanlıqların dağıdılması və beynəlxalq məsuliyyətə dair hesabata həsr edilmişdir. 8 hissədən ibarət olan hesabatda məqsəd, tədqiqatın predmeti, metodoloji prinsipləri, mərhələləri və s. məsələlər nəzərdən keçirilmişdir.

Əsas hissədə azərbaycanlıların Ermənistandakı qəbiristanlıqlarının vəziyyətinin müəyyən tarixi dövrlər üzrə dəyişməsi dinamikası araşdırılmışdır. Bu zaman optimal bir struktur əsas götürülmüşdür. Əvvəlcə həmin rayonun xəritəsi verilmiş, sonra bu rayonun Ermənistan xəritəsi üzrə yerləşməsi, Ermənistan xəritəsinin isə dünya üzrə yerləməsi göstərilmişdir. Sonra, həmin rayona aid kənd və ya qəsəbə qəbiristanlıqları kompleks şəkildə səciyyələndirilmişdir.

Birinci, həmin rayona aid kənd və ya qəsəbə qəbiristanlıqlarına dair mətn verilmiş, bu zaman hər bir qəbiristanlığın yerləşdiyi məkan göstərilmişdir. Sonra həmin yaşayış məskəni haqqında ümumi məlumat, təhlil, coğrafi lokasiya və istinadlar qeyd edilmişdir.

İkinci, hər bir qəbiristanlığın işarələndiyi topoqrafik xəritələr təqdim olunmuşdur.

Üçüncü, qəbiristanlığın və nəhayət, dördüncü, ərazinin müasir vəziyyətinə dair şəkillər verilmişdir. Bununla da, hər bir qəbiristanlığın vəziyyəti haqqında maksimum təsəvvür yaradılmasına nail olunmuşdur.

**Əsas nəticələr.** Hesabat üzrə nəticələr kitabın mahiyyətini təşkil edir. Bu nəticələr Ermənistanda Azərbaycan qəbiristanlıqlarına dair vandalizm aktının miqyasının dəhşətli mənzərəsini faktlar ilə təqdim edir: Peyklər vasitəsilə monitorinq 157 qəbiristanlığın tamamilə məhv olunduğunu təsdiq etmişdir. 42 qəbiristanlıq isə ciddi dağıntılara məruz qalmışdır.

Tədqiq edilən qəbiristanlıqların 154-nün məhv edilmə tarixini müəyyənləşdirmək mümkün olmuşdur. Bu dağıntılar 1967-1989-cu illərdə həyata keçirilmişdir. Dağıdılan qəbiristanlıqların ərazilərindən kənd təsərrüfatı, müxtəlif tikililər və s. üçün istifadə olunmuşdur.

**Kitabın elmi əhəmiyyəti.** “Qərbi Azərbaycan irsi” nəşrinin elmi əhəmiyyəti barədə aşağıdakıları bildirmək olar:

– İlk dəfə müasir metodlar tətbiq edilməklə Qərbi Azərbaycan irsinin ən həssas tərkib hissəsi olan qəbiristanlıqlara dair Ermənistanda həyata keçirilən vandalizm siyasəti tədqiq edilmişdir;

– Ermənistanın 22 rayonu üzrə tədqiqata cəlb edilən iki yüzdən çox qəbiristanlığın hər birinin dağıdılması, ərazisinin əkin yerləri və digər məqsədlər üçün istifadə edilməsi müəyyən olunmuşdur;

– əldə edilən bütün nəticələr birmənalıdır və təkzib edilməsi mümkün deyil. Bu baxımdan müvafiq beynəlxalq təşkilatlar qarşısında hüquqi müstəvidə məsələ qaldırılması və onun həlli üçün əsaslı baza yaradılmışdır;

– tətbiq edilən nəzəri-metodoloji məsələlər və əldə edilən nəticələr ilə Qərbi Azərbaycan irsi sahəsində növbəti araşdırmalar üçün yeni perspektivlər açılmışdır və s.

Azərbaycan Prezidenti İlham Əliyevin kitaba epiqraf kimi seçilmiş aşağıdakı sözləri nəşrdə toplanmış materialların Qərbi Azərbaycana Qayıdış hərəkatının elmi-siyasi təminatını yaratmaqla xalqımızı bu ümummilli hədəfin gerçəkləşəcəyinə inandırır, dünyaya isə belə bir tarixi həqiqəti təqdim edir: “Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq”.

## Milli Aviasiya Akademiyası ilə Ədliyyə Nazirliyi arasında Memorandum imzalanıb



**Milli Aviasiya Akademiyası ilə Ədliyyə Nazirliyi arasında birgə əməkdaşlıq haqqında Memorandum imzalanıb. Memorandumu Akademiyanın rektoru, akademik Arif Paşayev və ədliyyə naziri Fərid Əhmədov imzalayıblar.**

Sazişdə MAA-nın hüquqşünaslıq ixtisası üzrə təhsil alanların Ədliyyə Nazirliyinin struktur bölmələrində təcrübə keçmələri, könüllülər qismində işlə təmin olunmaları və digər məsələlər qeyd edilib.

Görüşdə akademik Arif Paşayev və nazir Fərid Əhmədov tərəfindən MAA-nın “İqtisadiyyat və hüquq” fakültəsinin tələbələri - Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən XVI Layden-Sarin Məhkəmə Müsabiqəsində (“Leiden-Sarin International Air Law Moot Court Competition”) yarımfinala yüksəlmiş Amal Qorxmaz oğlu Əhmədova, İlahə Azər qızı Səmədovaya və Rəsul Rövşən oğlu Əliyevə, həmçinin Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurası və Vəkillər Kollegiyasının tərəfdaşlığı ilə "Femida Könüllüləri" Təşkilatı tərəfindən təşkil olunmuş "DİVAN" Milli Məhkəmə Simulyasiyasında I yerə layiq görülmüş Həmayil Qismət qızı Sadıqovaya, bundan əlavə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müasir vergi orqanlarının yaradılmasının 25 illiyinə həsr olunmuş "Vergilər" mövzusunda keçirilmiş Ümumrespublika olimpiadasında III yerə layiq görülmüş Həliməxatun Elnur qızı İsmayılovaya təşəkkürnamələr təqdim olunub.



## “Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Bölmələrin və maddələrin adları | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Torpaq, tikili və avadanlıqlar | 91 661,37 | 99 110,60 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **91 661,37** | **99 110,60** |
| Ehtiyatlar | 823 737,79 | 823 737,79 |
| Qısamüddətli debitor borcları | 2 263,47 | 1 252,31 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2 659,92 | 695,50 |
| Sair qısamüddətli aktivlər | 0,00 | 0,00 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **828 661,18** | **825 685,60** |
| **CƏMİ AKTİVLƏR** | **920 322,55** | **924 796,20** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 365 452,00 | 365 452,00 |
| Əvvəlki illər üzrə bölüşdürlməmiş mənfəət | 1 382,72 | 1 382,72 |
| Kapital ehtiyatları | 321 638,19 | 321 638,19 |
| **CƏMİ KAPİTAL** | **688 472,91** | **688 472,91** |
| Sair uzunmüddətli öhdəliklər | 0,00 | 0,00 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **0,00** | **0,00** |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 0,00 | 0,00 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 0,00 | 0,00 |
| Qısamüddətli kreditor borcları | 231 849,64 | 234 267,74 |
| Sair qısamüddətli öhdəliklər | 0,00 | 2 055,55 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **231 849,64** | **236 323,29** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **231 849,64** | **236 323,29** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **920 322,55** | **924 796,20** |

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 53 062,65 | 77 535,04 |
| Sair əməliyyat gəlirləri | 124 075,74 | 120 608,34 |
| İstifadə edilmiş material ehtiyatları | | 0,00 |
| İşçi heyəti üzrə xərclər | (114 674,65) | 97 666,70 |
| Amortizasiya xərcləri | ( 7 449,23) | 7 154,88 |
| Sair əməliyyat xərcləri | (53 559,80) | 91 036,77 |
| Əməliyyat mənfəəti (zərəri) | 1 454,74 | 2 285,03 |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | (1 454,74) | 2 285,03 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0,00 | 0,00 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | | |
|---|---|---|
| İlin əvvəlinə kapital | 688 472,91 | 688 472,91 |
| İllik artım/çatışmamazlıq | 0,00 | 0,00 |
| İlin sonuna kapital | 688 472,91 | 688 472,91 |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (birbaşa üsul)**

| **Bölmələr, Maddələr** | | |
|---|---|---|
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | 177 138,39 | 205 001,97 |
| Digər gəlirlərdən daxilolmalar | | |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | **177 138,39** | **205 001,97** |
| Digər ödənişlərə görə xaricolmalar | 175 173,97 | 205 558,89 |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | **175 173,97** | **205 558,89** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **2 659,92** | **695,50** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artımı/azalması** | **1 964,42** | **(556,92)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **695,50** | **1 252,42** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **2 659,92** | **695,50** |
| **İl ərzində artım/azalma** | **1 964,42** | **(556,92)** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**“Olefin Elmi- Tədqiqat və İstehsalat Mərkəzi ” ASC-nin rəhbərliyiinə maliyyə hesabatlarının auditinə dair hesabat**

Şərti müsbət rəy

Mən,” Olefin Elmi -Tədqiqat və İstehsalat Mərkəzi “ ASC-nin, (VÖEN 2000303761, (bundan sonra - “cəmiyyət”)) 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Məncə, hesabatımızın “Şərti müsbət rəy üçün əsaslar” bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2024-cü il dekabrın 31-nə aliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini kommersiya təşkilatları üçün Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Şərti müsbət rəy üçün əsaslar.**

Cəmiyyət maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatları Standartlarında müəyyənləşdirilmiş formalara müvafiq tərtib etməlidir. Təqdim edilmiş hesabatın həmin sənədlərə tam müvafiqliyi təmin olunmalıdır.

Mən, auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına , düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti.**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o , BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər ,dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**“AUDIT EXPERT TV” MMC-nin direktor auditoru:**
**Talıbov Vidadi Musa oğlu**

**İcazə : AT/291, verilib 22 yanvar 2024-cü il, 02 may 2025-ci il.**

Üzeyir Hacıbəyli – 140

# “Arşın mal alan”ın əbədi şöhrəti və erməni saxtakarlığı



**1913-cü ilin iyununda Üzeyir Hacıbəylinin "Arşın mal alan" adlı yeni bir operetta yazdığı haqda mətbuata xəbər sızmışdı. Əsərin nə məzmunda, nə biçimdə olduğundan kimsənin xəbəri yox idi. Nəhayət, Üzeyir bəy 30 iyulda Peterburqdan Hüseynqulu Sarabskiyə kiçik bir məktub göndərmişdi.**

Bu məktubda o, "Arşın mal alan" adlı yeni operetta üzərində işlədiyini söyləyirdi və çox qəribədir ki, əsəri haqqında öncəgörənlik edirdi: "Mən dəxi bu halda bir tərəfdən dərs oxumaqda və bir tərəfdən də "Arşın mal alan"ı yazmaqdayam. Amma çox qəribə operetta olacaqdır. İnşallah, sentyabrda göndərərəm ki, əvvəlcə onu qoyasınız".

Məktubun sonunda Üzeyir bəy daha bir uzaqgörənlik edib yazırdı: "Mən Bakıda olarkən öz əsərlərimin qədrini bilməmişəm, amma burada bilirəm ki, mənim əsərim gələcəkdə böyük bir iş görəcəkdir..."

Doğrudan da, həyat göstərdi ki, Üzeyir bəy öz əsərinin bədii dəyərini hər kəsdən daha öncə və daha dəqiq bilib. Bunu bu şən, koloritli, bəşəri, həm də milli operettanın sonrakı səhnə taleyi də sübut etdi.

Üzeyir bəy Müslüm Maqomayevə göndərdiyi bir məktubda "Arşın mal alan" tamaşasında əsas rolların ifaçılarını belə müəyyənləşdirmişdi: Əsgər – H.Sarabski, Gülçöhrə – Ə.Ağdamski, Süleyman – H.Terequlov, Soltan bəy – M.A.Əliyev. Bu rol bölgüsündən də görünür ki, bəstəkar öz əsərinin səhnə taleyinə nə qədər ciddi yanaşırmış.

Əlbəttə, o dövrdə təzə bir əsəri tamaşaya qoymaq elə də asan deyildi. Bunu tamaşanın ilk iştirakçılarının xatirələrindən də görmək olar. "Arşın mal alan" musiqili komediyasında Soltan bəy rolunu 600 dəfədən çox oynamış Ələkbər Hüseynzadə ilk tamaşanı xatırlayaraq yazırdı: "Bizim daimi binamız olmadığı üçün "Arşın mal alan" operettasının məşqlərini qiraətxanalarda, məktəblərdə, Hüseyn Ərəblinskinin və Sidqi Ruhullanın mənzillərində keçirirdik. Biz əsəri öyrəndikcə daha da həvəslənirdik. Komediyanın musiqisi və mətni bizi ruhlandırırdı. Nəhayət, "Kaspi" qəzetində bir elan çıxdı: "Cümə günü, 1913-cü il oktyabr ayının 25-də Tağıyevin teatrında Üzeyir Hacıbəylinin "Arşın mal alan" adlı orijinal operettası tamaşaya qoyulacaqdır".

"Arşın mal alan"ın ilk tamaşası ilə bağlı "Sədayi-həqq" qəzeti qabaqcadan ictimaiyyəti muştuluqlayır ki, bəs, "... operettada opera dəstəsinin ən yaxşı artistləri: Abasov, Ağdamski, Əliyev, Hüseynzadə, Sarabski, Terequlov və başqaları iştirak edirlər".

Əfrasiyab Bədəlbəyli Üzeyir bəyin komediyalarını yüksək qiymətləndirərək yazırdı: "Doğrudan da, Üzeyir Hacıbəylinin yazmış olduğu komediyaların ("Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan") əsas məziyyəti bundadır ki, bu əsərlərin musiqisini kənarda qoysaq belə, yenə də onlar bir dramatik əsər kimi heç də Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin pyeslərindən geridə qalmır".

Zamanında Məhəmməd Əmin Rəsulzadə "Arşın mal alan" operettasını da dəyərləndirmiş, həmişə olduğu kimi, əsəri səhnədə canlandıran aktyorları da unutmamışdı. M.Ə.Rəsulzadə "Arşın mal alan" məqaləsində yazır: "Arşın mal alan" operettası ictimai operetta zəminində gülgü və "keyf" ilə... tənqid edən lətif bir əsərdir".

"Arşın mal alan" səhnəyə qoyulduğu gündən xalqın sevimlisi oldu. Hətta elə o dövrdə bu əsər rus, gürcü və erməni dillərinə tərcümə edildi. Bu müvəffəqiyyətin səbəblərini aramaq, bulmaq üçün ermənicə "Mşaq" qəzetinin müdiri sentyabrın 1-də Tiflisdə mövqe tamaşaya qoyulmuş olan məzkur operettanı dinləyərək şöhrətinin səbəblərini aşağıdakı sətirlərdə bəyan etmişdir. "Mşaq" müdiri deyir: “Tamaşanın axırına kimi qaldım və qonşumuz türklərlə daimi bir münasibət və təmasda bulunan erməni xalqının "Arşın mal alan"a kəmali-zövq ilə tamaşa etmələrinin səbəbləri mənə aydın oldu. Düşündüm ki, xalqı bu tamaşadan çəkindirmək mümkün deyildir".

Əslində, erməni jurnalistin rahatlığını pozan, onu durub Tiflisə getməyə vadar edən iftixar hissi deyil, paxıllıqdır, sadə ermənilərin bir Azərbaycan bəstəkarının əsərinə bu qədər vurğunluğundan yaranan həsəddir. "Mşaq" qəzetinin redaktoru bunun səbəbini onda görür ki, "...Ermənilər əsrlərdən bəri türk-tatarların və farsların təxti-hakimiyyətində yaşayıb-gəlməsindən və qulaqları tar və kamança sədası ilə dolmuş olmasından ibarətdir ki, şərq musiqisi erməni millətinin də iliyinə və sümüyünə yerləşmiş və ruhuna hopmuşdur".

Erməni ziyalıları görəndə ki, sadə erməniləri heç cür "Arşın mal alan"a baxmaqdan daşındıra bilməyəcəklər, əsəri mənimsəmək, "özününküləşdirmək" fikrinə düşürlər. Müslüm Maqomayev 1919-cu ildə "Azərbaycan" qəzetində təəssüf hissi ilə yazırdı: "Erməni xadimlərindən birisi mənə sübut etmək istəyirdi ki, "Arşın mal alan", əslində, qədim zamanlarda... ermənicə yazılıb-oynanmışdır. O bu pyesin keçmişdə Türkiyədə oynandığını da iddia edirdi... Bütün bu rüsvayçılıqlara son qoymaq zamanı deyilmi?"

Bəli, doğrudan da, başqasının əsərinə sahib çıxmaq istəyi paxıllığın, xəbisliyin, abırsızlığın son həddidir və xalis erməni xislətidir. Hazır kökə tapmaq xəstəliyinə tutulmuş ermənilər, sadəcə, unutmuşdular ki, böyük Yaradanımız o dahiyanə istedadı Üzeyir bəyə hərtərəfli verib. Üzeyir bəy bütün əsərlərinin librettosunu, dramaturji mətnini ("Koroğlu"dan başqa) özü yazıb. Onun əsərləri öz xəlqiliyinə, milliliyinə, bəşəriliyinə, musiqisinin sadə və yaddaqalanlığına, melodiyasının gözəlliyinə, saflığına görə milyonların məhəbbətini qazanmışdır. Dahi Mirzə Cəlil özünəxas bir orijinallıqla yazırdı: "Amerikanın Nyu-York şəhərində bir qəzet xəbər verir ki, Amerikanın teatrlarında da "Arşın mal alan" operettasını tezliklə oynamağa başlayıblar. Mən də bunu ərz edə bilərəm ki, altıaylıq səyahətimdə gördüm ki, Aşqabaddan tutmuş Daşkənd, Orenburq, Samara, Tsaritsın, Həştərxan, Petrovsk, Vladiqafqaza qədər küçə və bazarda "Arşın mal alan"dan savayı özgə danışıq yoxdur. "Arşın mal alan"ın sirri budur ki, bu qədər şöhrət tapıb, budur səbəb ki, erməni, gürcü, rus və amerikalı həmin əsərə nəhayət müştaqdılar".

Ermənilərin "Arşın mal alan"a olan hərisliyi və əsərin müəllifinə paxıllığı onların son dərəcə rüsvayçı, insanlıqdan kənar əməllərə də sövq edib. Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə "Üzeyir Hacıbəyov və kino" kitabında yazır: "Arşın mal alan" operettasını ermənilər tərəfindən mənimsənilməsi hadisəsi 20-ci illərin əvvəlinə gedib çıxır. Hələ 1915-ci ildə "Arşın mal alan" Tiflisdə erməni dilinə tərcümə olunub tamaşaya qoyulmuşdu. Gürcüstanda sovet hökuməti yarandığı ərəfədə bir qrup erməni aktyoru və əsəri tərcümə edən ölkədən mühacirət etdilər. Onlar gedəndə operettanın not materiallarını da özləri ilə apardılar. Bu fırıldaqçı dəstə əsəri əvvəlcə İstanbulda, sonra isə Afinada tamaşaya qoydular. Oradan da ABŞ-a getdilər.

1925-ci ildə Ü.Hacıbəyov ABŞ-dan bir məktub alır. Məktubun müəllifi keçmiş bakılı, məşhur violonçel ifaçısı, vaxtilə Bakı konservatoriyasında dərs demiş professor Okorokov idi. Məktubda deyilirdi: "Maqalyan familiyalı birisi erməni artistlərindən truppa yaratmışdır. O hər yerdə "Arşın mal alan"ı göstərir, tez-tez ABŞ-ın müxtəlif şəhərlərində qastrola gedir... Maqalyan artıq elə varlanmışdır ki, özünə beşmərtəbəli ev almış və həmin binanın fasadına "Arşın mal alan" yazmışdır".

Erməni rejissoru Maqalyanın çəkdiyi bu filmə 1942-ci ildə İranda qastrolda olan bir qrup incəsənət xadimimiz də tamaşa etmiş və erməni həyasızlığının şahidi olmuşdular. Təbrizdə bu filmə baxanlardan biri də Xalq artisti Leyla Bədirbəyli idi. Leyla xanım bu barədə "Ömrümün nağılları" xatirələr kitabında yazır: "Bir gün küçədə reklam gördük. "Arşın mal alan"ın gündüz seansına getdik. Üzdəniraq bir "Arşın mal alan" filminə tamaşa elədik. Filmin rejissoru... erməni idi. Amerikada istehsal olunan bu filmdə nə Üzeyir bəyin, nə də Azərbaycanın adı çəkilirdi. Qadın rollarının ifaçılarının ərəb, ya da hind qadını olduğu bilinmirdi. Kişi rollarının ifaçılarının da hansı millətə mənsub olduğu anlaşılmırdı. Tərtibat, geyimlər notdan kənar səslənirdi. Biz hamımız son dərəcə həyəcanlı idik. Birtəhər filmin sonunadək dözə bildik. Bu film tamaşaçını heç tərpətmirdi də... Kinoteatrdan çıxanda Bülbül özünü saxlaya bilmədi. Qəzəblə: – Belə biabırçılıq olar? Bu ki əsl oğurluqdur. Bakıya çatan kimi gərək Üzeyir bəyə bu məsələni danışaq, – dedi".

Əlbəttə, Üzeyir bəyin bu biabırçılıqdan xəbəri var idi. Bəstəkar müəlliflik hüququnun tapdalandığı barədə o zaman ölkə rəhbərliyinə müraciət etsə də, Sovet İttifaqı müəllif hüquqlarının müdafiəsi haqqında beynəlxalq konvensiyaya qoşulmadığı üçün əməli bir iş görülməmişdi. Ancaq məsləhət belə olmuşdu ki, "Arşın mal alan" əsasında film çəkilsin, bununla da bu məsələyə son qoyulsun.

Nə yaxşı ki, 1945-ci ildə, Üzeyir bəyin öz sağlığında Bakıda "Arşın mal alan" filmi çəkildi və çox da uğurlu alındı. İlk dəfə 18 sentyabr 1945-ci ildə nümayiş etdirilən "Arşın mal alan" filmi tezliklə xarici ölkələrin də ekranlarına yol açdı və bu məşhur operettanın əsl müəllifinin Üzeyir bəy Hacıbəyli olduğu bütün dünyaya bəlli oldu. Beləcə, ermənilərin "Arşın mal alan"a olan çirkin tamahının, saxtakarlığının qarşısı alındı.

Yeri gəlmişkən xatırladım ki, filmdə Gülçöhrə rolunu Leyla Bədirbəyli, Əsgər rolunu isə Rəşid Behbudov canlandırmışdır. Leyla xanım 1942-ci ildən başlayaraq Azdramada aktirisa kimi fəaliyyət göstərmişdi. Mən onun iştirakçısı olduğu tamaşalara çox baxmışdım. Onunla tanışlığım isə 1993-cü ildə olmuşdu. Leyla xanım səhnə fəaliyyətinə ilk dəfə I Dövlət Rəqs Ansamblında rəqqasə kimi başlamışdı. 1936-cı ildə rəqs kollektivi yenicə yaradılmış dövlət filarmoniyasına keçirilmişdi. Leyla xanım da Üzeyir bəylə ilk dəfə burada tanış olmuşdur. Xoşbəxtlikdən Leyla xanım illər sonra xatirələrini qələmə almışdır.

Doxsanıncı illər idi. Leyla xanım bir gün “Ömrümün nağılları” adlı xatirələr kitabının əlyazmasını mənim Baş redaktoru olduğum “Gənclik” nəşriyyatına gətirmişdi. Əlyazmasını oxuyub çapa hazırladıq.

1998-ci ildə nəşr olunan bu kitabda Leyla xanımın özü, sənət yoldaşları və Üzeyir bəy haqqında çox dəyərli xatirələri vardır. Leyla xanım yazır: “Mahnı və rəqs qrupunda olanda bu mehriban insanın nurani siması bizi heyran edərdi. Hər gün onun məşqlərində olmaq, onun səsini, məsləhətini eşitmək səadət idi. Mən hələ elə bir insan tanımıram ki, Üzeyir bəyi tanıyıb, ona məftun olmasın. O, uşaq kimi sadə, müdrik, xeyirxah, qayğıkeş, fədakar və mərd bir insan idi. Onu da qeyd edim ki, filarmoniyanın nəzdində olan bütün kollektivlərin, o cümlədən mahnı və rəqs ansamblının təşkili və fəaliyyəti Üzeyir bəyin əməyi və şəxsi iştirakı ilə bağlıdır”.

Mən gənclik illərində Üzeyir bəyi yaxından tanıyan, onunla ünsiyyətdə olan, ondan dərs alan, xeyirxahlıq görən bir çox mədəniyyət və incəsənət xadimləri ilə görüşüb söhbət etmişəm. Hər bir müsahibim Üzeyir bəyi məhəbbət və hörmətlə anır, ruhu qarşısında baş əyirdilər. Çünki Üzeyir bəy xeyirxahlıq və nəciblik mücəssəməsi olmuşdur.

***Mustafa ÇƏMƏNLİ,***
***yazıçı-publisist,***
***Əməkdar mədəniyyət işçisi***

Pənah Xəlilov – 100

# XX əsrin klassikləşmiş ədəbiyyatşünası

**Görkəmli ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru, professor Pənah Xəlilov hər zaman xoş duyğularla xatırlanan söz-sənət adamıdır.**

Onunla ilk görüşümüzü indiki kimi xatırlayıram. 1982-ci il idi və mən qiyabiçi tələbə olaraq çoxtirajlı “Kimyaçı” qəzetində işləyirdim. Fikrət Qocanın “İnsan xasiyyəti” kitabının Dövlət mükafatına təqdim olunması ilə əlaqədar Kimya Sənayesi İstehsalat Birliyində görüş təşkil olunmuşdu. Qələmdaş və dostları Salam Qədirzadə, İshaq İbrahimov, Pənah Xəlilov, Vaqif İbrahim çözəl çıxışlar etdilər. Mənə də söz verildi və şairin kitabı haqqında təəssüratlarımı bölüşdüm. Sonra çay süfrəsi arxasında professor Pənah Xəlilov məni göstərərək: “Bu cavan oğlanın çıxışını çox bəyəndim”, – dedi. Onun verdiyi qiymət məni ədəbiyyatı daha dərindən öyrənməyə ruhlandırdı.



O zaman Pənah müəllim Azərbaycan Dövlət Universiteti (indiki BDU) SSRİ xalqları ədəbiyyatı tarixi kafedrasının müdiri idi. Bizə dərs demirdi, amma hər görüşəndə ona ehtiramımı bildirirdim. Filologiya fakültəsindən olan tələbələri onu bir müəllim və alim kimi çox sevdiklərini hər yerdə etiraf edirdilər. Mən də professorun “Ədəbiyyatşünaslığın əsasları” (Mir Cəlalla müştərək), “Nəsrimizin üfüqləri” adlı kitablarını alıb həvəslə oxumuş, çox dərin mənalar əxz eləmişdim.

Pənah İmran oğlu Xəlilov 1925-ci il iyulun 1-də Borçalı mahalının Sadaxlı kəndində ziyalı ailəsində anadan olub. İbtidai təhsilini orada alıb. 10 yaşı olanda ailəlikcə Gəncəyə köçdüklərindən M.Ə.Sabir adına 5 saylı şəhər orta məktəbində oxuyub. Universitetin filologiya fakültəsini bitirib. Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı, sonra baş müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışıb. 94 illik ömrünün 76 ilini bu ali təhsil ocağına həsr edib. Professor adını isə 50 ilə qədər layiqincə daşıyıb. Onun arxasınca gələn neçə-neçə eloğlusu – Həmid Vəliyev, Adixan Bayramov və başqaları da filologiyaya ömürlük könül veriblər.

Bütün yazdıqları Pənah Xəlilovun ədəbiyyatşünaslıq və bədii tərcümə ilə necə ciddi məşğul olduğuna dəlalət edir. İntibah abidəmiz olan “Kitabi-Dədə Qorqud”dan tutmuş, Nizami Gəncəviyə, Əhməd Yəsəviyə, “Əli və Nino”ya, Taras Şevçenkoya, digər türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatına aid araşdırmaları, Heredotdan, Migel de Servantesdən çevirmələri digər məziyyətləri ilə bərabər, dilin incəliklərini dərinliyinə qədər bildiyini göstərirdi. Təsadüfi deyil ki, Pənah Xəlilov ədəbiyyat dərslərində milli məfkurənin təbliğinə ciddi fikir verirdi və bu mövzuda diqqətəlayiq bir elmi-metodik vəsait də yazmışdı. Tərcüməçilərdən istədiyi peşəkar səviyyəni hamımızın sevə-sevə oxuduğumuz “Don Kixot” romanını bizə doğmalaşdırmaqla əyani olaraq göstərə bilib.

Ötən il “Qanun” nəşriyyatı “Qızıl klassika” seriyasından yuxarıda adını çəkdiyim Heredotun “Tarix” əsərini tam halda – 9 kitabda çap edib. Həmin kitabların 5-ni məhz Pənah Xəlilov dilimizə çevirib. Azərbaycanın qədim tarixini öyrənmək baxımından da qiymətli olan bu əsərlərdə midiyalılar, iskitlər (skiflər), onların Azərbaycana gəlmələri, ərazilərimizdə yaşamış qədim qəbilə və tayfalar haqqında son dərəcə dəyərli məlumatlar böyük elmi əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, Pənah müəllim klassikanın tərcüməsi barədə deyirdi: “Çoxdur klassik əsərlər. Hamısı da öz tərcüməsini gözləyir. Amma imkan məhdudluğuna görə zirvə hansıdırsa, günün ruhunu bizə daha sənətkaranə şəkildə hansı əsər çatdırırsa, onları qabağa salmalıyıq. Biz çalışmalıyıq ki, birinci növbədə öz məfkurəsinə, sənətkarlıq səviyyəsinə görə çox yüksəkdə duran və bu gün də bizə lazım olan əsərlərin tərcüməsi vacib sayılsın”.

Sevimli müəllimimiz olan professor Camal Mustafayev Pənah müəllim barədə danışarkən qısaca deyib: “Yazdıqları ilə özünə heykəl qoydu”. Gözəl qiymətdir. 22-si elmi, 18-i isə tərcümə ədəbiyyatı olan 40 kitab müəllifi Pənah Xəlilov yeniyetmə çağlarından pənah gətirdiyi ədəbiyyata ömrü boyu sadiq qalıb, söz sənətinə soyadına uyğun olaraq xəlillik – yaxın yoldaşlıq, əziz dostluq edib.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Rəngli saplardan toxunan gözəllik



**Dekorativ, tətbiqi sənətin bir növü olan əl toxuculuğunun qaynağı xalq yaradıcılığıdır. Mil və ya milçə vasitəsilə toxunan isti geyimlər, əlcəklər, corablar və s. xüsusilə, qış aylarında kara gəlir, sağlamlığı qoruyur. Qədim dövrlərdən bu günə qədər analarımız, nənələrimiz toxuculuq sənəti ilə məşğul olmuş, bildiklərini gənc nəsilə ötürmüşlər.**

Haqqında danışacağımız gənc 13 yaşından bu peşənin sirlərinə yiyələnib. Quba rayonunun Zərdabi qəsəbəsində anadan olmuş 24 yaşlı Hüseyn Kərim bu sənəti uşaq yaşlarından sevib-seçdiyini deyir:

– Xalam toxuculuqla məşğul olurdu. Onun əl işlərinə baxaraq özüm də toxumağa başladım. Sonra əl işlərimi daha da təkmilləşdirmək üçün internetdə əl toxuculuğu ilə bağlı araşdırma apardım. Elə o vaxtdan bu sənətlə məşğul oluram.

**Gənc sənətçi deyir ki, toxuma dəqiqlik və incəlik tələb edir:**

– Bir işi həvəslə, səbrlə görəndə daha yaxşı nəticə əldə etmək olur. Mən də çalışıram ki, sənətimlə daha gözəl işlər görüm. Toxuculuqla yanaşı, rəqqaslığı da öyrənmişəm. Gözəllik salonunda, həm də saçboyama və üz bəzəmə ustası kimi çalışıram.

**Hüseyn daha çox körpələr üçün ayaqqabılar toxuyur:**

– Müxtəlif üslubda və rənglərdə əl işlərim var. Toxunma ayaqqabılar uşaqların daha sağlam böyüməsi üçün faydalıdır. İşlərimi “TikTok” sosial şəbəkəsində paylaşıram. İlk dəfə canlı yayımda bir gənc xanım gördü ki, bu işi yaxşı bacarıram. O da məni həvəsləndirdi. Canlı yayımda uşaq ayaqqabıları toxumağa başladım. Daha sonra hazırlanma prosesi ilə bağlı qısa videoçarx paylaşdım. Bu daha çox izləyicinrin marağına səbəb oldu. Getdikcə izləyici sayı artmağa başladı.

**Müsahibimiz gələcəkdə şəxsi brendini yaratmağı da düşünür:**

– Uşaq ayaqqabıları ilə yanaşı, rəngarəng və fərqli dizaynda çantalar toxumağı qarşıma məqsəd qoymuşam. İstəyirəm ki, izləyicilər məni daha çox tanısın və bu işlə məşğul olmaqdan çəkinməsinlər.

Toxuculuq sənətini yaşadan gənclərin sayı artır. Bu sənətin sirlərinə daha dərindən yiyələnmək istəyirlər. Mən də öz növbəmdə öyrəndiklərimi onlara ötürürəm.

***Söhbəti yazdı:***
***FİDAN***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 134 (30828) 4 iyul 2025-ci il, cümə

# İDMAN

## Millimiz Avropa 2-cisi olub



**Azərbaycanın yunan-Roma güləşi millisi İtaliyanın Kaorle şəhərində keçirilən U-20 Avropa çempionatında ikinci olub. Azərbaycan Güləş Federasiyasından mətbuata verilən məlumata görə, komanda yarışı 1 qızıl, 3 gümüş, 2 bürünc medalla başa vurub.**

129 xal toplayan milli yığma çempion Gürcüstandan cəmi 6 xal geri qalıb. İlk "üçlük"də yer alan Ukrayna da 129 xal toplayıb. Ancaq medalların əyarına görə millimiz önə çıxıb.

Qeyd edək ki, böyük məşqçi Nurəddin Rəcəbov, məşqçilər Emin Əhmədov və Turac Hüseynlinin rəhbərliyi altında Ayxan Cavadov (60 kq) qızıl, Turan Daşdəmirov (55 kq), Tural Əhmədov (63 kq) və Davud Məmmədov (77 kq) gümüş, Fəraim Mustafayevlə (67 kq) Elmin Əliyev (82 kq) isə bürünc medal qazanıblar.

## Cüdoçularımız Praqada yarışacaqlar

**Azərbaycanı iyulun 5–6-da Çexiyanın paytaxtı Praqada keçiriləcək gənclər arasında Avropa kubokunda təmsil edəcək cüdoçular müəyyənləşib. Belə ki, Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə reallaşacaq yarışa 10 çəki dərəcəsində 22 idmançımız (14 oğlan, 8 qız) qatılacaq.**




Yarışda kişi cüdoçulardan Mirxaliq İskəndərov, Ayxan Mirzəzadə, Nicat Eyvazov (hamısı 60 kq), Mehdi Cəfərov, Səlim Sultanov, Nihad Yəhyayev (hamısı 73 kq), Nahid Tarquliyev, Roman Qarayev, Mehdi Abbasov, Cəsur İbadlı (hamısı 81 kq), Canpolad Əliyev, Əli Qazıməmmədov (hər ikisi 90 kq), Davud Namazlı, Vidadi Əliyev (hər ikisi 100 kq), qadınlardan Aydan Vəliyeva, Xədicə Qədəşova (hər ikisi 52 kq), Fidan Qasımova, Gülnarə Bayramova (hər ikisi 57 kq), Nilgün Rzayeva, Leyla Atayeva (hər ikisi 63 kq), Pərvanə Abdullayeva (70 kq), Nigar Süleymanova (+78 kq) iştirak edəcək.

Turnirin ədalət təmsilçiləri arasında ACF-nin hakimlər heyətinin üzvləri, A kateqoriyalı beynəlxalq dərəcəli hakimlər Arzu Acalova və Akif Tahirov da yer alacaq.

## Boksçumuz Dünya Kuboku yarımfinalında

**Azərbaycan boksçusu Sübhan Məmmədov (50 kq) Qazaxıstanın paytaxtı Astanada keçirilən Dünya kubokunda yarımfinala vəsiqə qazanıb. Bu barədə Azərbaycan Boks Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**



Sübhan Məmmədov 1/4 finalda Samet Gümüşlə (Türkiyə) qarşılaşmalı olsa da, rəqib döyüşə gəlməyib. Nəticədə boksçu adını yarımfinala yazdırıb. O, bununla özü üçün ən azı bürünc medalı təmin edib.

Qeyd edək ki, 30 ölkədən 300-dək boksçunun qatıldığı Dünya kubokunda 1/4 final mərhələsinin döyüşləri davam edir.

***M.HACIXANLI***
***XQ***

*✓ 2008-ci il sentyabrın 26-da Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən Cavadov Anar İlham oğlunun adına verilmiş torpaq sahəsində tikinti işlərinin aparılmasına icazə barədə 1085 nömrəli sərəncamın əsli itdiyi üçün etibarsız sayılır.*

*✓ 2008-ci il yanvarın 10-da Abşeron rayonunun Xırdalan bələdiyyəsi tərəfindən Cavadov Anar İlham oğlunun adına verilmiş 03 nömrəli sərəncam itdiyi üçün etibarsız sayılır.*

*✓ 2008-ci il yanvarın 25-də Abşeron rayonunun Xırdalan bələdiyyəsi tərəfindən Məmmədov Məmməd Məhər oğlunun adına verilmiş 21 nömrəli sərəncam itdiyi üçün etibarsız sayılır.*

*✓ Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Salmanzadə Cavid Səxavət oğlunun adına verilmiş xüsusi riskli xilasetmə xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

Gəlimli-gedimli dünya

# Şirin xatirələrin ölümsüzlüyü...

**Tale qılıncını necə çəkdisə, bir ürək ikiyə böləndü. Səni sonsuz bir istəklə gözləyən anan kimi, qucağını necə də geniş açmışdı balaca məzarın. Bir dünyaya sığmayan balaca məzar daşındakı şəklinə baxanlar da könlünə, meylinə bələd olurlar. O gülgün gözlərindən də sənin şirinliyini duyanlar az deyil. Kaş ki, yerimizi dəyişə biləydik...**




Tanrıdanmı gəldi bir belə ahəng? Bəzədi ömrümü qüssə də rəng-rəng. Səndən sonra hər gün sinəm üstə dil-dil ötən sazım susdu. Sənə şirin layla çalan



bulaq gözlü anan gecə-gündüz çeşmə-çeşmə çağlayır. Divardan asılan qara donlu sazım indi daha yanğılı ağlayır.

Sən gedəndən gözlərimizin biri güldü, biri ağladı. Anan qara bağladı. Ağaran saçlarımın hər telində duyuram həsrətini. Səni düşündükcə haldan-hala düşürəm. Hər gün qulağımda səslənən dərdli bir türkünün ən incə nəqaratındasan:

**Çarəsiz dərdimə dərman bulmadım,**
**Səndən sonra bir gün mutlu olmadım.**

Həyat mənə nə veribsə, ona qane olmuşam. Var-dövlət könül açsa da, balanın yerini verməz, bala bal dadır. Mənəvi iztirablar adamı içdən öldürür. Sən doğulandan ömrün ömrümüzə calanmışdı. Növaziş gözləyən şehli güllər kimi həyatımız şirin qayğılarla doldu. Balaca varlığınla, yaz qoxulu nəfəsinlə, gülüb ağlamağınla atalı-analı dünyanı işıqlandıran bir ulduz idin. 3 oğul atası olmaq səadəti bəxş etmişdin mənə.

3 qardaş 3 sacayağının üstündə yanan ocağımız kimiydiniz. Sizin işığınıza pərvanə işığa yığışan kimi yığışırdıq. Evimizin çırağı daha da gur yanırdı. Qardaşlarınla birgə üzü Günəşə doğru qaçdığınız günlər nə bəxtəvər idik? Ürəyimdə yatıb-durub oyanırdınız. Sizə baxırdım, qönçə-qönçə arzularım gül açırdı. O fərəhli günlərin gündüzündə ürəyimdə uşaqlıq sevinci dil açırdı. Gecələr təzə doğulmuş Ay, göy üzündə sayrışan ulduzlar həyatimizə nur saçırdı. Həyatımız da, həyətimiz də elə nurlu idi ki...

Ömrümə-günümə əzəli, əbədi nur paylayarkən sən uçub getdin. Ən dadlı xatirələrlə, ən bakirə duyğularla ayrıldın bizdən:

**Tanrı istədi, verdi,**
**Səni verənə qurban.**
**İndi səni görmürəm,**
**Səni görənə qurban.**

Səndən sonra axan sularımız da qurudu. Könül quşlarımız uçub qürbətə getdi. İndi səmtini azan durnaların günündəyik. Yaş yetmiş, ömür bitmiş. Anan da, mən də ömür macalının son vədəsindəyik. Son ümid son yarpaq kimidir, oğul! Son ümidimiz son yarpağın gözündə yaşa döndü.

Elə hey səndən ötrü burnumun ucu göynüyür. Bir zamanlar sənə oxuduğum nəğmələri indi çöllərin quşuna, dağların daşına oxuyuram. Adına yazdığım nəğmələr, şeirlər birmi, beşmi?! Duyğularla dilləşəndə, yerlə, göylə əlləşəndə sənə şeir yazıram:

**Güllər könülsüz açılmaz,**
**Yılmaz, başına dönüm!**
**Yaşıl otlar yaz gecəsi**
**Solmaz, başına dönüm!**
**Oğul atasından qabaq**
**Ölməz, başına dönüm!**

**Ürək yanar, göz ağlayar,**
**Gülməz, başına dönüm!**
**Nə boyunu öyə billəm,**
**Nə nağıllar deyə billəm,**
**Nə ağılar deyə billəm –**
**Lalam başına dönüm!**
**Balam, başına dönüm!**
**Yana-yana ürəyimi dağladım,**
**Şəklini bağrıma basıb ağladım,**
**Asdım sinəm üstən ürək yerinə,**
**Gəlmişdin dünyaya mələk yerinə...**

Bu sədəf düzümlü zərif, kövrək, dərd-ələmli misralar yazıldıqca qəlbimə od salır, məni məndən alır. Bəlkə, yazmaq da bir təsəllidir. Yazıram ki, bəlkə, rahatlıq tapım. Şirin xatirələrini ölümsüzləşdirən nisgilli və təsəllisiz kiçik dünyanı xəyalıma gətirdikcə nəğməyə dönüb, elə hey qulağımda səslənir...

İçim özümü yandırır, çölüm özgəni...

Qəmdən xəbərsiz olan hansı könül sahibi dərdi duya bilər ki?! Vaqif Səmədoğlu demiş: Özgə dərdi uzaq ulduz kimidir – işığı çatır, istisi yox.

O sənli günləri necə qaytarım? Səni necə ürəyimdən qoparım?! Sən bir taleyin xəyalagəlməz cilvəsinə bax!.. Məzarın üstündə açan güllərdən bəllidir bəxtiyarlığın. Sən bu dünyada çatmadığın arzularına haqq dünyasında çatdınmı, oğlum?!

Dünyanın işi bələdir, oğlum. Gedənlərin yeri dolmur... Sənin kiçik həyatının bircə səhifəsi də bu dumanlı dünyanın kölgələri içərisində unudulmur. Son baharda çiçəklər solsa da, xoş diləklər solmur, Yılmazım, solmur... Sənə qovuşmaqdan özgə nə diləyim var ki...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Türk Mədəniyyəti və İrsi Fondu MEK-ə nəşrlər hədiyyə edib

**Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti, professor Aktotı Raimkulova, Fondun Aparat rəhbəri professor Fəxri Hacıyev AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (MEK) nəşrlər hədiyyə ediblər.**



Hədiyyə olunan nəşrlər AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin göstərişi ilə MEK-in Diplomatik fondunda yaradılan "Türk Mədəniyyəti və İrsi Fondu" adlı guşəyə yerləşdirilib. Onların sırasında "Türk dünyasının görkəmli şəxsiyyətləri", "Türk dünyasının tarixi inciləri", "Türk ədəbiyyatının inciləri" və "Türk dünyasının elmi inciləri" adlı yeni kitab seriyaları yer alıb. Xüsusilə, "Divanü lüğat-it-türk"ün izahlı tərcüməsi sonuncu seriyanın ən qiymətli nümunələrindən biri kimi təqdim olunub.

Fondun prezidenti professor Aktotı Raimkulova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlət başçılarının dəstəyi ilə yaradılan Fond Türk dünyasının zəngin mədəni irsinin qorunması və dünyaya tanıdılması istiqamətində fəal çalışır.

***XQ***

# İspanaq, yoxsa, kələm?

**Avstraliya və Danimarka alimləri belə nəticəyə gəliblər ki, ispanaq və kələm insanı ürək xəstəliklərindən qoruyur. Araşdırmanın nəticələri "European Journal of Nutrition" (EJN) jurnalında dərc olunub.**

Bidirilir ki, ispanaq, kələm və brokolinin müntəzəm istifadəsi ateroskleroz və digər ürək-damar xəstəlikləri riskini əhəmiyyətli dərəcədə azalda bilər.

Edith Cowan Universiteti, Qərbi Avstraliya Universiteti və Danimarka Xərçəng İnstitutunun alimləri çarmıx və yaşıl yarpaqlı tərəvəzlərdə olan K1 vitamininin təsirini araşdırıblar. Onlar gündə bir yarım stəkan ispanaq, kələm və ya brokkoli yeməyin daha nazik karotid arteriya divarı ilə əlaqəli olduğunu tapıblar.

Karotid arteriyanın əsas funksiyası görmə aparatını, beyini və başın çox hissəsini qanla təmin etməkdir. Onun epitelinin qalınlaşması (düz hüceyrələrin daxili təbəqəsi) aterosklerozun erkən mərhələlərinin göstəricisidir. Bu patoloji ilə xolesterin və onun esterləri divarlarda toplanır, xarakterik lövhələr əmələ gətirir.

Ateroskleroz qan damarlarının divarlarına təsir edib onların elastikliyini azaldır və qan axınına manеə yaradır. Bu, infarkt və vuruş kimi təhlükəli vəziyyətlərə səbəb ola bilər.

Müəlliflər vurğulayırlar ki, pəhrizdə K1 vitamini nisbətinin kiçik bir artımı belə nəzərəçarpacaq müsbət effekt verir və fayda təkcə ürək-damar sisteminə deyil. Kələm və ispanağı gündəlik qida rasionuna daxil etmək asandır. Onların tərkibində olan K1 vitamini sümük sağlamlığı üçün də vacibdir.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

# Abşeronda güclü külək, bölgələrdə yağış...

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat verib.**

Bildirilib ki, havanın temperaturu gecə 19-21, gündüz 24-28 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 19-22, gündüz 28-32, dağlarda gecə 6-10, gündüz 13-18 dərəcə isti olacaq.

***XQ***



# ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi akademiyanın əməkdaşı Faiq Rəhimova qardaşı

**ŞAHİD RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi institutun əməkdaşı Elmar Rəhimova atası

**AĞARƏHİM RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2869
SİFARİŞ 1257
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00